# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 73

*Milli Məclisin iclas salonu.*
*26 may 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 115 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 104 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Çingiz Əsgərov**, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini.

**Kərəm Mansurov**, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri.

**Anar Hüseynov**, Azərbaycan Respublikası Ali Məhkəməsinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsi müdirinin müavini.

**İlkin Abdullayev**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Sənan Qarayev**, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Elşən Abdullayev**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Aytən Əliyeva**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Elməddin Hüseynov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Telman Hüseynov**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Fərid İsmayılzadə**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Rəna Qafarova**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Elnur Nuriyev**, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Bilal Məmmədov**, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Anar Əsgərov**, Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Etibar Mustafayev**, Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Nicat Ağabəyov**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Fəxri Hacızadə**, Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə namizəd.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Ceyran Rəhmətullayeva**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri.

**Taliyə İbrahimova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri.

**Teymur Məmmədov**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin köməkçisi.

**Sevinc Məmmədova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Qadın və gender məsələləri şöbəsinin əməkdaşı.

**Aysel Səmədova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kadr və kargüzarlıq şöbəsinin əməkdaşı.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatı.
2. Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
3. Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.
4. N.T.Əliyevin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında.
5. B.M.Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında.
6. Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
7. Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.
8. Maliyyə icarəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
9. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, “Müflisləşmə və iflas haqqında”, “Taxıl haqqında”, “Beynəlxalq xüsusi hüquq haqqında”, “Tütün və tütün məmulatı haqqında”, “Dövlət rüsumu haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Çayçılıq haqqında”, “Ailə kəndli təsərrüfatı haqqında”, “Atçılıq haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Pambıqçılıq haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Kənd təsərrüfatı kooperasiyası haqqında”, “Elm haqqında”, “Kredit büroları haqqında”, “Nağdsız hesablaşmalar haqqında”, “Daşınar əmlakın yüklülüyü haqqında”, “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” və “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
10. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında

dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bahar Muradova, Hicran Hüseynova, Hikmət Məmmədov, Fazil Mustafa, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Rizvan Nəbiyev, Məlahət İbrahimqızı, Ceyhun Məmmədov, Əli Məsimli, Elnarə Akimova, Azay Quliyev, Zahid Oruc, Azər Allahverənov, Aydın Mirzəzadə, Tənzilə Rüstəmxanlı

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Zahid Oruc, Elşən Musayev

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**3. Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**4. N.T.Əliyevin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**5. B.M.Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**6. Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**7. Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**8. Maliyyə icarəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Səyyad Aran

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, “Müflisləşmə və iflas haqqında”, “Taxıl haqqında”, “Beynəlxalq xüsusi hüquq haqqında”, “Tütün və tütün məmulatı haqqında”, “Dövlət rüsumu haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Çayçılıq haqqında”, “Ailə kəndli təsərrüfatı haqqında”, “Atçılıq haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Pambıqçılıq haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Kənd təsərrüfatı kooperasiyası haqqında”, “Elm haqqında”, “Kredit büroları haqqında”, “Nağdsız hesablaşmalar haqqında”, “Daşınar əmlakın yüklülüyü haqqında”, “Mikro, kiçik**

**və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev, Tahir Rzayev, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**10. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**11. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**12. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev, Sevinc Fətəliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*26 may 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 104 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, ötən bir neçə gün ərzində Azərbaycan yenidən beynəlxalq birliyin diqqət mərkəzində olmuşdur. Bakı şəhəri BMT-nin Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyasına ev sahibliyi etmişdir. Bu cür mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasətin yeni uğuru olmuşdur.

Sessiyada dünya ölkələrindən rekord sayda – 60 minə qədər nümayəndənin iştirak etməsi etibarlı tərəfdaş və qlobal dialoq məkanı kimi Azərbaycanın nə qədər böyük etimad qazandığını bir daha nümayiş etdirmişdir.

Hörmətli deputatlar, dövlət başçısı möhtərəm cənab İlham Əliyev forumun açılışında etdiyi çıxışda Bakıda və ölkəmizin digər bölgələrində müasir şəhərsalma sahəsində həyata keçirilən layihələrdən danışdı. Cənab Prezident xüsusi qeyd etdi ki, Azərbaycanda şəhərsalma ənənələri dərin tarixi köklərə malikdir. Əsrlər boyu burada zəngin şəhər mədəniyyəti

formalaşmış, nadir memarlıq abidələri yaradılmışdır. Bu gün Azərbaycan tarixi irsini qorumaqla yanaşı, həm də dayanıqlı inkişafın müasir standartlarını və şəhərsalmada qabaqcıl yanaşmaları tətbiq edir.

Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri müstəsna əhəmiyyətə malikdir. Qarabağda və Şərqi Zəngəzurda, sadəcə, yeni yaşayış məntəqələri deyil, həm də müasir yaşayış mühiti yaradılır.

Hörmətli həmkarlar, əlamətdar haldır ki, 2026-cı il ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan olunmuşdur. Ümumdünya Şəhərsalma Forumunun məhz belə bir dövrdə keçirilməsi onu göstərir ki, şəhərsalma, memarlıq və dayanıqlı inkişaf məsələləri Azərbaycanın təkcə daxili gündəliyində deyil, həm də beynəlxalq fəaliyyətində mühüm yer tutur.

Hörmətli deputatlar, mən forumun işində Milli Məclisin deputatlarının iştirakını xüsusi qeyd etmək istərdim. Onlar panel sessiyalarında həm fəal iştirak etmiş, həm də müzakirələrdə maraqlı çıxışlar etmişlər. Qeyd edim ki, dayanıqlı inkişafın parlament ölçüsü getdikcə daha böyük əhəmiyyət kəsb edir. Qanunvericilik orqanları müasir şəhərsalma, ekoloji təhlükəsizlik, ərazilərin səmərəli idarə olunması və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi üçün hüquqi əsasların yaradılmasında önəmli rol oynayırlar.

Hörmətli həmkarlar, indi isə mən sizə ötən iki həftəyə yaxın dövrdə Milli Məclis sədrinin başçılığı ilə parlament nümayəndə heyətlərinin iki səfəri barədə qısa məlumat vermək istərdim.

Mayın 14-də Özbəkistan Respublikasının Buxara şəhərinə işgüzar səfərdə məqsəd İkinci Asiya Qadınlar Forumunda iştirak etmək idi. Forumda etdiyim çıxışda mən tədbir iştirakçılarına Azərbaycan qadınlarının ölkə həyatında fəal roluna dair məlumat verdim. Qeyd etdim ki, ölkəmizdə qadınlar siyasi, iqtisadi, elmi və mədəni həyatda fəal iştirak edirlər,

həmçinin dövlət qurumlarında, diplomatiyada, təhsil və dövlət idarəçiliyində yüksək vəzifələr tuturlar.

Xüsusi olaraq vurğuladım ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın geniş ictimai və siyasi fəaliyyəti Azərbaycan qadınlarının cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi mühüm töhfəni əks etdirir. Onun fəaliyyəti qadınların ictimai həyatda artan rolunu aydın şəkildə nümayiş etdirir və dövlət idarəçiliyinin ən yüksək səviyyəsində qadın liderliyinin güclü nümunəsi kimi çıxış edir.

Onu da deyim ki, hörmətli həmkarlar, forumun panellərində nümayəndə heyətimizin üzvləri fəal iştirak etmişlər.

Hörmətli deputatlar, səfər çərçivəsində Özbəkistan və Türkmənistan parlamentlərinin sədrləri, habelə Birləşmiş Ərəb Əmirlikləri parlamenti sədrinin müavini ilə ikitərəfli görüşlərdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, mayın 20-dən 22-dək Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura iclasında və 60-cı plenar iclasında iştirak etmək idi.

Mən həm Şura iclasında, həm də plenar iclasda çıxış etdim. Şura iclasında müzakirə edilən məsələlər barəsində Azərbaycan parlamentinin mövqeyini iştirakçılara çatdırdım.

Plenar iclasda etdiyim çıxışda isə mən ölkələrimizin qanunvericilik orqanları arasında dialoq və əməkdaşlığın inkişafında Assambleyanın rolu haqqında fikirlərimi bölüşdüm. Bu baxımdan  həm müntəzəm qaydada

tədbirlərin, iclasların və seminarların keçirilməsinin, həm də yeni ideya və təşəbbüslərin reallaşdırılmasının əhəmiyyətini qeyd etdim.

Hörmətli deputatlar, onu da nəzərə çatdırım ki, təşkilatın bütün tədbirlərində nümayəndə heyətinin üzvləri fəal iştirak etdilər.

Assambleyanın iclası çərçivəsində Milli Məclis sədrinin müavini hörmətli Ziyafət Əsgərova “Parlament əməkdaşlığının möhkəmləndirilməsinə görə” medalı təqdim olundu.

Hörmətli həmkarlar, Rusiya Federasiyasına işgüzar səfər çərçivəsində Qırğızıstan və Belarus parlamentlərinin sədrləri ilə ikitərəfli görüşlərim oldu. Görüşlərdə dövlətlərimiz arasında yüksək səviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyi vurğulandı. Parlamentlər arasında ikitərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

Hörmətli deputatlar, hesab edirəm, Özbəkistana və Rusiyaya işgüzar səfərlər uğurlu oldu. Bununla əlaqədar mən hər iki nümayəndə heyətinin üzvlərinə öz dərin təşəkkürümü bildirirəm.

İndi isə xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.08 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, qeyd edim ki, bu gün biz 13 məsələni müzakirə etməliyik. Gündəliyimizin 1-ci məsələsi “Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə

fəaliyyəti haqqında" məlumatdır. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri hörmətli Bahar xanım Muradova, komitə Aparatının rəhbəri Ceyran xanım Rəhmətullayeva və digər əməkdaşlar iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı salamlayıram. İndi isə məmnunluqla çox hörmətli Bahar xanım Muradovaya söz vermək istəyirəm. Bahar xanım, buyurun kürsüyə.

**Bahar Muradova,** *Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.*

Sabahınız xeyir, hörmətli sədarət, hörmətli millət vəkilləri. Mən növbəti dəfə sizin qarşınızda çıxış etməzdən əvvəl qarşıdan gələn bayramlar münasibəti ilə hər birinizi ürəkdən təbrik edirəm və Azərbaycanın müstəqilliyinin növbəti ildönümündə birinci məsələnin insan kapitalının inkişafı, bərabərlik məsələsi olduğu üçün bunun özünün də bir simvolik dəyəri olduğunu düşünürəm.

Çox hörmətli sədarət, dəyərli Sahibə xanım, hörmətli millət vəkilləri və media nümayəndələri! 2025-ci il Azərbaycanda sosial inkişafın dayanıqlılığının gücləndiyi, dövlət siyasətinin daha çox insan kapitalı, ailə institutu və gender bərabərliyi üzrə inteqrasiya olunmuş modelə keçdiyi mühüm bir dövr kimi xarakterizə olunur. Bu dövrdə əldə edilən nəticələr statistik göstəricilər olmaqla yanaşı, dövlət qurumları arasında koordinasiyanın dərinləşməsi, rəqəmsal idarəetmənin genişlənməsi və vətəndaş cəmiyyəti ilə əməkdaşlığın institusional xarakter alması kimi strateji dəyişikliklərin nəticəsidir.

İlk növbədə strateji çərçivə və dövlət siyasəti haqqında danışmaq istərdim. Ötən il Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı" bu sahədə yeni mərhələ açmaqdadır. Fəaliyyət Planı

ilk növbədə qadınların sosial-iqtisadi fəallığının artırılmasını, təhsildə və əmək bazarında bərabər imkanların genişləndirilməsini, iqlim və rəqəmsal transformasiya proseslərində gender yanaşmasının gücləndirilməsini prioritet istiqamətlər kimi müəyyən etmişdir. Bu yanaşma göstərir ki, dövlətimiz gender bərabərliyini sosial siyasətin və ümumi inkişaf strategiyasının tərkib hissəsi kimi qəbul edir.

Eyni zamanda, hesabat dövründə gender bərabərliyi siyasəti üzrə qanunvericilik təkmilləşdirilmiş, institusional mexanizmlər daha səmərəli xarakter almış, fəaliyyətin məzmunu daha çox insan mərkəzli və nəticə yönümlü mərhələyə keçmişdir.

Dünya Bankının "Women, Business and the Law" hesabatında Azərbaycanın göstəricisinin 78,8-dən 85-ə yüksəlməsi həyata keçirilən islahatların beynəlxalq miqyasda da tanındığının göstəricisidir.

2025-ci il üzrə illik məlumat bu dəfə 298 səhifə hazırlanmışdır. 3 bölmədə 66 dövlət orqanı, 77 yerli icra strukturu, Naxçıvan Muxtar Respublikası üzrə məlumatlar, o cümlədən vətəndaş cəmiyyəti institutlarının məlumatları cəlb olunmuşdur. 9 yeni istiqamət üzrə təhlilə üstünlük verilmişdir və siz bununla topluda tanış ola bilərsiniz.

Ən mühüm yenilik isə ilk dəfə olaraq gender bərabərliyi siyasətinin məhkəmə qərarları, media monitorinqləri, ali təhsil proqramları, sosial risk xəritələri ilə inteqrasiya olunmuş şəkildə təhlil edilməsidir. Bu isə dövlət idarəetməsində daha əsaslı qərarvermə modelinin gücləndiyini göstərməklə yanaşı, bu məlumatın yalnız statistik məlumat toplusu deyil, idarəetməyə istiqamət verən analitik platforma olduğunu da ortaya qoyur.

Sosial tendensiyalar və ictimai dayanıqlılığa gəldikdə isə qeyd etməliyəm ki, gender əsaslı və sosial risk göstəricilərində müşahidə olunan dinamika göstərir ki, dövlətin tətbiq etdiyi profilaktik və preventiv

mexanizmlər daha səmərəli nəticə verir. Bu özünü müraciətlərin azalmasında, mühafizə orderlərinin artmasında, erkən müdaxilə mexanizmlərinin genişlənməsi kimi bir-birini tamamlayan tendensiyalarda göstərir. Bunu dövlət komitəsinə, müvafiq qurumlara, qaynar xətt xidmətlərinə daxil olan müraciətlər, nikah, doğum, gender əsaslı cinayət və hüquqpozmaların hazırda slaydlarda təqdim olunan statistikası sübut edir. Misal üçün, 18 yaşadək anaların, erkən evlilik üzrə göstəricilərin son üç ildə təxminən 50 faizə yaxın azalması xüsusi qeyd olunmalıdır. Bu nəticə yalnız hüquqi tədbirlərin deyil, həm də təhsil sisteminin, yerli icra mexanizmlərinin, xüsusi ilə icmaların və ailə institutunun güclənməsinin, eləcə də ictimai davranış mədəniyyətinin ümumi sinerjisinin nəticəsidir.

İnsan kapitalının inkişafına gəldikdə isə əmək bazarında müşahidə olunan dəyişikliklər göstərir ki, qadınların iqtisadi fəallığı davamlı şəkildə artmaqdadır. Orta əməkhaqqında da artım tempi müşahidə olunur. Peşə hazırlığında qadınların üstünlük təşkil etməsi xüsusi ilə diqqətçəkicidir. Özünüməşğulluq proqramlarında da iştirak getdikcə balanslaşmaya doğru dəyişir. Bu tendensiya qadınların əmək bazarında daha çox bacarıq əsaslı və dayanıqlı iqtisadi modelə keçidə üstünlük verdiyini göstərir.

Əmək hüquqlarının təmin olunmasında bərabərlik, pensiya təminatı, işsiz və məşğul əhalinin cins bölgüsünə dair rəqəmlər insan kapitalı və təhsilin transformasiyasındakı mövcud dəyişikliyi ortaya qoyur. Hazırda ali təhsildə qadınların üstünlüyü, magistratura səviyyəsində balanslı nisbət, peşə təhsilində tədrici diversifikasiya olmaqla, insan kapitalının keyfiyyətcə yüksəldiyi müşahidə olunmaqdadır.

Dövlət komitəsinin 2020-ci ildə başladığı “Qızların təhsilinə dəstək” layihəsi 9 istiqamət üzrə proqramları və tələbə qızların artan sayı ilə bu nəcib missiyanın daha da genişləndiyinin əsas əlamətidir. Bu proses

göstərir ki, Azərbaycanda artıq təhsil və iqtisadiyyat arasında struktur məzmunlu uyğunlaşma güclənməkdədir.

Məsələyə iqtisadi iştirak səviyyəsi və institusional mühitin sağlamlaşdırılması yönündən baxanda isə sahibkarlıq və iqtisadi aktivlik sahəsində qadınların payının artdığını, kənd təsərrüfatında iştirakının genişləndiyini, özünüməşğulluq proqramlarının sosial inklüzivliyi gücləndirdiyini xüsusi olaraq vurğulamaq lazımdır.

Bununla yanaşı, mülkiyyət və bank sektorundakı vəziyyət göstərir ki, iqtisadi qərarvermədə gender balansı hələ də inkişaf mərhələsindədir. Bu sahədə əsas hədəf isə resurslara çıxışın bərabərləşdirilməsinə, iqtisadi gücün daha inklüziv paylanmasına nail olmaqdır. Bunu daşınmaz əmlak və bank sektorundakı iştirak nisbəti bir daha təsdiq edir.

Yerli idarəetmə, qeyri-hökumət təşkilatları və media mühitinin təhlili göstərir ki, 2025-ci ildə bələdiyyələrdə qadınların təmsilçiliyi 39 faizə yaxınlaşmış, QHT sektoruna rəhbərlikdə onların sayı genişlənmiş, həmkarlar ittifaqlarında aktivliyi güclənmişdir.

Eyni zamanda, media və rəqəmsal platformalar gender məsələlərinin daha açıq və ictimai müzakirə predmetinə çevrilməsinə şərait yaratmışdır. Bu isə göstərir ki, bərabərlik siyasəti artıq yalnız dövlət səviyyəsində deyil, ictimai şüur səviyyəsində də sürətlə transformasiya olunmaqdadır.

İnstitusional koordinasiya və rəqəmsal idarəetmə sahəsində ən mühüm uğurlardan biri dövlət qurumları arasında koordinasiya modelinin güclənməsi olmuşdur. Hazırda dövlət komitəsi, aidiyyəti nazirliklər, yerli icra hakimiyyətləri, bələdiyyələr və icmalar, hüquq mühafizə orqanları, qeyri-hökumət təşkilatları və media strukturları vahid sistem kimi fəaliyyət göstərməkdədirlər. Rəqəmsal monitorinq, məlumat mübadiləsi, erkən müdaxilə sistemləri koordinasiyanın effektivliyini daha da artırmışdır.

Beynəlxalq əməkdaşlıq və strateji mövqe baxımından Azərbaycanın beynəlxalq platformalarda, o cümlədən BMT strukturları, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyəti, xüsusi ilə BMT-nin Qadınların Statusu üzrə Komissiyasının sessiyaları çərçivəsində iştirakı ölkənin bu sahədə əldə etdiyi müsbət təcrübənin qlobal miqyasda təqdim edilməsi ilə çoxtərəfli əməkdaşlığı stimullaşdırır.

Çağırışlar və strateji istiqamət baxımından sadalanan müsbət dinamika ilə yanaşı, qarşıda duran əsas prioritetlərimiz qadınların iqtisadi qərarvermədə iştirakının, yüksək gəlirli və innovativ sahələrə çıxışının artırılmasını, regional inkişafda bərabərliyinin gücləndirilməsini, mülkiyyət və resurslara əlçatanlığının genişləndirilməsini, rəqəmsal gender monitorinq sistemlərinin inkişafını tələb edir. Bu barədə daha konkret məlumatlar sizə təqdim olunan topluda və dövlət komitəsinin elektron resurslarında əksini tapmışdır.

Hörmətli millət vəkilləri, 2025-ci ilin nəticələri göstərir ki, gender bərabərliyi siyasəti artıq sistemli dövlət idarəetmə modelinə inteqrasiya olunmuşdur, institusional koordinasiya xeyli güclənmişdir, insan kapitalı keyfiyyətcə yeni mərhələyə keçmişdir, ictimai və rəqəmsal mühit daha inklüziv xarakter almışdır. Bu proseslərin ən mühüm xüsusiyyəti odur ki, dəyişikliklər yalnız hüquqi və institusional deyil, eyni zamanda, sosial davranış və mədəniyyət səviyyəsində baş verir.

Bu məqamda Milli Məclisin, bütövlükdə, onun komitələrinin və hörmətli millət vəkillərinin xidmətlərini xüsusi olaraq vurğulamaq, bu prosesin aktiv iştirakçıları kimi gündəlik və davamlı səylərinə görə təşəkkürümü bildirmək istəyirəm.

Yekunda diqqətinizi cari ildə ölkəmizin ev sahibliyi etdiyi və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən Ümumdünya Şəhərsalma

Forumunun 13-cü sessiyasına yönəltmək istərdim. Bu çərçivədə aparılan müzakirələr bir daha göstərdi ki, müasir şəhərsalma, məskunlaşma və mənzil siyasəti yalnız infrastruktur məsələsi deyil, insan mərkəzli və inklüziv inkişaf məsələsi kimi dünyanın gündəmində əsas yer tutur. Bu səbəbdən də forum boyunca keçirilən sessiyalarda ailə institutunun möhkəmləndirilməsi, qadınların və uşaqların təhlükəsiz, əlçatan və inklüziv şəhər mühitində yaşamaq hüququnun təminatı, sosial xidmətlərə bərabər çıxış imkanları, eləcə də dayanıqlı icmaların formalaşdırılmasında gender yanaşmasının əhəmiyyəti xüsusi vurğulandı.

Yekun sənəddə əksini tapan prioritetlər gender bərabərliyi məsələlərinin qlobal inkişaf gündəliyində vacib yer tutduğunu və bu istiqamətdə milli səviyyədə həyata keçirilən siyasətin beynəlxalq çağırışlarla uzlaşdığını da ortaya qoyur.

Fürsətdən istifadə edərək bu uğurun Azərbaycanın dayanıqlı inkişaf, inklüziv cəmiyyət və humanist dövlət idarəçiliyi modelinin növbəti mühüm göstəricisi olduğunu bir daha qeyd edir, WUF13 Forumunun yüksək səviyyədə təşkilində əməyi olan bütün dövlət qurumlarını, vətəndaş təşkilatlarını və ölkəmizi beynəlxalq platformada layiqincə təmsil edən hər kəsi qarşıdan gələn Müstəqillik günü münasibəti ilə bir daha səmimi qəlbdən təbrik edirəm. Əminəm ki, insan kapitalının ahəngdar inkişafı naminə birgə səylərimizlə əldə olunan nəticələr gələcəkdə daha inklüziv, daha dayanıqlı və daha innovativ cəmiyyət quruculuğuna töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Bahar xanım.

Hörmətli həmkarlar, illik məlumata Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılmışdır. Mən indi komitənin sədri hörmətli

Hicran xanım Hüseynovaya söz vermək istəyirəm. Hicran xanım, buyurun, məlumat verin.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli Bahar xanım, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə qeyd etmək istəyirəm ki, uzunmüddətli sabitliyə, ictimai harmoniya və tərəqqiyə can atan hər bir dövlət ailələrin, qadın və uşaqların hüquqlarını qorumalıdır. Bu, milli təhlükəsizliyin, iqtisadi dayanıqlılığın və mədəni irsin qorunması məsələsidir. Azərbaycanda dövlət qadın siyasəti, gender bərabərliyinin təmin edilməsi hər zaman prioritetdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə ölkəmizdə çox güclü hüquqi qanunvericilik bazası əsasında qadınlar üçün bərabər imkanların yaradılması və sosial həyatın bütün sahələrində onların aktiv iştirakı üçün mühüm işlər görülür. Qadınlarımız bilirlər ki, onların arxasında güclü dövlət müdafiəsi dayanır.

Xüsusi ilə qeyd etmək istəyirəm ki, parlamentin sədri hörmətli Sahibə xanımın təşəbbüsü ilə müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyətinin iştirakı ilə "Gender bərabərliyinin təminatları haqqında" Qanunun icrası ilə bağlı biz davamlı iclaslar, görüşlər keçiririk, müzakirələr aparırıq. Hazırda istər milli, istərsə də beynəlxalq və qlobal səviyyədə elə bir platforma yoxdur ki, orada ailə, qadın və uşaq məsələləri yer almasın.

Bildiyiniz kimi, ölkəmizdə COP29-dan sonra ikinci böyük tədbir olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası keçirildi. Əlbəttə, burada qadın iştirakçılığı, onların prosesə verəcəyi töhfələr, dövlətlərin qarşısında dayanan öhdəliklər də geniş müzakirə edildi. Bahar xanım da öz çıxışında bunu qeyd etdi. Yəni bu gün elə bir vəziyyət yaranıb ki, hər bir

məsələnin həlli bərabər iştirakçılıq tələb edir. Bir daha qeyd etmək istərdim ki, bu məsələ ölkə başçımızın xüsusi diqqətindədir.

Azərbaycan bir sıra siyasi, iqtisadi təşəbbüslərin müəllifidir. Onu da bildirim ki, müxtəlif beynəlxalq təşkilatların yanında Qadınlar Şurasının və ya Qadın Şəbəkəsinin yaradılması təklifi də məhz Azərbaycana məxsusdur. Bu tədbirlərin çox pozitiv nəticələri var. Elə bu gün müzakirə etdiyimiz "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə bağlı hazırlanan məlumat bunun əyani sübutudur. Bu sənəddə qanundan irəli gələrək çox detallı təhlil aparılmış, təklif və tövsiyələr hazırlanmışdır. Mən fürsətdən istifadə edərək peşəkar səviyyədə təqdim olunan məlumata görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar xanım Muradovaya, eləcə də komitənin bütün əməkdaşlarına təşəkkür edirəm.

Bahar xanım burada çıxış edərək ölkədə gender bərabərliyinin təmin edilməsi ilə bağlı ətraflı məlumat verdi. Ona görə də mən təkrara yol vermədən bəzi məsələləri qeyd etmək istəyirəm.

Ölkədə gender bərabərliyinin təmin edilməsi ilə bağlı sahədə müsbət dinamika var. Qərarların qəbulunda və dövlətin idarə edilməsində qadınların iştirakçılığının artması müşahidə olunur. İnzibati vəzifələrə təyin olunan, hüquq mühafizə, prokurorluq orqanlarında xidmət edən, xüsusi ilə də hakim və vəkil qadınların sayı artır. Burada əsas məsələ qadınlarımızın ayrı-ayrı sahələrdə təkcə kəmiyyət baxımından deyil, həm də keyfiyyət baxımından inkişafına nail olmaqdır. Məlumatda qeyd edilən tədbirlər, keçirilən təlimlər və treninqlər də bunu təsdiqləyir.

Sənəddə qanunvericilikdə edilmiş əlavə və dəyişikliklər də qeyd olunub. Ölkədə əmək bazarında gender bərabərsizliyinin aradan qaldırılması istiqamətində bir çox işlər görülür. Müvafiq olaraq

qanunvericilik bazası təkmilləşdirilmişdir. Məqsəd iş–ailə balansını qorumaq, işçi məmnuniyyətini artırmaq və əmək bazarında inklüziv mühit yaratmaqdır.

Əmək münasibətlərində digər xüsusiyyətlərlə yanaşı, o cümlədən ailə vəzifələrinə görə birbaşa və ya dolayı ayrı-seçkiliyə yol verilməsi qəti qadağan edilib. Bu dəyişiklik ailə məsuliyyətini şəxsi problem yox, sosial reallıq kimi qəbul edərək işçinin əmək hüquqlarını müdafiə edir.

Digər mühüm dəyişiklik son illərdə ictimai müzakirələrdə diqqət mərkəzində olan və "atalıq məzuniyyəti" kimi tanınan məsələ ilə bağlıdır. Artıq övladı dünyaya gələn kişilər 14 günlük ödənişli məzuniyyət hüququna malikdirlər. Onlarla atalar bu hüquqdan istifadə edib.

Bu yaxınlarda kişi və qadınlara dəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi ilə bağlı həm Əmək Məcəlləsində, həm də "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununda vacib dəyişiklik olundu. Qeyd edim ki, respublikada kişi və qadınların orta əməkhaqqı fərqliliyinin aradan qaldırılması məqsədi ilə çox mühüm islahatlar həyata keçirilir.

Burada vacib məsələlərdən biri ailə öhdəliyi olan işçilərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədi ilə məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsidir. Məlumdur ki, qanunvericilikdə məktəbəqədər təhsil müəssisəsinə uşaqların qəbul edilməsi ilə bağlı müəyyən imtiyazlar var. Mən təklif edərdim ki, bu imtiyazlı ailələr sırasında hər iki valideynin işləməsi də nəzərə alınsın.

Hər bir zorakılıq əməli, o cümlədən məişət zorakılığı ciddi hüquq pozuntusudur. Məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə, cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial nəticələr doğurur.

Məişət zorakılığının qarşısının alınması  ilə bağlı qanunvericilik bazamız davamlı olaraq təkmilləşir.

İllik məlumatda məişət zorakılığı ilə bağlı komitəyə edilən müraciətlər haqqında geniş təhlil aparılır, həmçinin Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin və digər dövlət qurumlarının məlumatları da qeyd olunur. Lakin çox yaxşı olardı ki, dünyada və ölkəmizdə məişət zorakılığı ilə bağlı cinayətlərin qısa şəkildə müqayisəli təhlili verilsin, statistika göstərilsin.

Əlbəttə, bu gün ölkədə məişət zorakılığının qurbanları üçün sığnacaqlar yetərli deyil. Bu istiqamətdə də işlər davam etdirilməlidir.

Məlumatda bir çox yeni  istiqamətlər öz əksini tapıb. Onlardan biri də məhkəmə qərarları çıxarılarkən  müvafiq qanunlara istinad edilməsidir. 2025-ci il ərzində çıxarılmış məhkəmə qərarlarında “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununa istinad edilmiş işlərin sayı 19 olub. Bu yaxşı nəticədir. Çünki həmişə məsələ qaldırırıq ki, qəbul olunan müvafiq qanunlara istinad edilən məhkəmə qərarları haqqında məlumatlara ya az rast gəlinir, ya da heç yoxdur. Lakin təqdim edilən sənəddə bununla bağlı statistika var.

Doğulan qız uşaqları ilə oğlan uşaqları arasında fərq əvvəlki illərə nisbətən azalıb. Cinsi nisbət  hər 100 qıza 113 oğlan təşkil edir. Bioloji norma hər 100 qıza 105–107 oğlandır. Bu sahədə  komitə və digər müvafiq qurumlar maarifləndirmə işləri aparırlar. Amma bu tədbirlər daha da gücləndirilməlidir. Mən düşünürəm ki, bu, tək komitənin işi deyil, ümumiyyətlə, hamımızın nəzarətində olan məsələdir.

Digər tərəfdən, illik məlumatda da göstərildiyi kimi, əgər 2020-ci ildə 100 min nəfər diri doğulana 15,8 ana ölümü qeyd olunurdusa, 2025-ci ildə bu əmsal 27,1 təşkil edib.  Hər 1000 nəfər diri doğulan uşaqlar arasında 1 yaşadək ölən uşaqlar 2020-ci ildə 9,8, 2025-ci ildə isə 13,7 əmsal  təşkil

edib. Bu göstəricilər bir daha ana və uşaq ölümünün səbəblərini araşdırmaq məsələsini zəruri edir. Eyni zamanda, Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında qanunun qəbul edilməsinə də çox böyük ehtiyac vardır.

Qızların təhsil alması, peşəyə yiyələnməsi, məşğulluğu üçün sosial proqramlar tətbiq etməliyik. Gender bərabərliyi mədəniyyətinin təbliğini xüsusi ilə gücləndirməliyik. Vətəndaş cəmiyyəti və media bu sahədə daha aktiv iştirak etməlidir. Düzdür, hazırda müxtəlif televiziya kanallarında gender bərabərliyi mədəniyyətinin təbliği istiqamətində proqramlar yayımlanır, ayrı-ayrı verilişlərdə müzakirələr aparılır. Ancaq yaxşı olardı ki, bu sahə üzrə ixtisaslaşmış ekspertlərin, hüquqşünasların, vəkillərin, sosioloq və psixoloqların iştirakı ilə yeni verilişlər hazırlansın.

Ölkəmizdə gender bərabərliyinin təmini sahəsində həyata keçirilən tədbirlərin davamı kimi Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Milli Fəaliyyət Planında qadınların ictimai fəallığının artırılması, təhsil, məşğulluq, iqlim dəyişiklikləri ilə mübarizə, media sahələrində gender aspektlərinin nəzərə alınması və bu məqsədlə normativ hüquqi bazanın, institusional mexanizmlərin təkmilləşdirilməsi, gender bərabərliyi mədəniyyətinin təbliğinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ölkədə gender bərabərliyinin təmin edilməsi bir qurumun işi deyil. Yenə təkrar edirəm, bütün qurumlarda gender üzrə məsul şəxslər var. Bu qurumlar arasında görülmüş işlər, dövlət proqramlarının yerinə yetirilməsi, eyni zamanda, həmin sahələrdə çətinliklərlə, təkliflərlə bağlı hesabatlar hazırlanmalıdır.

Bütövlükdə, illik məlumatı yüksək qiymətləndirirəm. Bir daha başda Bahar xanım olmaqla bu sənədin hazırlanmasında zəhməti olan hər kəsə təşəkkür edirəm. Qeyd edim ki, illik məlumat Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məsul şəxsləri ilə birlikdə bizim komitəmizin iclasında geniş müzakirə olunmuş və baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hicran xanım, ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Kim çıxış etmək istəyirsə, buyursun, yazılsın.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli Bahar xanım, hamınızı salamlayıram və qarşıdan gələn Azərbaycan Xalq Cümhuriyyətinin Müstəqillik Günü münasibəti ilə hər birinizi təbrik edirəm.

Elə cümhuriyyətdən danışmışkən Azərbaycanda, əlbəttə, bu kontekstdə qadınların siyasi hüquqlarının tanınması da elə cümhuriyyət dövründə baş vermişdi, onlara səs vermək hüququ tanınmışdı. Ancaq mənə elə gəlir ki, gender bərabərliyi, əslində, Azərbaycan xalqının tarixən milli yaddaşında olan bir davranış üsuludur, sosial bərabərlik qaydasıdır. Biz bunu hər şeydən öncə qrammatika genderində görürük. Yəni Azərbaycan dilində, türk dillərində qadınları cinslərinə görə fərqləndirmək üçün biz ayrıca şəkilçi düşünməmişik, yəni onları bərabər görmüşük. Amma bəzi Hind–Avropa xalqlarında qadınları fərqləndirmək üçün ayrıca şəkilçi yaradılıbdır. Çox maraqlıdır: tarixi təkamül prosesində nə baş verir? Bu gün ingilisdilli mühitdə də gender hüquqi kontekstdə inkişaf etdikcə dildən bu

şəkilçilər düşməyə və yaxud məhdudlaşmağa başlayır. Demək, tarixi şüur kontekstində bizim gender bərabərliyimizin çox dərin bazası var.

Hazırda Hind–Avropa xalqlarında, ingilisdilli, fransızdilli, rusdilli mühitdə baş verən proseslər yeni bir terminlə ifadə olunur – dildə neytral gender. Müqayisə aparanda görürük ki, yenə də bizim dil hadisəsi həm də sosial davranış hadisəsi kimi sosial münasibətlərimizin, əks cinsə münasibətimizin keyfiyyətini müəyyənləşdirir. Bu, çox yaxşıdır.

Hörmətli Bahar xanım maraqlı statistika təqdim etdi. Əlbəttə, bunun hamısı bizim üçün maraqlıdır. Nəticə etibarı ilə Hicran xanımın da qeyd etdiyi kimi, biz qanunvericiliklə, Milli Məclisdə çox fəal qəbul edilən qanunlarla gender bərabərliyini dəstəkləyirik və onun hüquqi bazasını formalaşdırırıq. Bu istiqamətdə Milli Məclisdə çox işlər görülübdür və görülməkdə də davam ediləcəkdir.

Şübhəsiz təqdim olunan məlumatı yüksək qiymətləndirərək bir neçə problemə toxunmaq və bir neçə təklif vermək istəyirəm. Bu günlərdə gender bərabərliyinin ən əsası hesab olunacaq bir hadisə ilə bağlı maraqlı bir statistik məlumat oxudum. 2025-ci ildə təkrar nəsil istehsalı prosesində dünyaya gələn uşaqlar və təkrar nəsil istehsalı prosesində ilkin döl dövründə yeni nəslin tibbi üsullarla kənarlaşdırılması. Rəqəmlər təxminən bərabər idi, hər ikisi 95 min, 100 min arasında idi. Burada da Hicran xanım səsləndirdi. Artıq oğlanların sayı qızların sayından hər il bir qədər daha çox artmağa başlayır. Belə olan halda, mənə elə gəlir ki, fundamental gender elə burada olacaqdır. Gələcəkdə bu bizim üçün problemə çevriləcəkdir. Bu səbəblərin araşdırılması, öyrənilməsi və təkrar nəsil istehsalı prosesində erkən dövrdə dölün kənarlaşdırılmasının qarşısının alınması üçün tədbirlər görməliyik. Məncə, artıq rəqəmlər həyəcan təbili çalmaq üçün kifayət qədərdir.

İkincisi, əlbəttə, mən çox istərdim ki, gender bərabərliyi və gender problemetikası şəhər və əyalətlər üzrə, regionlar üzrə ayrıca müqayisəli təhlil edilsin. Buna uyğun da Ailə, qadın və uşaq məsələləri komitəsinin maarifləndirmə proqramları müəyyənləşdirilsin. Bu maarifləndirmə həm gender əsaslı, həm də hüquqi əsaslı olsun. Eyni zamanda, cəmiyyətin digər ictimai fəal institutlarının da bu prosesə cəlb edilməsi, mənə elə gəlir ki, bu problemin həll olunmasında kömək edə bilər.

Qaldı hüquqi kontekstdə. Əlbəttə, bu proses gedir, böyük işlər görülür. Ona görə də mən bu məlumatı yüksək qiymətləndirirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim.

Təklif var, 5 dəqiqəyə keçək. Hamı razıdır? Səsverməyə ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fazil müəllim, üzr istəyirəm, Hikmət müəllim regionlar üzrə statistika ilə bağlı dedi. Mənə elə gəlir ki, Bahar xanımgildə bu statistika var. Bilirəm ki, regionlar üzrə bu işlər görülür.

Fazil Mustafa. Fazil müəllim, sualınız, təklifiniz var? Buyurun.

**Fazil Mustafa.** Sahibə xanım, siyahı çıxanda adım orada yazıldı, sonra ola bilsin, texniki səbəbdən çıxdı. Dəqiqləşdirmək istəyirdim ki, siyahıda adım varsa, təkrar yazılmayım.

**Sədrlik edən.** Fazil müəllim, var. Hikmət müəllimin çıxışından sonra 12-ci sizsiniz.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar, hörmətli qonaqlar. Əvvəlcə 28 May – Müstəqillik Günü və Qurban bayramı münasibəti ilə başda möhtərəm Prezident olmaqla xalqımızı ürəkdən təbrik

edir, Ulu Öndər ideyalarına söykənən müstəqilliyimizin əbədi olmasını arzulayırıq.

Bu gün müzakirəmizə təqdim olunan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə illik məlumatı ölkəmizdə dövlət–ailə siyasətinin formalaşdırılması, gender bərabərliyinin təmin edilməsi və uşaq hüquqlarının müdafiəsi istiqamətində ötən il reallaşdırılan islahatların mükəmməl bir yol xəritəsidir. “Gender bərabərliyinin təminatları haqqında” Qanunun 20-ci maddəsinə əsasən hazırlanan bu sənəd, sadəcə, hesabat deyil, həm də dinamik inkişafın, qanunvericilik və institusional mexanizmlərin təkmilləşdirilməsinin bariz göstəricisidir. Eyni zamanda, bu hesabatı əvvəlki illərdən fərqləndirən mühüm sosial və hüquqi yeniliklərin olması, ali təhsil müəssisələrində gender məsələləri ilə bağlı tədris olunan fənlərin təhlili, qohum nikahların regionlar üzrə bölgüsü, erkən evliliyin risk xəritəsinin formalaşdırılması, mediada cinsi ayrı-seçkiliyi təbliğ edən və ailə institutunu nüfuzdan salan informasiyaların qarşısının alınması məqsədi ilə aparılmış monitorinq, aidiyyəti məhkəmə işlərinin icmalı, yetkinlik yaşına çatmayanlar arasında intihar hallarının səbəbləri, sosial-iqtisadi amillərin ailə institutuna təsiri və yeniyetmələrin hüquqi düşüncəsinin tədqiqi kimi ölkəmiz üçün strateji əhəmiyyətə malik olan yeni məsələlərin daxil edilməsi, təbii ki, təqdirəlayiqdir. Çünki məhz belə araşdırmaların nəticələri gələcəkdə qanunvericilik təşəbbüslərimiz üçün zəngin baza rolunu oynaya bilər və təbii ki, bu yanaşmaları yalnız alqışlamaq olar.

Konkret təkliflərə gəldikdə, biz qanunvericilikdə qadının adını hələ də “arvad” adlandırırıq. Bilirsiniz, ola bilsin ki, nə zamansa bu, qəbul olunan olub. Amma dil inkişafdadır. Münasibətlərin inkişafı, təbii ki, semantikanın da transformasiyası deməkdir. Amma açıq deyək, bu gün heç bir xanım ona qeyd etdiyim bu ifadə ilə müraciət edilməsini arzulamaz. Ona görə də

Ailə Məcəlləsi başda olmaqla, bütövlükdə, qanunvericilikdə, o cümlədən gələcəkdə Konstitusiyada aidiyyəti dəyişikliyin aparılması yaxşı olar.

İkinci vacib məqam, dəfələrlə qeyd etmişik, bir daha vurğulamaq istəyirəm ki, gender məsələlərindən danışarkən xüsusi ilə ehtiyatlı davranmalıyıq. Azərbaycan cəmiyyətində kişi və qadın institutları tam mənada oturuşub, "həyat yoldaşı" anlayışı formatında həm kişinin, həm də qadının ailədə rolu çox aydın formada müəyyən edilib. Bizim bütün fəaliyyətimiz özünü doğrultmuş milli ailə institutunun qorunmasına yönəlməlidir. Azərbaycanın ailə dəyərlərini əlahiddə "kişiləşmiş qadın" obrazı, yaxud milli kimlikdən tam mənada uzaq salınmış "kişi" obrazı ilə zənginləşdirməyə ehtiyac yoxdur. Biz məsələyə reallıq pəncərəsindən baxmalıyıq. Çünki bu gün Qərbin, xüsusən Sorosun dairələri, onların diktəsi ilə hərəkət edən beynəlxalq şəbəkələr və daxildəki marginal, populist ünsürlər "gender bərabərliyi" şüarı altında bizim milli-mənəvi dəyərlərimizə, ailə institutumuza qarşı mənəvi terror həyata keçirməkdədirlər. Bu gün çox təəssüflər olsun ki, bərabərlik adı altında bizim cəmiyyətə yad, əxlaqi aşınmaya xidmət edən ssenarilərin sırınmasına şahidlik edirik.

Amma baxın, qadının üstünlüyündən danışanlar özlərinə sərf etməyəndə heç gözlərini də qırpmadan hər hansı bir qadını sosial media qaragüruhunun linç obyektinə çevirə bilirlər. Bu mənada, hansısa konvensiyanın, hesabatın, ideologiyanın yanaşması bizim üçün etalon ola bilməz. Ümumiyyətlə, Azərbaycan gender siyasətində heç bir xüsusi kənar təcrübəyə, istinada ehtiyac duymur. Azərbaycanda qadına, ailəyə verilən dəyəri öyrənmək üçün o korlanmış hesabatlara deyil, bizim çoxəsrlik dövlətçilik tariximizə, o cümlədən də Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən, dünyaya nümunə olan humanizm, qadının cəmiyyətdə və dövlət idarəçiliyində rol modelinə

baxmaq kifayətdir. Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının qorunması məsələsi dövlət siyasətinin nüvələrindən birini təşkil edir. Bu siyasətin təməlində də Ulu Öndər Heydər Əliyevin ideyaları və möhtərəm Prezidentimizin ali siyasi iradəsi dayanır.

Sonda bir daha hesabatı dəstəklədiyimi bildirirəm və o qənaətdəyəm ki, müzakirəmizə təqdim olunan hesabat, sadəcə, formal sənəd deyil, Azərbaycanda bərqərar olunmuş hüquqi dövlət quruculuğunun və sosial ədalət prinsiplərinin növbəti təzahürüdür.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli Bahar xanım, hörmətli qonaqlar, hörmətli millət vəkilləri. Mən hörmətli Bahar xanım tərəfindən təqdim olunan məlumatı dəstəkləyirəm. Kifayət qədər peşəkarlıqla hazırlanıb, eyni zamanda, 2025-ci ildə komitə tərəfindən həyata keçirilən fəaliyyətin ümumi qiymətləndirilməsi kimi xarakterizə olunmalıdır.

Məlumatdan da göründüyü kimi, 2025-ci ildə qanunverici bazanın möhkəmləndirilməsi, eyni zamanda, bu sahədə institusional islahatların dərinləşməsi, bütövlükdə, qadınların cəmiyyətdə rolunun artmasına imkan yaradıb.

Bir neçə gün sonra Azərbaycanda Müstəqillik Günü qeyd olunacaq. Müsəlman dünyasında və Şərqdə qadınlara ilk dəfə seçmək və seçilmək hüququ verilən Azərbaycanda qadınlar hazırda cəmiyyətin müxtəlif sahələrində aktiv fəaliyyət göstərirlər.

Hörmətli Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan qadınının nüfuzu həm ölkə daxilində, həm də beynəlxalq arenada daha da yüksəlmişdir. Aparılan islahatlar və bu sahədə qanunvericilik bazasının

möhkəmləndirilməsi bu istiqamətdə Azərbaycanın beynəlxalq hesabatlarda mövqeyinin daha da yüksəlməsinə gətirib çıxarmışdır.

Mən məlumatla bağlı daha çox iqtisadi və sosial tərəflərə diqqət çəkmək istərdim. Nəzərə alaq ki, hazırda ölkədə məşğul əhalinin 2 milyon 414 min nəfəri məhz qadınlardır. Eyni zamanda, işçi qüvvəsinin sayında qadınlar 2 milyon 571 min nəfərdir. Amma bütün bunlarla yanaşı, qadınların orta aylıq əməkhaqqı kişilərin orta aylıq əməkhaqqının 69,1 faizinə bərabərdir. Nəzərə alsaq ki, beynəlxalq praktikada bu göstərici 77-80 faiz civarında dəyişir, xüsusən də Avropa İttifaqına üzv olan ölkələrdə 80 və daha yüksək faizlə ifadə olunur. Təbii ki, bunun bəlli və obyektiv səbəbləri var. Çünki qadınların ən çox çalışdığı sektor, sahə təhsil sahəsidir. Belə ki, əmək müqaviləsi ilə çalışan 722 min qadının 242 mindən çoxu məhz bu sahədə fəaliyyət göstərir. Bu da, bütövlükdə, əmək müqaviləsi ilə, yəni muzdlu qadın işçilərin 33,6 faizinin təhsil sektorunda çalışması anlamına gəlir.

Təbii ki, səhiyyə və sosial sektorlar da qadınların üstünlük verdiyi digər 2 mühüm sahələrdir. Amma nəzərə alsaq ki, orta aylıq əməkhaqqı Azərbaycanda daha çox mədənçıxarma və maliyyə sektorlarındadır. Bu sahələrdə çalışan qadınların sayı az olduğuna görə bu, bütövlükdə, qadınlarla kişilərin orta aylıq əməkhaqqı fərqinə birbaşa təsir göstərir.

Milli Məclisdə də qanunvericiliyin təkmilləşdirilməsi həyata keçirildi. Xüsusən də qadınların nisbətən ağır hesab edilən sektorlarda işləməsi ilə bağlı qanunvericilikdə olan qadağaların aradan qaldırılması qadınlarla kişilər arasında əməkhaqqı fərqinin minimumlaşmasına və getdikcə azalmasına səbəb olur. Mən xüsusən iqtisadi və sosial baxımdan dəstəklənmədə Milli Məclisin fəaliyyətini xüsusi ilə qeyd etmək istərdim ki, qanunverici bazanın təkmilləşməsi məhz bu fərqin mərhələli şəkildə aradan

qaldırılmasına gətirib çıxarır. Eyni zamanda, mən çox qısa olaraq bir sıra təkliflərimi təqdim etmək istəyirəm.

Təbii ki, qadınların iqtisadi baxımdan güclənməsi onların maliyyə resurslarına çıxış imkanının artırılmasını tələb edir. Ona görə daha məqsədəuyğun olardı ki, Azərbaycan Respublikası Sahibkarlığın İkişafı Fondu tərəfindən təqdim edilən güzəştli kreditlərdə qadınlara kreditlərin təklif olunması prioritet istiqamətlərdən biri kimi göstərilsin. Hazırda həmin fondun təqdim etdiyi kreditlərdə qadın sahibkarların cəlb edildiyi kreditlərin payı birrəqəmlidir və təbii ki, prioritet istiqamət olaraq müəyyənləşməsi nəticə etibarı ilə qadınların güzəştli kreditlərə çıxış imkanını artıra bilər.

Eyni zamanda, nəzərə alsaq ki, qadınlarla kişilərin əməkhaqları arasında fərq var. Ona görə yaşa görə əmək pensiyası hesablanan zaman qadınların pensiya kapitalına bir sıra inkişaf etməkdə olan ölkələrdə olduğu kimi xüsusi əmsalların tətbiq edilməsi yolu ilə onların pensiya məbləğlərinin artırılması məqsədəuyğun olardı. Bu, xüsusən də qadınlarla kişilər arasında əməkhaqqı fərqi aradan qaldırılanadək tətbiq edilə biləcək bir mexanizmdir.

Eləcə də pensiya yaşı ilə bağlı güzəştlərin kateqoriyasına baxılması məqsədəuyğun olardı və tək qadınlara daha tez pensiyaya çıxma hüququnun verilməsinin keyfiyyət meyarı olaraq qanunvericiliyə gətirilməsini məqsədəuyğun hesab edirəm.

Bütövlükdə, məlumatı dəstəkləyirəm və ona səsə verəcəyəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Bəli, Siz deyirsiniz ki, təhsil sahəsində qadınlar çoxdur. Elə ənənəvi sahələr var ki, – həkimlikdir, müəllimlikdir, – Azərbaycan qadınları ən çox həmin sahələrdə işləyirlər. Ancaq Sizin dediyiniz təkliflərdə, xüsusi ilə

iqtisadiyyatda qadınların sayının çox olması onların təhsili ilə bağlıdır. Ona görə bizim gənc qızlar orta məktəbdən sonra iqtisadiyyatla bağlı sahələrə getsələr... Bax, bu məsələnin üzərində işləmək lazımdır. Düşünürəm ki, burada həm dövlət komitəsi, həm də bizim hər birimiz seçicilərimizlə görüşlərdə bu haqda çox danışmalıyıq ki, qadınlar həm maliyyə, həm hüquq, həm də iqtisadiyyat sahələrində çox olsunlar. Yoxsa, sadəcə, deməklə iqtisadiyyatda qadınlar çox ola bilməzlər. Bu, təhsillə bağlıdır.

Çox sağ olun, minnətdaram.

Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli qonaqlar, həmkarlar, media nümayəndələri. Mən ilk öncə hörmətli sədr, Sizi uğurlu səfərlər münasibəti ilə təbrik edirəm. Həm də Sizi və xalqımızı qarşıdan gələn Qurban bayramı və Müstəqillik Günü münasibəti ilə təbrik edirəm.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, mərhum Prezident Heydər Əliyev vaxtı ilə söyləyirdi ki, Azərbaycan xalqının ən böyük tarixi nailiyyəti onun istiqlalıdır.

Bizim dövlət protokolunun əsas qaydaları haqqında Prezident tərəfindən imzalanmış fərmanla dövlət bayramları “Gülüstan” sarayında qeyd olunmalıdır və Prezident də orada çıxış etməlidir. Amma çox təəssüf ki, bizim ən böyük bayramımız dövlət səviyyəsində qeyd olunmur. Nazirlər Kabinetinin tək qadın üzvü kimi hörmətli Bahar xanım istəsə, bu məsələyə də münasibət bildirər. Ümumiyyətlə, Milli Məclisə bu barədə bir məlumat, izahat verilməlidir ki, niyə bu bayram qeyd olunmur. Hörmətli Bahar xanım bizim deputat həmkarımız olub. Kifayət qədər hazırlıqlı siyasətçidir. Mən hesab edirəm ki, bir çox suallara aydınlıq gətirilməlidir.

Çox təəssüf ki, son illər, hörmətli sədr, biz hamımız görürük, səhv etmirəmsə, elə hörmətli Əli Əhmədov da hökumətin hesabatı zamanı çıxış

etdi, dedi, evliliklərin sayı azalır, əvəzində boşanmalar artır. Uşaq doğumunun sayı azalır, selektiv abortların sayı artır. Yəni bunların səbəbləri dövlət komitəsində araşdırılıbmı? Yəni bununla bağlı hökumətə, ölkə Prezidentinə hər hansı bir təkliflər göndərilirmi?

Ümumiyyətlə, burada ailə zorakılığından danışıldı. Qarşıdan Qurban bayramı gəlir. Biz çox təəssüf hissi ilə müşahidə edirik ki, heyvanlar balaca uşaqların gözü qarşısında kəsilir. Halbuki Məhəmməd peyğəmbər buyurub ki, nəinki uşaqların, hətta başqa heyvanın qarşısında digər heyvan kəsilməməlidir. Bax, məişət zorakılığının bir kökü buradan başlayır.

Bu yaxınlarda sabiq deputat həmkarımız Etibar Əliyev bir paylaşım etmişdi. Hətta Bahar xanıma da rəsmi müraciət etmişdi. Mən mətbuatda oxudum ki, düz məktəbin yaxınlığında bir qəssabxana var və heyvanları orada kəsirlər, onun başını da orada nümayiş etdirirlər. Uşaqlar da onun qarşısından sağa-sola keçirlər. Bax, məişət zorakılığının bir səbəbi də buradan başlayır. Biz uşaqları qorumalıyıq. Valideynlər uşaqlarını qurban kəsiminə aparırlar, hətta orada o heyvanın qanından götürüb onun alnına çəkirlər. Təkcə maarifləndirməklə bunun qarşısını almaq mümkün deyil. Müvafiq dövlət orqanları bu istiqamətdə ciddi addımlar atmalıdırlar.

Bundan başqa təkcə qadınların yox, elə gənc oğlanların da iş tapmasında ciddi problemlər var. Çox təəssüf ki, hərbi xidməti başa vurandan sonra bizim gənclərimiz ölkəni tərk edib iş dalınca başqa ölkələrə gedirlər. Bax, ailə quranların sayının azalmasının əsas səbəblərindən biri də budur. Biz nə qədər maarfləndirmə işi ilə məşğul olsaq da, cəmiyyətdə köklü iqtisadi islahatlar aparılmadan, dövlət tərəfindən müxtəlif ciddi sosial proqramlar həyata keçirilmədən bu problemlərə qarşı mübarizə apara bilməyəcəyik.

Selektiv abortun səbəbləri araşdırılmalıdır ki, niyə ailələr qız uşaqlarından imtina edirlər. Yəni bu səbəbləri araşdırıb bu “xəstəliyə diaqnoz qoymadan”, hesab edirəm ki, ona qarşı effektli mübarizə aparmaq mümkün deyil.

Ona görə də mən istərdim ki, əgər sonda Bahar xanımın imkanı olsa... Belə bir araşdırmaların səbəbləri ilə bağlı müvafiq vəzifəli şəxslərə təkliflər verilməsi, qanunvericilik təşəbbüsü ilə çıxışlar edilməsi üçün təkliflər verilməsi qeyd olunmalıdır. Hörmətli Hicran xanım dedi ki, bu, hamının işidir. Əlbəttə, hamının işidir. Amma bu məqsədlə hökumət tərkibində ixtisaslaşmış qurum olaraq xüsusi komitə yaradılıb və bu komitənin əsas vəzifəsi odur ki, bu məsələləri araşdırıb müvafiq təşəbbüslərlə, təkliflərlə çıxış etsin.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Rizvan Nəbiyev. Buyurun.

**Rizvan Nəbiyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən gender bərabərliyinin təmin edilməsinə nəzarətlə bağlı hesabatda yer alan beynəlxalq fəaliyyət və bununla əlaqəli məsələlərdən bəhs edəcəm. Fikirlərimi 3 istiqamətdə təqdim etmək istəyirəm.

1. Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı. Bilirsiniz ki, 2015-ci ildə BMT 2030 gündəliyini müəyyənləşdirmək məqsədi ilə 17 Dayanıqlı İnkişaf Məqsədi qəbul etdi. Azərbaycan Respublikası BMT-yə üzv olan 193 dövlət arasında ilk dövlətlərdən oldu ki, elə məhz həmin il Dayanıqlı İnkişaf Məqsədlərinin 17-ni də qəbul etdi. Eyni zamanda, 88 hədəf və 119 göstəricini də milli səviyyədə öz inkişaf proqramına daxil etdi. Vurğulamaq istədiyim mühüm faktor ondan ibarətdir ki, bu istiqamətdə

sistemli fəaliyyətin təmin olunması məqsədi ilə Milli Əlaqələndirmə Şurası təsis edildi və 50-ə yaxın dövlət proqramı qəbul olundu.

Burada xüsusi ilə komitənin fəaliyyətinə aid iki Dayanıqlı İnkişaf Məqsədini vurğulamaq istəyirəm. Bunun biri V Dayanıqlı İnkişaf Məqsədi – gender bərabərliyi, digəri isə X Dayanıqlı İnkişaf Məqsədi – bərabərsizliyin azaldılması ilə bağlı fəaliyyətlərə aiddir.

Burada mən iki statistika ilə Azərbaycanın göstəricisini vurğulamaq istərdim. Bu da qadınların əmək bazarında təmsilçiliyi ilə bağlıdır. Bildirim ki, hazırda Azərbaycan qadınının əmək bazarında təmsilçiliyi haradasa 60-61 faizdir. İllər olub ki, hətta 70 faizə yaxınlaşıb. Bu isə ümumdünya göstəricisindən 10 faiz artıqdır. Bu göstərici 176 dövlət arasında haradasa 50-51 faizdir.

Xanım sədr, Siz də çıxışınızda təhsillə bağlı bir məqama toxundunuz. İkinci mühüm fakt savadlılıq səviyyəsi ilə bağlıdır. Bu gün Azərbaycan qadınının savadlılıq səviyyəsi 99,8 faiz, Azərbaycan kişisinin savadlılıq səviyyəsi isə 99,7 faizdir. Bu da ümumdünya göstəricisindən qat-qat yüksəkdir. Bu, təbii ki, dövlətimizin bu istiqamətdə apardığı fəaliyyəti göstərir.

Bildirim ki, 2030-cu ilə qədər az vaxt qalsa da, amma Dayanıqlı İnkişaf Məqsədlərinin ümumi icrası ilə bağlı beynəlxalq miqyasda ümumi göstəriciləri yerinə yetirmək haradasa 17-30 faiz arasındadır və Azərbaycan hökumətinin müxtəlif istiqamətlər üzrə həyata keçirdiyi fəaliyyət bu ümumgöstəricilərin çoxunu arxada qoyur. Biz MDB məkanında ilk dövlətlərdən biri olduq ki, könüllü hesabat təqdim etdik.

İkinci vurğulamaq istədiyim məsələ BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə konvensiyasından irəli gələn öhdəliklərlə bağlıdır. Bilirsiniz ki, qlobal səviyyədə 9 insan hüquqları ilə bağlı konvensiya

var. Azərbaycan Respublikası onun 8-ni ratifikasiya edib və müvafiq öhdəliklər həyata keçirməkdədir. Bunlardan biri də qadın hüquqları ilə bağlı konvensiyadır. 2022-ci ildə hörmətli Bahar xanım bununla bağlı Azərbaycan hökumətinin VI dövrü məruzəsini BMT-yə təqdim etdi. Bildirim ki, ondan təxminən 1 ay sonra bizə 18 istiqamət üzrə 80 bənddən ibarət tövsiyələr verildi. Bu, digər dövlətlərin ümumi göstəriciləri ilə müqayisədə elə də çox göstərici deyil.

Bu istiqamətdə vurğulamaq istədiyim məsələlərdən biri də odur ki, bəzilərinin icrası qısa müddətdə həyata keçirildi – aylar ərzində. Bəzi məsələlər isə açıqdır. Mənim sualım ondan ibarətdir ki, bunlar qlobal səviyyədə, BMT səviyyəsində bizdən fəaliyyət gözləyirlər. Burada hesabatlılıq necədir? Növbəti hesabatın təqdim olunması nə vaxta planlaşdırılır?

Sonuncu vurğulamaq istədiyim məsələ elə bu günlərdə paytaxtımızda baş tutan Ümumdünya Şəhərsalma Forumu və burada inklüzivliyin təmini istiqamətində olan fəaliyyətdir. Bilirsiniz, orada 565 tədbir baş tutdu. Onların bir qismi qadınların rolu ilə bağlı idi. Bildirim ki, o tədbirlərin birində mən də həmkarlarla birlikdə iştirak etdim. Növbəti nəzərdə tutulan ölkə Meksikadır. Meksikanın səfiri də orada iştirak edirdi. Azərbaycan qadınının cəmiyyətdə və ayrı-ayrı sahələrdə fəaliyyəti ilə bağlı, həqiqətən, o məlumatları eşidəndə Meksika ilə müqayisədə burada çox məsələlərin öndə olduğunu və təcrübə mübadiləsi üçün geniş bir platformaya ehtiyac duyulduğunu qeyd etdi.

İkinci mühüm məsələ gənclərlə bağlıdır. Bilirsiniz, biz orada çoxsaylı könüllüləri gördük. Həqiqətən, çox qürurvericidir, çünki BMT Bakıya gəlib və həmin ərazi eksteritorial Azərbaycan ərazisi yox, BMT ərazisi idi və həmin gənc insanların bundan sonra beynəlxalq səviyyədə təcrübə qazanması və öz tərcümeyi-halına belə bir mühüm tədbiri, yaxud da

COP29-la bağlı, digər tədbirlərlə bağlı məlumatları daxil etməsi onu göstərir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasətinin əsasında Azərbaycan vətəndaşı və onun inkişafı ilə bağlı məsələlər yer alır.

Diqqətiniz üçün təşəkkür edirəm və komitənin hesabatını dəstəkləyirəm, səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Mən də həmkarlarımın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında, eləcə də komitənin hazırladığı bu hesabat, məlumat haqqında dedikləri gözəl, dəyərli fikirlərə qoşuluram və bu məlumata səs verəcəyimi öncədən deyirəm.

Əslində, bu gün bizə təqdim olunan bu məlumatı mən, sadəcə, 2025-ci il üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin gördüyü iş adlandırmazdım. Mən bunu Ulu Öndərimizin 2000-ci ildə Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında o tarixi sənədinin ətrafında hazırlanmış bir monoqrafiya hesab edərdim. Çünki bu məlumata yəqin, mənim həmkarlarım da diqqət ediblər. Əvvəlki illərə baxsanız, statistikanı müqayisə etsək, görərik ki, bu məlumat 2023-cü ildə 140 səhifədən ibarət idi. Amma 2024-cü ildə səhv etmirəmsə, bu, 200-dən bir az çox səhifə idi. Amma bu gün bizə təqdim edilən bu məlumat 298 səhifədən ibarətdir. Bu, bir daha onu göstərir ki, nə qədər böyük işlər görülüb. Mən ona görə Bahar xanıma və onun rəhbərlik etdiyi komitənin bütün əməkdaşlarına öz təşəkkürümü bildirirəm.

Ölkəmizdə dövlətimizin elə bir qurumu yoxdur ki, orada Azərbaycan qadınının statusu ilə bağlı məlumatlar olmasın. Həqiqətən, 66 dövlət qurumundan və 77 yerli icra hakimiyyətindən məlumatların belə detallı

şəkildə toplanıb hazırlanması və görülən işləri özündə əks etdirməsi, həqiqətən, çox təqdirəlayiqdir.

Bizə təqdim olunan bu məlumat yeniliklərlə doludur. Möhtərəm xanım sədr, bayaq Siz də qeyd etdiniz, bizim Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında, onun Azərbaycanda qadın hərəkatı, qadınlara yanaşma ilə bağlı – istər qohum nikahları, istər erkən nikah, istərsə də təhsildən yayınmaqla bağlı hələ qadınların qurultayında çağırışları var idi. Bu məlumatda Mehriban xanımın Azərbaycan qadınlarının öndəri kimi cəmiyyətə və bütövlükdə, dövlət qurumlarına ünvanladığı mesajlarının əksini tapdığını görürük. Bu mənada buradakı bir sıra yenilikləri hörmətli həmkarlarımın diqqətinə çatdırmağı özümə borc bilirəm.

Hörmətli həmkarım Rizvan Nəbiyev beynəlxalq əlaqələrlə bağlı danışdı. Əslində, bunu bir az da genişləndirmək olar. 2025-ci ildə dünyada Pekin konfransının keçirilməsinin 30 illiyi qeyd olunurdu. Qadın millət vəkilləri, həmkarlarım da şahiddirlər. Biz, demək olar ki, hər həftə Pekin konfransının 12 istiqaməti üzrə görülən tədbirlərin həyata keçirilməsi ilə bağlı, ölkəmizin vəziyyəti ilə bağlı, qazandığımız uğurlarla bağlı tədbirlərdə iştirak edirdik.

Eyni zamanda, mənim hörmətli həmkarım Rizvan müəllim Dayanıqlı İnkişaf Məqsədlərinə toxundu. Azərbaycan xalqı üçün, Azərbaycan ailəsi üçün, bütövlükdə, dünya dövlətləri üçün ən əhəmiyyətli məsələ olan ana ölümü məsələsinin ilk dəfə bu məlumatda əks olunması, həqiqətən, çox təqdirəlayiqdir. Mən bir daha bu məlumatı hazırlayanlara təşəkkür edirəm.

Ali məktəblərdə gender təhsili çox vacib məsələlərdəndir. Sahibə xanım, Siz də qeyd etdiniz ki, təhsildə bu, nə qədər vacib məsələdir. Bu

hesabatda əvvəlkilərdən fərqli olaraq ali məktəblərdə gender məsələlərinin tədris olunması qeyd edilir. Bu, əlbəttə, bizi sevindirir.

Burada bir sıra yeniliklərin şahidi oldum. Yəqin, həmkarlarım da bunu görür, ilk dəfə olaraq AZAL-da çalışan qadınların durumu, eləcə də sahibkarlıq sahəsində Azərbaycan qadınının yeri... Bu hər kəsə məlumdur ki, əgər qadının iqtisadi imkanları olmasa, qadın bərabərliyi haqqında biz, ancaq yazıda, kitabda, sənəddə görə bilərik. Qadının iqtisadi imkanları artdıqca qadın hüquqlarının bərabərliyinin gerçək imkanlara çevrildiyini görürük.

Təbii ki, qeydlər çoxdur. Mən bir daha təbrik edirəm və fürsətdən istifadə edərək qarşıdakı...

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli həmkarlar. Hörmətli xanım sədr, mən də öncə Sizi, həmkarlarımı, bütün qonaqları həm Müstəqillik Günü, həm də Qurban bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Hesabatla bağlı bir neçə məqamı qeyd etmək istəyirəm. Sənədin məzmunundan da göründüyü kimi, çox yüksək və peşəkar səviyyədə hazırlanıb. Hesabatda xüsusi ilə qızların təhsili, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı məsələlərə geniş yer verilməsi çox təqdirəlayiqdir. Sənədlərdə qeyd olunduğu kimi, qadınların qeyri-hökumət təşkilatlarında, həmkarlar komitələrində və digər sahələrdə təmsilçiliyinin artması da bu baxımdan xüsusi önəm və əhəmiyyət daşıyır. Geniş və dərin məzmunlu məlumata görə hörmətli Bahar xanımı və dövlət komitəsinin  bütün əməkdaşlarını təbrik edirəm.

Qürurla qeyd etmək lazımdır ki, Şərqdə qadına seçmək və seçilmək hüququ verən ilk ölkə Azərbaycan olub. Azərbaycan qadını böyük inkişaf yolu keçib. Bu gün Azərbaycan qadını qürurla Azərbaycan kişisi ilə birlikdə dövlətçiliyimizə mühüm töhfələr verməkdə davam edir. Burada Mehriban xanım Əliyevanın rolunu və əməyini də xüsusi qeyd etməyə ehtiyac var. Bütün bunlar Azərbaycan xalqının əldə etdiyi ən böyük tarixi nailiyyətlərdən biridir.

Bu gün qarşıda duran ən mühüm vəzifələrdən biri də dünyada dəyərlərin transformasiyasının baş verdiyi dövrdə bu tarixi ənənənin qorunmasıdır. Çıxışımın sonunda bir neçə vacib məqama toxunmaq istəyirəm.

Öncə onu qeyd edim ki, bu işlər yalnız dövlət komitəsinin işi deyil. Dövlət komitəsi üzərinə düşən vəzifələri yerinə yetirmək üçün ciddi səylə çalışır. Bu baxımdan komitənin fəaliyyətini yüksək qiymətləndirirəm.

Bir az bundan əvvəl hörmətli Hicran xanım qadın sığınacaqları ilə bağlı məsələni qeyd etdi. Bu istiqamətdə addımların atılmasına ehtiyac var. Getdikcə bu məsələnin aktuallığı daha da artır.

İkinci məsələ selektiv abortların cəmiyyətdə artmasıdır. Bir az bundan əvvəl hörmətli həmkarım Qüdrət müəllim də qeyd etdi. Bu, ciddi narahatlıq doğuran bir məsələdir. Düşünürəm, gender bərabərliyinin pozulduğu sahələrdən biri də budur. Bu, Azərbaycan xalqının genefonduna ciddi ziyan vuran bir məsələdir.

3. Qohum nikahlarına nəzarətin daha da gücləndirilməsi. Hörmətli xanım sədr, bir müddət bundan əvvəl parlamentdə çox önəmli bir qərar qəbul edildi. Bu, olduqca vacib bir qərar idi. Ancaq bu sahəyə müvafiq qurumlar tərəfindən nəzarətin daha da gücləndirilməsinə ehtiyac var.

4. Erkən nikah məsələsi. Bu istiqamətdə bir çox işlər görülsə də, məsələ hələ də aktual olaraq qalır. Qızların təhsildən yayındırılması məsələsi. Təəssüf ki, dini əsası olmasa da, bəzən bu məsələ dini etiqadla əlaqələndirilir. Boşanmaların sayının sürətlə artması, gənclərin ailə qurmaq istəməməsi məsələsi. Bu da çox ciddi narahatlıq doğuran məsələdir. Düşünürəm, bütün bu məsələlər nəzərə alınaraq yeni dövlət proqramının qəbulunun nəzərdən keçirilməsinə ehtiyac var.

Ümumilikdə, məlumatı çox yüksək qiymətləndirirəm, onun hazırlanmasında əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Diqqətiniz üçün sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Müstəqillik Günü və Qurban bayramı münasibəti ilə mən də təbriklərimi çatdırıram, ən xoş arzularımı bildirirəm.

Təqdim olunan sənəd kifayət qədər yüksək səviyyədə hazırlanmış geniş, əhatəli və peşəkar bir sənəddir. Eyni zamanda, Bahar xanım bu sənədi yüksək səviyyədə təqdim etdi, yenilikləri də bizə çatdırdı. Hicran xanım da komitənin mövqeyini kifayət qədər dəqiq şəkildə təqdim etdi. Ona görə bu təqdimatı yüksək səviyyədə qiymətləndirmək olar.

Eyni zamanda, qanunvericilikdə baş verən bir sıra dəyişikliklər kontekstində, bir də sosial kontekstdə bəzi fikirlərimi qeyd etmək istərdim.

Son zamanlar qadınlarla kişilər arasında əməkhaqqı arasındakı fərqi aradan qaldırmaq üçün qanunvericilikdə həyata keçirilən dəyişiklikləri çox yüksək qiymətləndirirəm. Bu istiqamətdə olan müsbət tendensiyanı da qeyd etmək lazımdır ki, əgər 10 il bundan qabaq qadınlarla kişilər arasında əməkhaqqında fərq təqribən 54 faiz təşkil edirdisə, 2025-ci ilin

göstəricilərində artıq qadınların əməkhaqları kişilərin əməkhaqlarının 69,2 faizinə gəlib çatıb. Hesab edirəm ki, bu, yaxşı, müsbət bir dinamikadır. Amma bu, orta statistik göstəricidir.

Əgər biz diqqət etsək, təhsildə, səhiyyədə, dövlət idarəetmə sahələrində qadınların orta aylıq əməkhaqları kişilərin əməkhaqlarının 86-89 faizini təşkil edir ki, bu da beynəlxalq praktikada orta məqbul hesab olunan göstəricidən xeyli yüksəkdir. Amma elə sahələr də var ki, məsələn, peşə, elmi-texniki fəaliyyətdə olan qadınların əməkhaqları kişilərin əməkhaqlarının 52 faizini, maliyyə sahəsində isə 56 faiz təşkil edir. Bu, beynəlxalq praktikadan aşağıdır. Bunun obyektiv səbəbləri aydındır. Amma bunu təkcə obyektiv səbəblər ilə izah etmək düzgün deyil. Ona görə ki, qadınların əməkhaqlarının artırılması, sadəcə, hüquq məsələsi, yaxud iqtisadi məsələ deyil. Bu, həm qadının, həm də ailənin güzəranının yaxşılaşdırılmasına böyük təkan kontekstində nəzərdən keçirilməlidir. Ona görə də qəbul olunan qanunları müsbət qiymətləndirməklə yanaşı, həm də qeyd etmək istəyirəm ki, onların işlək, reallaşma mexanizmini də işləyib hazırlamaq lazımdır ki, optimal müddətdə qadınların əməkhaqlarının kişilərin əməkhaqlarına yaxınlaşdırılması istiqamətində meyillər daha da sürətlənsin.

Eyni zamanda, əmək bazarının tələblərinə uyğun olaraq, qadınların məşğulluq imkanlarının genişləndirilməsi, onların daha yüksək əməkhaqqı ödənilən sahələrdə çalışmalarının təmin edilməsi, eləcə də əmək bazarında daha çox işçi tələb olunan peşələr üzrə işsiz qadınların rəqabət qabiliyyətinin artırılmasına yönələn peşə hazırlığının təşkili istiqamətində də əlavə tədbirlərin görülməsi çox məqsədəuyğun olar.

İkinci məqam ondan ibarətdir ki, Azərbaycanda qadınların pensiya yaşı 65-ə çatdırılıb. MDB məkanında bu, çox yüksək göstəricidir. Ona görə

qadınların erkən pensiyaya çıxması məsələsi getdikcə aktuallaşacaq. Bu nöqteyi-nəzərdən hesab edirik ki, hazırda çoxuşaqlı ailə dedikdə qanunvericilikdə 5 və daha çox uşağı olan ailələr nəzərdə tutulur və onlara müavinət də verilir. 5 və ya daha çox uşağı olan ailələrin xüsusi çəkisi uşaqlı ailələrdə cəmi 3 faizin altındadır. Ona görə də çoxuşaqlı ailə modeli 5 uşaqdan 3 uşağa endirilsə, bu, həm həmin analara 5 il tez pensiyaya çıxmaq hüququ qazandıracaq, həm də xeyli əlavə uşaq müavinət alacaq. Bu isə öz növbəsində hazırda əksəriyyət təşkil edən 1-2 uşaqlı ailələrdən 3 və daha çoxuşaqlı ailələrə keçid üçün yaxşı bir stimul yaradacaq.

Bir də qeyd etmək istərdim ki, 2024-cü ildən başlayaraq bu komitənin həyata keçirdiyi bir sıra layihələri müsbət qiymətləndirirəm. Onların arasında yeniyetmə, gənc qızlara şəxsi liderlik bacarığını inkişaf etdirmək üçün olan güclü cəmiyyətdə zərif simalar, qızların təhsilə cəlb edilməsi mənim kitabxana layihələrimdir. Bu layihələrin coğrafiyasının genişləndirilməsi, hesab edirəm ki, ümumi işin xeyrinə olar.

Bir daha təkrar edirəm ki, məlumatı yüksək qiymətləndirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Əli müəllim, kişilərin və qadınların əməkhaqlarından danışanda deyirik, müxtəlif maaşlar və sair. Bunu həmişə demək lazımdır ki, dövlət sektorunda yox, özəl sektorda. Bəli, bunu mütləq vurğulamaq lazımdır. Çünki biz qanun qəbul etdik. Ancaq mənim yadımdadır ki, sonra kifayət qədər suallar oldu. Hamı elə bildi ki, biz...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, özəl sektor haqqında danışın. Xahiş edirəm, hörmətli deputatlar, bunu vurğulamaq lazımdır. Biz qanunu qəbul edəndən sonra da hələ suallar yarandı.

Elnarə Akimova. Buyurun.

**Elnarə Akimova.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, əziz media nümayəndələri. Bu gün burada Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatını dinlədik. Ümumiyyətlə, bu komitənin işi cəmiyyətdə açıq şəkildə sərgilənir və biz daim görülən işlərin şahidi oluruq. Bu məsələ ölkəmizdə sosial siyasətin bir istiqaməti olması ilə yanaşı, həm də dövlətimizin humanist mahiyyətinin, cəmiyyətimizin demokratik düşüncəsinin və inkişaf fəlsəfəsinin mühüm göstəricisidir.

Azərbaycan tarixən qadına böyük dəyər verən, onu ailəsinin, cəmiyyətin və dövlətin dayağı hesab edən bir ölkə olmuşdur. Tariximizin ən şərəfli səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması da, təbii ki, bunun ən parlaq sübutudur.

Azərbaycanda gender probleminə həsr olunmuş ilk araşdırmanın müəllifi Əhməd Ağaoğlu 1922-ci ildə qızlarını ali təhsil almaq üçün Ankaradan İstanbula göndərərkən o zaman İstanbulda yaşayan Əli bəy Hüseynzadəyə yazdığı məktubda qeyd edirdi: “Mən türk qızlarının sərbəst olmalarını, həyata qarışmalarını və ictimai fəaliyyətlə məşğul olmalarını arzu edirəm. Fəqət hürriyyət və sərbəstliyi intizamsızlıq səklində tələqqi etməm. Onun üçün qızlarımdan da təvazö, iffət və hörmət dairəsində sərbəst olmalarını istəyirəm”.

Zənnimcə, bu gün hər bir ailədə gender anlayışına və probleminə bizim nəzər nöqtəmiz məfkurəmizi, dövlət ərkanımızı yaradan bu insanların prinsiplərinə uyğun olmalıdır. O da yaxşı bir haldır ki, bizim komitə məhz bu məramı daim təlqin edir.

Mən tarixə əhatəli ekskurs etmək istəməzdim, amma bir neçə məqamın üzərində dayanmaq istəyirəm. XX yüzilin ilk illərində, yəni 1918-ci ildən xeyli əvvəl Azərbaycan mətbuatı gender problemini qabardır, Azərbaycan qadınının ictimai həyatdakı roluna işıq salırdı. Qadınlarımızın azadlıq problemi o dövrkü qəzet və jurnallarımızda sistemli şəkildə aktuallaşdırılırdı. 1906–1908-ci illərdə Azərbaycan mətbuatı London hökumətinə təzyiq edən ingilis lediləri, qadınların seçki hüququnu tələb edən sufrajist xanımlar barədə söhbət açırdı. Hələ 1908-ci ildə Azərbaycan qadınının dilindən verilən belə fikirlərə rast gəlib yalnız heyrətlənmək olar: “Biz təbiətin qadınlar üçün təyin etdiyi həddə qədər bərabərlik və hürriyyət istəyirik və istəyəcəyik. O hüdud daxilində ədalət tələb edirik və edəcəyik”. Gördüyünüz kimi, hətta qadın problemləri baxımından Azərbaycan hər zaman Avropa ilə həmahəng ritmdə yaşayıb.

Bir neçə gün əvvəl ölkəmizin həyatında mühüm hadisə yaşandı. Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının keçirildiyi məkan kimi dünyanın diqqət mərkəzində oldu. Şəhərlərin inkişafı həm də mədəniyyətin inkişafıdır. Lakin urbanizasiya bütün hallarda müsbət nəticə vermir. Mədəniyyət öz başlanğıc nöqtəsindən ayrıldıqca, tərk edilmiş mərhələ tənəzzül edir. Bunu vaxtilə “Roma” əsərində Emil Zolya da etiraf etmişdi. Doğrudur, Zolyaya görə mədəniyyətin hərəkəti Şərqdən Qərbə tədricən baş verir. Bu yanaşmanı urbanizasiya anlayışına tətbiq etmək doğru olarmı, olmazmı, bilmirəm. Amma dünən cənab Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə ölkə başçısının genişmiqyaslı urbanizasiya probleminə qarşılıq olaraq “Biz isə elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də, əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır” – fikirləri təkcə

kənd təsərrüfatının inkişafına deyil, eyni zamanda, yeni zamanın tələbi ilə milli ənənələrə bağlı yeni modern mədəniyyətin də təşəkkülünə bir çağırış kimi səsləndi.

Mənə elə gəlir ki, bu yerdə, Sahibə xanım, Siz bayaq yaxşı vurğuladınız ki, təhsil hər bir şeyin təməlidir, zəminidir. Bu baxımdan mən düşünürəm ki, biz xüsusi ilə regionlarda, əyalətlərdə təhsilə sosial dəstəyi gücləndirməliyik. Xüsusən diplom alan gənclər – bizim oğlanlarımız, qızlarımız məhz əmin, arxayın şəkildə bu əyalətlərə qayıtmalıdırlar, bu regionları gücləndirməlidirlər. Bu baxımdan mən cənab Prezidentin, elə Əli müəllim də vurğuladı, peşə məktəblərinin yaranma layihəsini bu istiqamətdə ən uğurlu addımlardan biri hesab edirəm.

Bu gün gender bərabərliyinin təmin olunması istiqamətində həyata keçirilən siyasətin nəticəsidir ki, Azərbaycan qadını dövlət idarəçiliyində, parlamentdə, təhsildə, səhiyyədə, elmdə, sahibkarlıqda, ictimai həyatın bütün sahələrində fəal iştirak edir, dövlətimizin inkişafına mühüm töhfələr verir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Qarabağda və Şərqi Zəngəzurda quruculuq və bərpa prosesləri ilə bağlı apardığı fəaliyyət bu gün tarixdən gələn həmin mənəvi missiyanın davamı kimi dəyərləndirilməlidir.

Mən əminəm ki, Azərbaycan qadını bundan sonra da zəngin dövlətçilik ənənələrini milli birliyimizin qorunması istiqamətində...

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xeyr, hələ səsə qoymayacağam. 6 nəfər çıxış etsin, sonra. Bizim burada gələcək hakimlərimiz var, yəni hakimdirlər, ancaq müxtəlif instansiyalarda işləyirlər. Səs verəndən sonra onlar həmin

vəzifələrdə çalışacaqlar. Mən düşünürəm ki, burada olan bütün söhbətlər, çıxışlar onlara da kömək edəcək. Elə deyilmi? Bura gələn qonaqlarımızın səsləri çıxmır. Amma mən əminəm ki, kömək olacaq.

Siyahıda 6 nəfər var, 6 nəfər də çıxış edəcək. Vaxtımız da var.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Bahar xanım, hörmətli həmkarlar, dəvət olunan qonaqlar və mətbuat nümayəndələri. Biz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təqdim etdiyi məlumatla yaxından tanışıq. Bu gün Bahar xanım da ətraflı təqdimat etdi, həmkarlarımız da bir çox məsələlərə toxundular. Həqiqətən, məlumat kifayət qədər ətraflı hazırlanıbdır. Xüsusi ilə diqqəti cəlb edən məsələlərdən biri budur ki, çox maraqlı statistika təqdim olundu. Bu statistika bizə düşünməyə, müəyyən təhlillər aparmağa imkan verir. Bu statistika həm də o baxımdan maraqlıdır ki, təkcə bu gün mövcud vəziyyət araşdırılmır, problemlər açıq şəkildə ortaya qoyulur, ayrı-ayrı müəssisələrdə, dövlət qurumlarında, özəl sektorda gender bərabərliyi ilə bağlı hazırkı durum, qarşıda duran çağırışlar, mən hesab edirəm, çox obyektiv və şəffaf şəkildə qeyd olunur. Belə bir ətraflı məlumat hazırladığına görə mən hörmətli Bahar xanım başda olmaqla komitənin bütün əməkdaşlarına təşəkkür edirəm.

Burada fürsətdən istifadə edib bir məsələni də qeyd etmək istərdim ki, bəzən bu hesabatda, yaxud məlumatda açıqlanan problemləri bir çoxları, sadəcə, komitənin problemi olduğu kimi yanlış düşünürlər. Amma bu, elə məsələdir ki, bu, təkcə komitənin, yaxud da ayrı-ayrı dövlət qurumlarının problemi deyil. Bu, bütövlükdə, cəmiyyətin, insanların – hər birimizin problemidir. Burada qeyd olundu, mən onları sadalamaq istəmirəm. Məsələn, boşanma ilə bağlı statistika, doğrudan da, bizi çox ciddi narahat

edir. Məişət zorakılığı ilə bağlı olan məsələlər, deyək ki, bu gün ayrı-ayrı sahələrdə baş vermiş pozuntular, yenə deyirəm, bu, təkcə komitənin məsələsi deyil və olmamalıdır.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən bu deyilənləri təkzib etmək istəməzdim. Ancaq bir məsələni xüsusi ilə diqqətinizə çatdırmaq istəyirəm. Bu da ondan ibarətdir ki, biz 2024-cü ilin iyul ayında qanunvericiliyə yeni bir müddəa əlavə etdik: qohumlar arasında nikahı qadağan edən müddəa. Düşündük ki, bu müddəa, doğrudan da, insanları cəmiyyət üçün zərərli olan bu tendensiyadan çəkindirəcək və bu nikahlara son qoyulacaq. Ancaq biz statistikaya baxsaq, görürük ki, burada vəziyyət heç də yaxşı deyil. Məsələn, 2024-cü ili qoyaq kənara. O zaman qanun qüvvəyə minməmişdi, 2 min 58 belə nikah qeydə alınmışdı. 2025-ci ildə bu rəqəm aşağı ensə də, amma 1412 qohumlar arasında nikahın qeydə alınması, hesab edirəm, çox ciddi bir məsələdir.

Burada sual olunur. Vətəndaşlar, yaxud da bu nikaha razılıq verən valideynlər qanunvericilikdən xəbərsizdirlər, yoxsa hələ də onlar köhnə düşüncəni davam etdirmək istəyirlər? Onlar görünür, bunun fəsadlarının tam fərqinə varmırlar. Baxmayaraq ki, biz kifayət qədər maarifləndirmə işləri apardıq, bu barədə xeyli danışıldı. Amma statistikaya baxırıq, hüquq mühafizə orqanları da bəzən müdaxilə etmək məcburiyyətində qalırlar. Daxili İşlər Nazirliyi 90-a yaxın bu cür halların erkən qarşısının alınması üçün addımlar atıbdır. Bəzilərinə inzibati məsuliyyət, bəzilərinə cinayət məsuliyyəti açıbdır. Yəni deməyim odur ki, burada biz vətəndaş olaraq, vətəndaş cəmiyyəti olaraq fəal olmalıyıq. Həmin valideynlərin qonşuları var, qohumları var, yaxınları var. Həmin rayonlarda blogerlər, sosial şəbəkə iştirakçıları, fəallar var, onlar da buna münasibət bildirməlidirlər. Burada ictimai qınaq öz sözünü deməlidir. Bu gün sosial şəbəkələrdə nədən desən

danışırlar. Bax, belə bir mövzu. Təklif edirəm ki, bu mövzunu daha geniş işıqlandırsınlar.

Mən hörmətli Bahar xanımdan soruşmaq istərdim ki, qanun 2025-ci ilin iyununda qüvvəyə minibdir. İndi biz 2025-ci ilin statistikasını müzakirə edirik. Yəni indiyə qədər təxminən 1 il keçibdir. Bu 1 il müddətində vəziyyət necədir?

Burada təhsillə bağlı qeyd edildi. Mən təhsilə də diqqəti cəlb etmək istərdim. Statistika onu göstərir ki, 2025-ci ildə orta məktəbdə təhsil alan qızlar və oğlanlar arasında disbalans var. Yəni 105 min 817 nəfər qız daha az təhsil alır. Məlumatda çox maraqlı bir statistika verilir ki, əsasən, 9-cu sinifdən 10-cu sinifə keçən qız uşaqları təhsildən uzaqlaşdırılır. Bax, bu da ciddi məsələdir. Valideynlər niyə belə bir addım atırlar? İndi burada müxtəlif əsaslar, bəhanələr gətirilə bilər. Mən hesab edirəm ki, bu məsələyə də ciddi şəkildə diqqət yetirilməlidir.

Bütövlükdə, məlumatın nəzərə alınmasını təklif edirəm və bir daha komitənin gələcək işlərində uğurlar arzulayıram.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azay müəllim. Bəli, tamamilə düz deyirsiniz. Bu, tək bir komitənin işi deyil, bu, bütün cəmiyyətin işidir. Müxtəlif dövlət qurumları da bu məsələyə çox ciddi yanaşmalıdırlar. O ki qaldı Siz deyirsiniz, qohumlar arasında nikah məsələsi, təbii ki, bu, icra orqanlarının çox böyük bir məsuliyyətidir və buna da çox ciddi nəzarət lazımdır.

Bahar xanım bilir, biz Milli Məclis olaraq həmişə hər hansı dinləmələr keçirməyə açığıq. Bahar xanım, sizlərlə belə dinləmələr keçirmişik və daha çox dinləmələr keçirmək lazımdır. Biz buna hazırıq.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, dəyərli Bahar xanım, əziz millət vəkilləri. Ailə institutu milli kimliyin, sosial harmoniyanın və cəmiyyətin davamlı inkişafının əsas sütunudur. Azərbaycanın dünya siyasi xəritəsindəki mövcudluğunu qoruyan çoxmillətli, çoxdinli və mədəni müxtəlifliyi ilə öyünən milyonlarla ailədir.

30 ildən sonra qazandığımız Qarabağ Zəfəri “Qaçqın və məcburi köçkün ailələr” məfhumunu tarixə qovuşdurdu, gələcəkdə öz doğma torpaqlarında doğulub, böyüyən azərbaycanlı ailələrə yol açdı. Tarixi dönüşün rəmzi olaraq XXI əsrin tək qalib xalqının öz milli ailə günü olması təbii və layiqli bir qərar olardı.

Hazırda dünyada ənənəvi ailə modelləri böhran yaşayır, postmodern dəyərlər sistemi, avropalaşmanın aqressiv təbliği və mədəni hegemonluq ailə institutunu ciddi sınaqlar qarşısında qoyur. Ona görə də müzakirəyə təqdim olunan ailə institutunun barometri sayılacaq 2025-ci il üzrə komitənin sənədi, əslində, mühüm dövlət baxışıdır, sənədidir, aktıdır. Sənəddə diqqət çəkən ilk məsələ azərbaycanlı ailələrin üzləşdiyi risklərdir. 2025-ci ildə “Qadın Dəstək Xətti”nə 3954 müraciət daxil olub. Onların 28 faizi psixoloji dəstək, 17 faizi zorakılıq, 15 faizi hüquqi yardım, 9 faizi boşanma məsələləri ilə bağlıdır. Rəqəmlər göstərir ki, zorakılıq artıq yalnız fiziki deyil, psixoloji, hüquqi və sosial müdafiə problemi kimi də ciddi yer tutur.

İkinci məsələ mühafizə orderləridir. Komitənin tövsiyəsi qısamüddətli mühafizə orderlərinin verilməsi səlahiyyətinin polis orqanlarına həvalə edilməsi və orderin müddətinin artırılmasıdır. Düzgün yanaşmadır. Çünki zorakılıqda vaxt amili həlledicidir. Zərərçəkən şəxs müdafiəni həftələrlə gözləyirsə, nəticəsi ağır olur.

Üçüncü ciddi məsələ qohum nikahlarıdır, həmkarlarımız toxundu. Milli Məclisin 2 il öncə qəbul etdiyi qanun, əslində, öz nəticəsini verir. Statistikaya baxsaq, 2022-ci ildə 2542 olan belə nikahların sayı 2024-cü ildə 2058-ə, 2025-ci ildə isə 1412-ə düşüb. Azalma var, lakin problem deyildiyi kimi, tam aradan qalxmayıb. 2025-ci ildə bu məsələdə ən yüksək göstərici Bakı üzrə 360, Lənkəran–Astarada 223 nəfərdir. Göründüyü kimi, qohum nikahları təkcə hüquqi qadağa ilə aradan qalxmır, davranış dəyişməlidir, maarifləndirmə aparılmalıdır. Hörmətli sədr, Siz də qeyd etdiniz, tibbi genetik məsləhət və məktəblərin üzərinə böyük vəzifə düşür.

Dördüncü problem ana və uşaq ölümü ilə bağlı göstərcilərdir. 2025-ci ildə hər 100 min diri doğulana ana ölümü 26 nəfər qeyd olunub. Xüsusi ilə narahatedicidir ki, şəhər yerlərində müvafiq göstərici 2024-cü ildəki 12,2-dən 2025-ci ildə 22,1-ə yüksəlib. Kənd yerlərində azalma var, lakin 2025-ci ildə 1 yaşa qədər ölən uşaqların sayı 1312 nəfərdir. Ona görə də əhalinin demoqrafik artımına ehtiyac duyduğumuz dövrdə ailə planlaşdırılması və reproduktiv sağlamlıqla bağlı qanunun qəbulu zəruridir.

Beşinci məsələ qızların təhsili və ixtisas seçimidir. Qız uşağının təhsildən yayınması sonradan erkən nikaha, iqtisadi asılılığa, məişət zorakılığına qarşı müdafiəsizliyə və sosial tədricə yol açır. Formalaşan reallığı dəyişmək üçün ilk həlqə yenə məktəbdir.

Nəhayət, sənəddə informasiya mühiti ilə bağlı göstərilir ki, sosial şəbəkələr, “TikTok” və “YouTube” kanalları ailə münaqişələrini sensasiyaya çevirir, boşanmanı, zorakılığı, xəyanəti reytinq aləti kimi istifadə edirlər. Ailə institutunu idellaşdırmadan, lakin nüfuzdan da salmadan sağlam münasibətlər, məsuliyyətli valideynlik və qarşılıqlı hörmət nümunələri geniş təbliğ olunmalıdır.

Ölkəmizdə uğurlu ailə obrazları yüz minlərcədir. Övladlarını təhsilli və vətənpərvər böyüdən, yaşlılara qayğı göstərən, çətinliklərə baxmayaraq, ailə birliyini qoruyan, şəhid və qazi ailələrinin dəyərlərini yaşadan, Qarabağı və Şərqi Zəngəzuru qazanan, indi ora qayıdan və ailə həyatı quran ailələrin nümayişi bizim bu institutun təbliği və xarici hücumlardan qorunması üçün çox önəmlidir.

Bir daha dövlət komitəsinin fəaliyyətini yüksək qiymətləndirir, məlumatı ailə, qadın, uşaq siyasəti üzrə qərarların qəbulunda mühüm analitik sənəd sayır, komitənin aktiv və sistemli işini yüksək qiymətləndiririk.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov**. Çox sağ olun, xanım sədr. Hörmətli Bahar xanım, hörmətli həmkarlar və media təmsilçiləri. Bəli, həqiqətən, burada çox maraqlı bir müzakirə aparılır. Çünki olduqca vacib və Azərbaycanın bütün ailələrini öz əhatə dairəsinə alan bir məlumat ətrafında müəyyən fikirlərimizi sərgiləmiş oluruq. İlk əvvəl onu deyim ki, olduqca əhatəli və statistik məlumatla kifayət qədər zəngin olan bir material hazırlanıbdır. Mən başda Bahar xanım olmaqla bu hesabatın hazırlanmasında əməyi olan hər kəsə ayrı-ayrılıqda təşəkkürümü bildirirəm. Çünki, həqiqətən, biz çox zaman beynəlxalq təşkilatların hesabatlarında bu və ya digər məlumatla tanış olduqda mütləq baxırıq ki, Azərbaycanla bağlı hansı müddəaları ora daxil ediblər. Bu kimi məlumatlar, düşünürəm ki, həmin hesabatların beynəlxalq müstəvidə hazırlanmasında çox yardım göstərə biləcək bir sənəddir. Çünki burada statistik rəqəmlərin və bəzi müddəaların hətta ümumdünya miqyasında orta göstəricilərdən daha artıq olduğunu görürük ki, bu da olduqca vacib, pozitiv bir nüansdır.

Hesabatın 266-cı səhifəsində çox ciddi vəzifələr və təkliflər yer alıbdır. Hər bir vəzifə olduqca əhəmiyyətlidir və orada qeyd olunan təkliflərin gələcəkdə uğurlu şəkildə həyata keçirilməsi üçün uyğun icra mexanizmlərinin və ya mexanizm nümunələrinin də göstərilməsi çox yaxşı olardı. Gələcək hesabatlarda ola bilsin ki, bunun ətrafında hansı isə bir müzakirələrin öncədən aparılmasına ehtiyac yarana bilər. Çünki konkret alətlər olmalıdır və bu alətlər üzərindən də həmin təkliflərin həyata keçirilməsi üçün biz çox ciddi imkanlara malik olmalıyıq. Bu alternativləri də bizim bu sahədə mübarizə aparan müxtəlif maraqlı tərəflərə, o cümlədən qeyri-hökumət təşkilatlarına təqdim etməliyik.

Mən hesabatın ayrı-ayrı müddəalarına münasibət bildirmək istəməzdim. Amma diqqətimi çəkən bir neçə çox vacib məsələ var. Məndən bir qədər əvvəl hörmətli Zahid müəllim ailə institutu, ailə dəyərləri barədə danışdı. Mən düşünürəm ki, bəli, Azərbaycan ailəsi olduqca güclü dayaqlara malikdir. Biz onu da görürük ki, kənardan müdaxilələr var, müxtəlif texnoloji imkanlardan istifadə etməklə bizim ailə dəyərlərinə, ailə modelinə zərər vurmaq istəyən müəyyən qüvvələr var. Təbii ki, ailəmiz nə qədər güclü olarsa, biz bir o qədər onlara müqavimət göstərmiş olarıq.

Bu da bir həqiqətdir ki, biz müxtəlif müstəvidə – informasiya, mədəni, texnoloji, iqtisadi zəmində bu təsirləri görürük. Rəqəmsal texnologiyalardan geniş istifadə olunur. Bu baxımdan mən düşünürəm ki, bizim ailə modelini qoruya biləcək bir yol xəritəsinə ehtiyac var. Bəlkə də bunun üzərində gələcəkdə düşünmək olar. Ümumiyyətlə, məncə, milli preventiv mexanizmlərin, xüsusi ilə bu sahədə – gender bərabərliyinin ayrı-ayrı istiqamətləri üzrə təmin olunması olduqca vacibdir. Bunun üçün işçi qaydada da müzakirələr aparmaq mümkündür.

Yeri gəlmişkən, qadın sahibkarlığı barədə danışdıq. Biz tez-tez qadın sahibkarlığının təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatları ilə görüşürük. Onların çox vacib bir istəyi, arzusu var. Onu da mən burada dilə gətirmək istəyirəm ki, Azərbaycanda qadın sahibkarlığının təşviq olunması üçün mərkəzlərin, qadın sahibkar evlərinin yaradılması olduqca vacibdir.

Burada erkən nikah və ailədaxili zorakılıq barədə danışdılar. Önəmli olan məsələ həm də sonrakı mərhələdə həmin o reabilitasiya proqramlarının dayanıqlı və uzunmüddətli həyata keçirilməsidir. Erkən nikahın qarşısının alınmasına, ailədaxili zorakılıqla bağlı hansı isə işlərin həyata keçirilməsinə, sonrakı mərhələdə qurbanların və həmin halları törətmiş şəxslərin reabilitasiya olunmasına çox ciddi ehtiyac var. Bununla da düşünürəm ki, gələcəkdə psixoloji reabilitasiya olunmaq şərti ilə o qurbanların cəmiyyətə adaptasiya olunmasını müəyyən mənada təmin etmiş olarıq. Bu da həm hüquqi, həm də institusional çərçivələri müəyyən etmək şərti ilə çox uğurlu şəkildə həyata keçirilə bilər.

Çox vacib bir məsələ, burada Dayanıqlı İnkişaf Məqsədləri barədə səslənən fikirlərdir. Düşünürəm ki, Dayanıqlı İnkişaf Məqsədlərinin tək iki maddəsi deyil, ümumiyyətlə, bir çox maddələr üzrə gender bərabərliyinin təmin olunması istiqamatində araşdırmaların aparılmasına çox ciddi ehtiyac var. Bu hesabatla, eyni zamanda, araşdırmalar aparmaqla, orta faizləri üzə çıxartmaqla beynəlxalq ictimaiyyətə çox yaxşı, uğurlu bir mübarizə strategiyamızın nədən ibarət olduğunu göstərmiş olarıq ki, bu da olduqca vacibdir.

Sonda bir daha təşəkkür edir, bu məlumata səs verəcəyimi bildirirəm. Qarşıdan gələn bayramlar münasibəti ilə hər birinizi təbrik edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Qısa danışacağam. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri hörmətli Bahar xanım Muradovanın hesabatını yüksək qiymətləndirirəm. Çox şadam ki, keçmiş həmkarımız bu gün ona tapşırılan bu sahəni uğurla idarə edir və nəticələr göz qarşısındadır. Eyni zamanda, həmin komitənin keçmiş sədri, bu gün həmkarım Hicran xanımın həm deputatlıq fəaliyyətində, həm də keçmiş məşğul olduğu sahə üzrə yaxşı nəticələri var.

Dünən Qazaxıstan Respublikasının Bakıdakı Səfirliyində keçirilən tədbirdə Hicran xanım çox parlaq bir çıxış etdi və bütün auditoriyanın diqqətini cəlb etdi. Qadın hüquqlarının qorunması, gender bərabərliyi həm qanunlarımızda təsdiq edilib, eyni zamanda, Azərbaycan xalqının mentalitetində, adət-ənənələrində öz əksini tapır. Bu, cəmiyyətimiz üçün çox vacib sahələrdən biridir. Həm adət-ənənələrimiz, həm də qanunlarımız ailə institutunun möhkəm olmasında, hüquqların qorunmasında olduqca maraqlıdır. Bu sahədə çox böyük işlər görülür.

Ümumən, mən hesab edirəm ki, qəbul etdiyimiz hər qanun, qəbul edilən hər qərar, atılan hər bir addım ondan ötrüdür ki, cəmiyyətimizdə problemlərin sayı azalsın, ailə möhkəm olsun, uşaqlar xoşbəxt olsunlar, qadınların hüquqları qorunsun. Bu istiqamətdə görülən işlər barəsində hesabatda bildirildi. Eyni zamanda, deputat həmkarlarım da bu məsələləri vurğuladılar.

Ancaq bir məsələyə diqqət etmək istəyirəm. Bu məsələ mənə qədər də qaldırıldı. Amma məni də narahat edir. Bu, boşanmaların sayının çox olması məsələsidir. Burada çox faktorlar var – maddi, psixoloji uyğunsuzluq və sair. Ümumiyyətlə, çoxdur. Mən istərdim ki, dövlət komitəsi bu məsələ ilə bağlı ciddi araşdırmaları davam etdirsin. Hər bir buna oxşar məsələlərlə,

problemlərlə bağlı müvafiq orqanlar qarşısında məsələ qaldırsın, ictimaiyyəti bu məsələyə cəlb etsin, geniş müzakirələr keçirsin. Dağılan hər bir ailə, sadəcə, iki nəfərin ağrısı deyil. Bu, yaxın qohum-əqrəbanın, ətrafın, cəmiyyətin ağrısıdır. Yəni bu məsələnin, eləcə də qaldırılan digər məsələlərin komitənin diqqətində olmasını istərdim.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Tənzilə Rüstəmxanlı. Buyurun.

**Tənzilə Rüstəmxanlı.** Hörmətli xanım sədr, hörmətli həmkarlarım və mətbuat nümayəndələri. Bu gün müzakirə olunan məsələ çox vacib və həssas bir məsələdir. Mən Bahar xanıma da, Hicran xanıma da təşəkkür edirəm. Bu sahənin çox təcrübəli nümayəndələri olaraq peşəkarcasına hazırlanmış bir layihəni təqdim etdilər.

Təqdim olunan məlumatdan görünür ki, ötən 2025-ci il ərzində ölkədə qadınların məşğulluğunun artırılması, kiçik və orta sahibkarlıqda onların rolunun gücləndirilməsi, regionlarda qadın inkişaf mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi istiqamətində müəyyən müsbət addımlar atılmışdır. Biz bu sahədə aparılan ardıcıl işləri yüksək qiymətləndiririk. Lakin fundamental bərabərliyin təmin olunması və mövcud strategiyanın qurulması üçün hələ də qarşımızda ciddi çağırışlar və həlli vacib olan problemlər qalmaqdadır.

Məlumatda qadın sahibkarların sayının artımı rəqəmlərlə qeyd edilsə də, biz reallıqda paytaxt və regionlar arasında kəskin disbalans görürük. Bakı şəhərində qadınların iqtisadi fəallığı və xidmət sektorunda payı qənaətbəxş sayıla bilsə də, regionlarda bu, belə deyildir. Kənd yerlərində qadınlar əksər hallarda qeyri-formal sektorda, mövsümi kənd təsərrüfatı işlərində çalışırlar ki, bu da onların gələcəkdə sosial müdafiə və pensiya

hüququndan məhrum olunması riskini artırır. İcra hakimiyyətləri orqanları bu regional fərqləri aradan qaldırmaq üçün bölgələrə yönəlik xüsusi və peşə təhsili proqramlarının coğrafiyasını genişləndirməlidirlər.

Hörmətli həmkarlar, biz fəxr edirik ki, Milli Məclisdə, o cümlədən məhkəmə və diplomatik korpuslarda qadınlarımızın təmsilçiliyi ilbəil artır. Lakin icra hakimiyyəti strukturlarında, xüsusi ilə yerli icra hakimiyyəti başçılarının müavinləri və ya şöbə müdirləri səviyyəsində qadınların idarəetməyə cəlb olunması faizi hələ də arzulanan səviyyədə deyildir.

Mən uzun zaman qadın təşkilatının rəhbəri olaraq bu gün müzakirə edilən bu məsələnin nə qədər əhəmiyyətli və ciddi olduğunu bilirəm. Özəlliklə gender bərabərliyinin. Arzu edərdim ki, kaş cəmiyyətimiz bu məsələdə o qədər həssas olardı ki, heç ölkəmizdə gender bərabərliyi haqqında qanunlar qəbul edilməzdi.

Ümumiyyətlə, mən hər zaman Avropadan Azərbaycana ixrac olunan qadın haqlarına, qadın gender bərabərliyinə, bütün ixrac edilən məsələlərə qarşı olmuşam. Çünki özəlliklə müəyyən fondlar vasitəsi ilə qadın hüquqları ilə bağlı qanunlar Azərbaycana ixrac olunurdu. Mənim hörmətli həmkarım Bəhruz bəy üstüörtülü də olsa, buna toxundu, Azərbaycan müstəqilliyini yeni qazananda bura Sorus fondu vasitəsi ilə, müxtəlif layihələr vasitəsi ilə qadın hüquqları ilə bağlı proqramlar daxil olurdu. Bu, nə yazıq ki, Azərbaycan qadınını milli-mənəvi dəyərlərdən uzaq tuturdu. Cəmiyyətimizin qadına baxış acısı dəyişmədikcə, biz belə qanunları çox qəbul edəcəyik.

Nə yaxşı ki, bir Azərbaycanımız var. Onun başında ölkə başçısı və birinci xanımı dövlətin məqamının yükünü paylaşa bilir. Bu bizim üçün ən böyük örnəklərdən biridir.

Mən xalqımızı qarşıdan gələn Qurban bayramı və Müstəqillik...

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Fazil müəllim, deyəsən, Siz sual verəndən sonra çıxdınız, yenidən yazıldınız. Ona görə siyahıya adınız axırıncı düşdü. Buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Bu gün müzakirə etdiyimiz məsələ ənənə üzrə hər zaman Milli Məclisdə çox maraqlı təkliflərlə və fikirlərlə müşahidə olunur. Sabah Qurban bayramı, ertəsi gün Müstəqillik günümüzdür. Hər iki gün münasibəti ilə mən bütün iştirakçıları, xalqımızı təbrik etməklə yanaşı, həm də müstəqilliyin bizə verdiyi ən böyük nemətin məhz qadınların hüquqlarının cəmiyyətdə ən yüksək mərtəbədə tanınması olduğunu vurğulamaq istəyirəm.

Biz mahiyyətcə, dəyərlərcə dövlət quruluşuna görə, yaşam tərzinə görə Avropa cəmiyyəti olsaq da, amma qadına münasibətdə Şərq cəmiyyətlərinin elementlərini hələ də daşımaqdayıq. Ona görə də qadını ucaltmayan cəmiyyətlərin, qadına təhsil verməyən, onu önə çəkməyən, ananın haqlarını tanımayan cəmiyyətlərin nə qədər fəlakətə uğradıqlarının hər zaman şahidi olmuşuq.

Bu gün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, əslində, Azərbaycan problemləri üzrə dövlət komitəsidir. Azərbaycanda bir Daxili İşlər Nazirliyi, bir də bu komitə bütün cəmiyyəti əhatə edir. Yəni ailədə kişidir, qadındır, uşaqdır – hamı bu kateqoriyanın içərisində yer alır. Ona görə də mən bu komitənin səlahiyyətlərinin genişləndirilməsinin tərəfdarıyam. Çox gözəl, əhatəli bir məlumat təqdim ediblər.

Məlumatda maraqlıdır ki, zorakılıq, boşanma, erkən nikah – bütün problemlərə toxunulubdur. Amma bu problemlərlə yanaşı, həm də az imkanları olan komitə özü sosioloji xidmət funksiyasını da həyata keçirib,

sorğular, başqa hansısa monitorinqlər aparmaqla məşğul olub. Əvvəllər bizdə bu yaxın zamanlara qədər sosial tədqiqatlar mərkəzi var idi. Bu işi çox yüksək peşəkarlıqla görürdü. Bilmirəm hansısa səbəbdən birləşdirildi. Amma belə bir qurumun olmasına, həqiqətən, ehtiyac var. Çünki ən çox sosioloji sorğu, monitorinq keçirilməsi zəruri olan sahə budur. Çünki intihar edən yetkinlik yaşına çatmayan uşaqlar, təhsil almayan qadınlar, erkən nikaha girmiş gənclər, boşanmalar – bütün bunlar hamısı bu sahənin əsas problemlərindən biridir.

Qadınların rolunu yüksəltmək üçün birinci növbədə rəhbər vəzifələrdə onların sayı artmalıdır. Diqqət edirsinizsə, 2018-ci ildə 6 kateqoriya üzrə 79 qadın ən yüksək rəhbər səviyyələrdə təmsil olunurdu, 2025-də 65 qadın. 14 say aşağı düşübdür. Məhkəmələrdə 109 məhkəmə hakimindən 6-sı qadındır. Bu, nə deməkdir? Yəni o qədər aşağı bir səviyyədə təmsilçilikdir ki. Yaxud da məhkəmə kollegiya sədrlərindən 26 nəfərdən 3 nəfər qadındır. Qadınların elə məhkəmə hakimi kimi istedadları, qabiliyyətləri, çalışqanlıqları, hesab edirəm ki, bir çox hallarda kişilərdən daha üstün bir səviyyədə olur. Ona görə də bu imkanlar birinci növbədə dövlət xəttində artırılmalıdır.

İkinci, qadın sahibkarların imkanları genişləndirilməlidir.

3-cü vacib məsələ. Qadınların ən fəal olduğu sahə QHT-lərdir. Azərbaycanda qeydiyyatdan keçmiş 3805 qeyri-hökumət təşkilatı var. Onun cəmi 438-nin rəhbəri qadındır. Mən hesab edirəm ki, dövlət komitəsinə səlahiyyət verilməlidir ki, onun dəstək məktubu ilə, qadınların rəhbərliyi ilə yeni QHT-lərin yaradılmasını və onların operativ qeydiyyatdan keçməsini Ədliyyə Nazirliyi təmin etsin. Çünki bu sahədə böyük potensiala malik olan qadınlar var. Evdə əlil olan insanlara kömək etmək, başqa

sahələrdə böyük sosial layihələr həyata keçirmək üçün onlar böyük işlər görə bilərlər.

Burada çox hörmətli Əli müəllim də qeyd etdi. Uşaqlarının sayı 5-ə çatan və 5-dən çox uşağı olan qadınlara dövlət müavinət verir. Ölkə Prezidenti sağ olsun. Ötən il bu miqdar 105 manatdan 140 manata artırıldı. Mən də hesab edirəm ki, demoqrafik vəziyyət olduqca ciddi siqnallar çalmaqdadır. Biz mütləq bunu 3 uşağa endirməliyik, qadınların təqaüd hüququ məsələsinə həssas yanaşmalıyıq. Çünki əgər bu 3 faiz səviyyəsindədirsə, biz bunu mütləq nəzərə almalıyıq.

Ümumilikdə, hesab edirəm ki, təhsil almayan qız uşaqlarının məsələsinə baxmalıyıq. 1 nəfər də olsun məktəbdən kənarda qalmamalıdır. Biz bu məsələyə hətta cəzalandırma da olsa, inzibati məsuliyyət də olsa, diqqəti artırmalıyıq.

Mən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə bu gün dəyərli bir sənəd təqdim etdiklərinə görə təşəkkürümü bildirirəm. Eyni zamanda, bütün...

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim.

Hörmətli həmkarlar, müzakirələr bitdi. Bütün yazılanlar çıxış etdi. Əslində, biz kifayət qədər müzakirə etdik və çıxışlarda illik məlumat haqqında müsbət fikirlər səsləndi. Mən də hesab edirəm ki, məlumat yüksək səviyyədə hazırlanıbdır. Ancaq, eyni zamanda, suallar da, təkliflər də var idi. Bahar xanım, üzümü Sizə tuturam, indi nə isə demək istəyirsiniz, fikirlərinizi bildirmək istəyirsiniz? Buyurun.

**Bahar Muradova.** Təşəkkür edirəm, Sahibə xanım. İlk növbədə, Siz başda olmaqla parlamentə, bütün çıxış edənlərə, xüsusi ilə parlament rəhbərinin mövqeyinə görə təşəkkür edirəm. Bu gün ilk dəfədir ki, bu məsələ ilə bağlı çıxışa yazılanların hamısı bir nəfər kimi öz sözünü dedi. Bu

da onu göstərir ki, həqiqətən, mənim mövqeyimdə bu səslənmişdi, bu yanaşma artıq oturuşmaqdadır. Bu təklif bir komitənin, ayrıca dövlət orqanının səlahiyyət dairəsində olan məsələ deyil. O yerdə ki, söhbət ailədən, insan kapitalının inkişafından gedir, onların problemləri və qarşıdakı hədəflər üzrə görüləcək işlərdən gedir, burada hamı iştirak etməlidir.

İstəyirəm, bir məsələyə də aydınlıq gətirim ki, bu məlumat yalnız dövlət komitəsinin fəaliyyəti barədə deyil. Bu sahəyə cəlb olunmuş dövlət qurumları, media, qeyri-hökumət təşkilatı, parlament, yəni fəaliyyət istiqamətlərində bu məsələlər olan bütün qurumların 2025-ci il ərzindəki fəaliyyətinin koordinasiya olunmuş, əlaqələndirilmiş, optimallaşdırılmış bir hesabatıdır, bu barədə bir məlumatdır.

Bütövlükdə, hesab edirəm ki, biz getdikcə bu istiqamətdə həm mexanizmlərin effektivliyinin artmasının, həm qanunvericiliyin möhkəmlənməsinin, həm də davranış və sosial yanaşmalardakı dəyişikliyin şahidi olmaqdayır. Mən bunu giriş sözümdə dedim.

Burada əgər hər kəsin çıxışına münasibət bildirməli, sualına cavab verməli olsam, Sahibə xanım, bizə bir bu qədər də vaxt lazım olacaq. Ona görə mən hər birinə ayrı-ayrılıqda təşəkkür edirəm. Onlar bizim hamımızın bu sahəyə cəlb olunmuş konkret vəzifə sahibləri kimi üzərimizə düşən vəzifələri müxtəlif yöndən vurğuladılar, problemlərin səbəbləri barədə də fikirlərini səsləndirdilər.

Mən onu demək istəyirəm ki, təkcə bu yox, bundan əvvəlki 5 məlumatda da bu məsələlərlə bağlı həm keçirilmiş təhlillər, həm də mövcud problemlər, onların səbəbləri, görülmüş işlər, çətinliklər barədə kifayət qədər məlumat var. Mən çox istərdim ki, bu baza ilk növbədə Milli Məclis üzvləri tərəfindən ciddi şəkildə istifadə olunsun.

Siz yaxşı vurğuladınız ki, millət vəkilləri regionlarda çox böyük iş görə bilərlər və həqiqətən də, görürlər. Amma onu daha sistemli, daha koordinasiya olunmuş şəkildə biz aparsaq, qanunların qəbulu prosesinə dəstək göstərə bilərik. Bu, ictimai rəyin yönləndirilməsini və idarə olunmasını vacib edir.  Burada millət vəkillərinin rolu ölçüyəgəlməzdir.

Bir də ki, regionlarda daha çox məsələlər sanki yerli adət-ənənələrə uyğun şəkildə idarə olunmağa çalışılır. Qanunlar burada qəbul olunur, müəyyən mexanizmlər yaradılır, amma onun icrası prosesində yerlərə, regionlara getdikcə münasibət dəyişir. Deməli, sosial davranış, insanların düşüncəsi, təhsil səviyyəsi, məsələlərə hansı yöndən yanaşması çox vacibdir.  Biz bu yanaşmanı dəyişməliyik.

Bilirsiniz, bizim indiki qanunlarımız bütün mənfi, müsbəti ilə bu məsələləri yüksək səviyyədə həll etməyə imkan verir. Dövlətin də siyasi iradəsi ortadadır. Əsas odur ki, vətəndaşlar bu sahədə öz üzərilərinə düşən vəzifələri yerinə yetirsinlər. Biz yalnız qurbanlara yönəlik layihələri daha çox reallaşdırmalı deyilik. O qurbanların yaranmasına səbəbkar olan şəxslərin, daha çox təzyiqə məruz qoyan, zorakılıq göstərən insanların davranış və düşüncəsinin dəyişdirilməsinə ehtiyac var. Düşünürəm ki, bu istiqamətdə layihələr daha da genişləndirilməlidir.

Burada bir neçə konkret sual oldu ki, hansı işlər görülüb? Qarşıda hansı sənədlər qəbul olunacaq? Hazırda burada səslənən bütün məsələləri özündə əks etdirə biləcək bir sənəd üzərində iş gedir. Dövlət komitəsi ailə konsepsiyası  sənədini yekunlaşdırmaq üzrədir. Biz artıq onu hazırlamışıq. Müvafiq dövlət orqanlarına göndərilib. Onlar da təkliflərini bizə təqdim edirlər. Bu, müasir dövr üçün Azərbaycanın yanaşmasını və qarşıdakı vəzifələri nəzərdə tutan bir çərçivə rolunu oynayacaq. Əlbəttə, sonra onun icrası ilə bağlı fəaliyyət planları da qəbul olunacaqdır və icra ediləcəkdir.

İkinci sənədimiz olan uşaq strategiyasının 2026–2030-cu illəri əhatə edən ikinci fəaliyyət planını yekunlaşdırmaqdayıq. Hesab edirəm, onun da icrası bu məsələlərə kifayət qədər təsir göstərəcəkdir.

Burada sosial-iqtisadi amillərin ailə institutuna təsiri ilə bağlı sual oldu. Konkret şəkildə söyləyim ki, bizim tərəfimizdən təhlil keçirilib. Bu, məlumatda da öz əksini tapır. Amillər mənzil şəraitinin yaxşılaşdırılması tələbidir, gənclərin məşğulluğu məsələsini həll etməkdir, icbari tibbi sığorta sahəsində əhatə dairəsinin genişləndirilməsidir. Çünki bir sıra məsələlər – istər uşaq doğumu, istərsə də reproduktiv sağlamlıq, bu sahədə qanunun qəbuluna ehtiyac var idi. Bu sahədəki problemlər araşdırılarkən onların kifayət qədər ciddi və əhatəli tibbi dəstəyə ehtiyacının ödənilməsi məsələsi ortaya çıxır ki, bir çox hallarda uşaq doğumunun azalması bununla bağlı olur.

O ki qaldı selektiv yanaşma – cins seçiminə görə, bu, bizim həyatımızın reallığıdır, bütün dünyada var. Bu, az və ya çox dərəcədə hər yerdə var. Əlbəttə, oğul sahibi olmaq, gələcəyini sosial-iqtisadi, ən əsası mənəvi cəhətdən təmin etmək bizim üçün çox vacibdir. Amma bu oğulla yanaşı, yürüməli olan qızlara da ehtiyac var. Ona görə də düşünürəm ki, ailələr milli təfəkkürdə özünə yer salmış bu kimi stereotiplərdən azad olmaq üçün hər birimizin dəstəyinə ehtiyac duyurlar. Biz koordinasiya olunmuş, əlaqələndirilmiş tədbirlər həyata keçirməliyik.

O ki qaldı Qüdrət Həsənquliyevin sualına ki, cins seçimi ilə bağlı meyillər öyrənilibmi? Hazırkı məlumatın 91-ci səhifəsində dövlət komitəsi tərəfindən keçirilmiş doğulacaq uşaqların cins seçimi meyillərinin öyrənilməsi mövzusunda tədqiqat və onun nəticələri, tövsiyələr də var. Xahiş edirəm, millət vəkilləri bu məsələyə də diqqət yetirsinlər.

Mən fikrimi yekunlaşdıraraq onu demək istəyirəm ki, bugünkü müzakirədə hər bir kəsin ünvanımıza söylədiyi xoş sözlər öz yerində, amma tənqidi məqamları vurğuladıqlarına görə mən onlara təşəkkür edirəm. Çünki bu, bizə bu sahədəki düşüncələri, mövcud istiqamətləri və görəcəyimiz işləri müəyyənləşdirmək üçün çox böyük dəstəkdir.

Mən Sahibə xanım, Sizə təşəkkür edirəm ki, imkan yaratdınız, hər kəs fikirlərini səsləndirdi. Onu vurğulamaq istəyirəm ki, hər bir millət vəkilinə onun sualı ilə bağlı yazılı cavab göndəriləcək. İctimaiyyət üçün isə burada səslənən tənqidi fikirlərlə bağlı ümumi press-reliz yayılacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bahar xanım. Əslində, Siz sualların çoxuna cavab verdiniz. Qalan suallara da yazılı cavab göndərəcəksiniz. Mən düşünürəm ki, hörmətli həmkarlarımın burada səsləndirdiyi təkliflər və suallar sizin cavablarınızda öz əksini tapacaq.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Bahar xanım, Sizi təbrik edirik və uğurlar arzulayırıq. Çox sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Gündəliyin növbəti 6 məsələsi möhtərəm cənab Prezidentin təqdimatları əsasında bir sıra

məhkəmə hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlıdır. Məsələlərin müzakirəsi ilə əlaqədar dəvət edilən şəxslər var. Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü hörmətli Çingiz Əsgərov, – Çingiz müəllim, xoş gəlmisiniz, – Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri hörmətli Kərəm Mansurov və hakimliyə hörmətli namizədlər iclasımızda iştirak edirlər. Bir daha mən sizin hamınızı salamlayıram.

Hörmətli həmkarlar, bu məsələlərə dair qərar layihələrinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Layihələrə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti bir sıra məhkəmə instansiyalarına hakimlərin təyin edilməsi və tutduqları vəzifələrdən azad olunması ilə bağlı müvafiq məsələləri Milli Məclisin müzakirəsinə təqdim etmişdir.

İlk növbədə qeyd etmək istərdim ki, dövlət başçısının 2019-cu il 3 aprel tarixli “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanından irəli gələn mühüm vəzifələrin həyata keçirilməsi istiqamətində ardıcıl addımlar atılaraq, hakim vakansiyalarının komplektləşdirilməsi məqsədi ilə hakim vəzifəsinə namizədlərin seçimi prosesi fasiləsiz davam etdirilmişdir.

Ötən dövr ərzində 2600 nəfərdən çox hakimliyə namizəd seçim prosesində iştirak etmiş, onlardan 333 nəfəri uğurlu nəticə göstərərək Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə birinci instansiya məhkəmələrinin hakimi vəzifəsinə təyin edilmişdir. Ümumilikdə,

2023–2025-ci illərdə 220 nəfər şəxs hakim vəzifəsinə təyin olunmuşdur. Hazırda məhkəmə sistemində 705 nəfər hakim fəaliyyət göstərir. Yaxın illərdə hakim sayının 800-ə çatdırılması nəzərdə tutulmuşdur.

Qeyd etdiyim statistik məlumatlar kadr potensialının artırılması ilə yanaşı, eyni zamanda, məhkəmə sisteminin keyfiyyətcə yenilənməsinə xidmət etmişdir. Belə ki, 2019-cu ilə qədər təyin edilmiş 415 hakimin cəmi 63 nəfəri qadın olduğu halda, sonrakı dövrdə təyin edilən qadın hakimlərin sayı əhəmiyyətli dərəcədə artırılmışdır. Bu isə ölkəmizdə gender bərabərliyinin təmin edilməsi və qadınların məhkəmə sistemində fəal iştirakının əhəmiyyətli nümunəsidir. Hazırda məhkəmə sistemində qeyd etdiyim 705 nəfər fəaliyyət göstərən hakimlərdən 210 nəfəri qadınlardır. Bu isə hakim korpusunun 29,8 faizini təşkil edir.

Hörmətli deputatlar, Milli Məclisin plenar iclasının hazırkı gündəliyində dövlət başçısının müvafiq təqdimatlarına əsasən 16 hakim barəsində məsələlərin müzakirəsi nəzərdə tutulub.

Gündəliyin 2-ci məsələsi üzrə aşağıdakı hakimlərin vəzifələri dəyişdirilərək, onların Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi təklif olunur. Abdullayev İlkin Qismət oğlu, Qarayev Sənan Məmməd oğlu.

Gündəliyin 3-cü məsələsi üzrə aşağıdakı hakimlərin vəzifələri dəyişdirilərək onların Bakı Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi təklif olunur. Abdullayev Elşən Uğur oğlu, Əliyeva Aytən Heydər qızı, Hüseynov Elməddin Mirpaşa oğlu, Hüseynov Telman Qulaməli oğlu, İsmayılzadə Fərid Sabir oğlu, Qafarova Rəna Nazim qızı, Nuriyev Elnur Aləm oğlu. Cənab Prezidentin təqdimatının ikinci bəndinə əsasən Sadıqov Vahid Nəriman oğlunun vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar onun Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad olunması nəzərdə

tutulur.

Gündəliyin 4-cü məsələsi üzrə Nural Turab oğlu Əliyevin vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar onun Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi nəzərdə tutulur.

Gündəliyin 5-ci məsələsi üzrə Bilal Mahir oğlu Məmmədovun vəzifəsi dəyişdirilərək onun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi təklif edilir.

Gündəliyin 6-cı məsələsi üzrə Əsgərov Anar Əlifağa oğlunun və Mustafayev Etibar Mustafa oğlunun vəzifələri dəyişdirilərək onların Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilməsi təklif olunur.

Gündəliyin 7-ci məsələsi üzrə Ağabəyov Nicat Rauf oğlunun və Hacızadə Fəxri Hümmət oğlunun vəzifələri dəyişdirilərək onların Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilməsi təklif olunur.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunan məsələlər üzrə müvafiq qərarların qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim.

Saat 1-dir. Təklif olundu, fasiləsiz davam edək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Deməli, fasiləsiz işləyəcəyik.

Hörmətli həmkarlar, Nizami müəllim məlumat verdi, müzakirəyə keçməliyik. 3 nəfər yazılıb. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Məhkəmə hakimiyyəti dövlətin ən həssas və məsuliyyətli institutlarından biridir. İnsan bəzən son ümid kimi məhkəməyə müraciət

edir. Çünki vətəndaş inanır ki, məhkəmə zalında onun səsi eşidiləcək, haqqı qorunacaq, qərar yalnız qanuna və vicdana əsaslanacaq.

Deputat kimi qəbulumda xeyli şikayətçilər olur. Onların arasında illərlə ədalət axtaran insanlar da var. Bəzilərinin müraciətlərini dinləyərkən görürəm ki, ciddi araşdırmaya ehtiyac duyulur. Elə hallar olur ki, vətəndaş öz haqqını sübut edə bilmir və ya proseslərin uzun çəkməsi səbəbindən ümidsizliyə qapılır. Bu bizi düşündürməlidir.

Əlbəttə, biz anlayırıq ki, hakimlərin üzərinə böyük yük düşür. İş sayı çoxdur, məsuliyyət ağırdır, vaxt məhduddur. Amma bu amillər heç vaxt əsas verməməlidir ki, bir insan haqsız yerə mühakimə olunsun və ya haqqı olan şəxs öz hüququnu bərpa edə bilməsin. Çünki məhkəmənin əsas missiyası yalnız qərar vermək deyil, ədaləti təmin etməkdir. Məhkəmə orqanının tam müstəqilliyi də burada xüsusi əhəmiyyət daşıyır. Hakim yalnız qanuna və ya öz vicdanına tabe olmalıdır. Ədalətli məhkəmə üçün cəmiyyətin ən böyük gözləntisi məhz budur. İnsanlar inanmalıdırlar ki, onların taleyi hər hansı təsirdən deyil, hüquqdan və obyektiv araşdırmadan asılıdır.

Eyni zamanda, onu da qeyd etməliyəm ki, son illər məhkəmə-hüquq sistemində mühüm və müsbət irəliləyişlər var. Elektron məhkəmə sisteminin tətbiqi, şəffaflığın artırılması, hakim korpusunun yenilənməsi və islahatlar vətəndaş məmnuniyyətinin yüksəlməsinə xidmət edir. Bu istiqamətdə atılan addımlar təqdirəlayiqdir və bəyənirəm.

Bu gün təsdiq etdiyimiz hakimlərdən gözləntimiz böyükdür. Onlar yalnız qanunu tətbiq edən deyil, həm də ədalət hissini qoruyan insanlar olmalıdırlar. Çünki məhkəməyə inam güclü olduqca, dövlətə inam da güclənəcək.

Mən təyin olunan bütün hakimləri təbrik edirəm, onlara yeni-yeni uğurlar, nailiyyətlər arzulayıram.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, müzakirə olunan məsələ ilə bağlı onu qeyd etmək istəyirəm ki, mən dəfələrlə Milli Məclisdə bir məsələyə toxunmuşam ki, bizim “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa görə, dövlət orqanlarına və vəzifəli şəxslərə diskresion səlahiyyətlər, dispozitiv imkanlar yaradan qanunlar qəbul oluna bilməz. Yəni öz mülahizələrinə görə qanunu tətbiq etmək, yaxud öz seçimi ilə davranış.

Mən vaxtı ilə də məsələ qaldırmışdım ki, “Məhkəmələr və hakimlər haqqında” Qanuna görə, bizdə ümumi prosedurlardan kənar yüksək hakim vəzifələrinə şəxslərin təyin edilməsinə imkan verilir. Halbuki yüksək hakim vəzifəsi deyəndə, yəni söhbət yuxarı instansiya məhkəmələrinə hakimlərin təyin olunmasından gedir. Eyni zamanda da, qeyd edilir ki, 94-cü maddəyə görə, yuxarı instansiya məhkəmələrinə bir qayda olaraq ən azı 5 il birinci instansiya məhkəməsində işləmiş şəxslər təyin olunurlar. Amma biz zaman-zaman görürük ki, 5 il iş stajı olmayan şəxslər o istisnalardan istifadə olunaraq, yəni apellyasiya məhkəmələrinə, yaxud ali məhkəmələrə təyin olunurlar. İndi də Şirvan Məhkəməsinə iki nəfər təyin olunur, ikisinin də 5 il iş stajı yoxdur.

Burada söhbət ondan gedir ki, bizim “Məhkəmələr və hakimlər haqqında” Qanunun 93-cü və 94-cü maddələri Konstitusiya Qanunu ilə ziddiyyət təşkil edir. Yəni “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 64-cü maddəsinin dördüncü hissəsində qeyd olunur ki,

normativ hüquqi aktda dövlət orqanının səlahiyyətlərinin həddindən artıq ümumiləşdirilmiş formada müəyyən edilməsinə, – yəni normada orqan edə bilər, – bir qayda olaraq, müstəsna hallarda yol verilir. Orqan öz səlahiyyətləri daxilində zəruri olduqda bunlara bənzər qeyri-müəyyən ifadələrdən istifadə olunmasına yol verilmir.

Amma indi “Məhkəmələr və hakimlər haqqında” Qanunun 94-cü maddəsini oxuyuram. Burada həmin fikir belə ifadə olunur ki, yuxarı instansiya məhkəmələrinin hakimi vəzifələrinə, bir qayda olaraq, ən azı 5 il birinci instansiya məhkəmələrinin hakimi işləmiş şəxslər təyin oluna bilərlər. Bu normaya istinad edərək bu gün biz iki nəfəri Apellyasiya Məhkəməsinə üzv təyin edirik. Açıqdan açığa bu norma Konstitusiyanın tərkib hissəsi olan Konstitusiya Qanununa zidd olduğuna görə, əslində, heç bir hüquqi qüvvəsi yoxdur və bunun əsasında biz təyinatlar həyata keçiririk.

Əslində, elə Ali Məhkəmənin sədri də 93-4-cü maddəyə uyğun olaraq, yəni o da ümumi prosedurlardan kənar Ali Məhkəmənin üzvü təyin olundu. Buna görə də Ali Məkəmənin sədri bu qaydada təyin olunubsa, digərlərinə də biz ədalətli olmaq üçün ən azından gərək səs verək. Mən də onlara səs verəcəyəm.

Amma onu təklif edirəm ki, biz qanunu “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa uyğunlaşdırmalıyıq. Həm də ədalət baxımından bu, belə olmalıdır. Yəni doğrudanmı, birinci instansiya məhkəməsində bizim 5 ildən artıq işləmiş təcrübəli hakimlərimiz yoxdur ki, onlar yuxarı instansiya məhkəmələrinə təyin olunsunlar? Yəni bu, digərlərinə münasibətdə, hesab edirəm ki, müəyyən mənada ədalətsizlikdir və bir növ bu normadan, qeyd etdiyim kimi, bu diskresion səlahiyyətdən sui-istifadədir.

Ona görə də təklif edirəm ki, gələcəkdə bu yeni qanunu biz yenidən qəbul edək və orada həm də Ali Məhkəmə üzvləri üçün yaş məhdudiyyəti qoyaq. Bilirsiniz, yuxarı instansiya məhkəmələrinə o şəxslər seçilməlidirlər ki, onlar daha çox epizodlu və mürəkkəb işlərə baxmış olsunlar, onlar daha təcrübəli olsunlar, həm də həyat təcrübəsi qazanmış olsunlar. O baxımdan, hesab edirəm ki, Ali Məhkəmə üzvlərinə yaş senzi qoyulmalıdır ki, heç olmasa, 50 yaşı olan şəxslər Ali Məhkəmənin üzvü olsunlar. Dünyanın hər yerində xüsusi ilə də Ali Məhkəməyə yaşlı insanlar seçilirlər ki, onlar artıq həyatda oturuşmuş, kifayət qədər təcrübəli insanlardırlar.

Mən yeni təyin olunacaq şəxslərin hər birinə uğurlar arzulayıram və hesab edirəm ki, güclü məhkəmə hakimiyyəti həm ölkənin iqtisadiyyatının inkişafı deməkdir, mülkiyyətin...

**Sədrlik edən.** Qüdrət müəllim, çox müəmmalı danışdınız. Siz bura Ali Məhkəmənin sədrini niyə qatırsınız? Bu birincisi. İkincisi isə deyirsiniz ki, səs verəcəyəm və eyni zamanda, ittiham edirsiniz. Komitənin rəyi var. Nizami Səfərov komitənin rəyini bildirdi. Hər birinizin səs verməkdə öz hüququnuz var. Xahiş edirəm, hər bir deputat öz istəyini göstərsin.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Yeni hakimlərin seçilməsi və yerdəyişmələrə dair məsələ ədalət mühakiməsinin keyfiyyəti, məhkəmə qərarlarına ictimai etimad, vətəndaşların dövlətlə münasibətlərində ən həssas sahələrdən biri kimi həmişə aktuallığını qoruyur. Çünki qərarlar dövlətin adından çıxarılır. Avropa Şurasının Avropada həbsxanalar və məhbuslar üzrə 2025-ci il hesabatında göstərilir ki, Azərbaycanda hər 100 min nəfərə düşən məhbus sayı 271 nəfər, cəzaçəkmə müəssisələrinin doluluq səviyyəsi 100 yerə qarşı 98-dir. Lakin biz ölkəmizdə kriminogen durumun sabit olduğunu

gördüyümüzə rəğmən, geniş təhlillərdə, əslində, bu rəqəmlərin haradan yarandığını da göstərməyə çalışacağıq.

Son illərdə hüquqi sferada mühüm islahatlar aparılıb. Probasiya xidmətinin yaradılması, elektron nəzarət vasitələrinin tətbiqi, azadlıqdan məhrumetməyə alternativ mexanizmlərin genişləndirilməsi cəza siyasətində humanizmi gücləndirib. Lakin əsas prinsip dəyişməlidir. Həbs ən son tədbir olmalıdır.

2025-ci il məhkəmə-hüquq statistikası da ciddi nəticələr çıxarmağa imkan verir. 2024-cü ildə məhkum olunan şəxslərin sayı 15 min 885 nəfər olduğu halda, 2025-ci ildə həmin rəqəm 13 min 846 nəfərə enib. Yəni 12,8 faiz azalma var. Lakin struktur təhlillər göstərir ki, bəzi sahələrdə artım var. Mülkiyyət əleyhinə cinayətlər üzrə məhkum olunanların sayı 3400 nəfərdən 3680 nəfərə yüksəlib. Narkotik vasitələri ilə bağlı cinayətlər üzrə say isə 5683 nəfər təşkil edir ki, bu, ümumi kateqoriya üzrə məhkumların 41 faizini təşkil edir. Deməli, ümumi azalma müsbət göstərici olsa da, sosial-iqtisadi münasibətlərə, mülkiyyət hüququna və narkotiklərə münasibətdə biz geniş təhqiqatlarımızı aparmalıyıq. Çünki narkotik istifadəçisi ilə narkotik ticarətçisinə eyni yanaşma tətbiq olunmamalıdır. Asılılıqdan əziyyət çəkən şəxslər üçün müalicə və reabilitasiya mexanizmləri daha da genişləndirilməlidir.

Cəza siyasətində balans məsələsi də önəmlidir. 2025-ci ildə məhkum olunanların 58,1 faizi müəyyən müddətə azadlıqdan məhrum edilib. Həmin göstərici alternativ cəzaların tətbiqi barədə dərindən düşünməyə əsas verir. Əgər məqsəd yalnız cəza verməkdirsə, həbs kifayət edilə bilər. Amma məqsəd təkrar cinayətkarlığın qarşısını almaqdırsa, probasiya, reabilitasiya, sosial dəstək və nəzarət mexanizmləri daha öndə tutulmalıdır.

Burada məhkəmələrin iş yükü ilə bağlı məsələlərə toxunuldu. Birinci

instansiya məhkəmələrində inzibati xətalar üzrə baxılmış işlərin sayı 2024-cü ildə 112 min 21 nəfər olduğu halda, 2025-ci ildə 133 min 46-ya çatıb. Yəni artım 18 faizdir. Bu halda hakimlərin gündəlik iş yükünün həm operativliyə, həm də qərarların keyfiyyətinə təsirini hesablamaq çətin deyil.

Eyni vəziyyət mülki və kommersiya məsələləri ilə bağlı mübahisələrdə də yer alır. 2025-ci ildə birinci instansiya məhkəmələrində 167 min 312 mülki işə baxılıb. İddiaların 95 faizi təmin olunub. Kommersiya mübahisələrində də ona yaxın göstəricilərdir. Bu rəqəmlər nəyi sübut edir? Vətəndaşlar və hüquqi şəxslər məhkəməyə fəal müraciət edirlər, onların hüquqları təmin olunur. O zaman, deməli, əvvəlki instansiyalarda – inzibati orqanlarda, müqavilə tərəflərində, sahibkarlıq subyekti və digər institutlarda onların hüquqları tam qorunmur. Ona görə də ən mühüm məsələlərdən biri apellyasiya və kasasiya göstəriciləridir.

Biz cəmiyyət olaraq bilməliyik: birinci instansiya məhkəmələrinin qərarlarının neçə faizi yuxarı instansiyalarda qüvvədə saxlanılır, neçə faizi dəyişdirilir? Necə faizi ləğv olunur? Məhkəmə-Hüquq Şurasının saytında dünən, doğrusu, sözügedən nəticələri görmədim. Yeri gəlmişkən, deyim ki, eyni zamanda, bu sahədə kifayət qədər geniş işlər aparılır, təqdir olunacaq hallar həddindən artıq çoxdur. O cümlədən elektron məhkəmə platformasının yeni bir sistemə keçməsidir. Ona görə də, hesab edirik ki, əhalinin 100 min nəfərinə düşən hakim sayı ki, hörmətli Nizami müəllim qeyd etdi, onun artırılması nəzərdə tutulur. Eyni zamanda, Azərbaycan insanı – Vətən müharibəsində qələbə qazanan insanlar: “Qoy, ədalət Zəfər çalsın!” Ulu Öndərin 1970-ci illərdə irəli sürdüyü şüarı, devizi bu gün həyatında da hər zaman yaşamaq istəyir.

Mən irəli sürülən təyinatları və yerdəyişmələri müsbət qiymətləndirirəm, onlara səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Elşən Musayev. Elşən müəllim, buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Əslində, mənim çıxış etmək fikrim yox idi. Sadəcə, komitə sədrimiz bu gün bu iclasda iştirak etmədiyinə görə bəzi məqamlara münasibət bildirməyi özümə borc bildim. Əvvəla, bu təqdimat cənab Prezidentdən gəlib və bizə təqdim olunana qədər, təbii ki, bir çox müzakirədən və araşdırmadan keçib. Bunu nəzərə almaq lazımdır.

İkinci məsələ, burada bizə təqdim olunan namizədlərin tərcümeyi-halına, həyat təcrübəsinə, hüquq təcrübəsinə, fəaliyyətinə baxmaq yetərlidir ki, onların nə qədər layiqli bir namizəd olduqlarını müəyyən edə bilək.

Üçüncü məsələ, burada Siz də qeyd etdiniz, hörmətli sədr, Ali Məhkəmənin sədrinin də adı çəkildi. Mən onu vurğulamaq istəyirəm ki, hörmətli İnam Kərimov Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının rəhbərliyinə gəldikdən sonra bu sahədə, bir çox sahələrdə yetərincə böyük şəffaflıq, ədalət mühakiməsinin təmin edilməsi üçün mühüm zəmin yaranıb. Nəhayət, bu, xüsusi qayda-qanun pozuntusu deyil, birbaşa qanunun tələbidir, göstərişidir.

Hörmətli namizədlərə uğurlar arzulayıram. Heç şübhə etmirəm ki, dəyərli millət vəkillərinin səsverməsindən sonra onlar öz fəaliyyətlərini davam etdirəcəklər. Minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Siz komitə sədrinin müavini kimi çıxış etdiniz. Çox sağ olun. Əslində, Sizin dedikləriniz bu zalda dəfələrlə səslənib.

Hörmətli həmkarlar, çıxışlar bitdi. Mən qərar layihələrini bir-bir səsə qoyacağam. Yenə də xatırladım ki, cənab Prezidentin təqdimatları əsasında biz 6 məsələyə baxacağıq. Bu, bir sıra məhkəmələrin hakimlərinin

təyin və vəzifədən azad edilməsi ilə bağlıdır. İndi xahiş edirəm, Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında qərar layihəsini səsə qoyuram. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

İndi isə Gəncə Apellyasiya Məhkəməsi hakiminin vəzifədən azad edilməsi haqqında qərar layihəsinə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi, çox sağ olun.

Növbəti, Sumqayıt Apellyasiya Məhkəməsi hakiminin təyin edilməsi haqqında qərar layihəsini səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi, çox sağ olun.

İndi Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsinə münasibət bildirməyinizi xahiş edirəm, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi.

Nəhayət, mən Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsini səsə qoyuram. Buyurun, səs verin.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Mən yeni təyin olunmuş hakimləri təbrik edirəm, işlərində onlara uğurlar arzulayıram. Sağ olun.

Çingiz müəllim, sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, növbəti 4 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Onu da nəzərinizə çatdırım ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır.

8-ci məsələ Maliyyə icarəsi haqqında qanun layihəsidir, 9-cu məsələ isə Mülki Məcəllədə və digər 2 məcəllədə, “Müflisləşmə və iflas haqqında” Qanunda və daha 21 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Odur ki, hörmətli həmkarlar, həmişə olduğu kimi, təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, daha sonra digər prosedurlara keçək.

Qeyd edim ki, hər iki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Mən indi komitə sədrinin müavini hörmətli Azər Badamova söz vermək istəyirəm. Azər müəllim, buyurun, qanun layihələri haqqında məlumat verin.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Maliyyə icarəsi haqqında qanun layihəsinin birinci və ikinci oxunuşları zamanı layihə ilə bağlı geniş məlumat təqdim olunmuşdur.

Qısa olaraq qeyd etmək istəyirəm ki, qanun layihəsi, ümumilikdə, maliyyə icarəsi fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsaslarını, maliyyə subyektləri arasında münasibətlərin yaranması, dəyişdirilməsi və onlara xitam verilməsi qaydalarını, habelə ölkədə maliyyə icarəsi fəaliyyəti üzrə tənzimləmə və nəzarətin əsas istiqamətlərini müəyyən edir.

Qeyd etmək istəyirəm ki, həm bu, həm də növbəti qanun layihələrinin ikinci oxunuşu zamanı əlavə və dəyişikliklər təklif edilməyib. Bu baxımdan hər iki qanun layihəsi üçüncü oxunuşun tələblərinə tam cavab verir.

Hörmətli Sahibə xanım, layihələri olduğu kimi səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, 9-cu məsələyə daha 3 komitədə baxılıb. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Mən indi komitənin rəyini bildirmək üçün sədr müavini hörmətli Elşən Musayevə söz verirəm. Buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Layihəyə Aqrar siyasət komitəsində də baxılıb. Hörmətli Tahir müəllim Rzayev, buyurun, məlumat verin.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, komitənin rəyi müsbətdir. Nəzərə alınmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Elm və təhsil komitəsində də baxılıb. Hörmətli Anar İsgəndərov, komitənin rəyini bildirin.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, üçüncü oxunuşdur, ancaq görürəm yazılan var. Səyyad Aran. Səyyad müəllim, sözünüz, sualınız var? Bu, üçüncü oxunuşdur.

**Səyyad Aran.** Çox təşəkkür edirəm, Sahibə xanım. Məlumdur ki, hər bir qanun həm də dil faktorudur. Burada ifadələr, sözlər, qanunların adları dəqiq olmalıdır. Mən anlayıram, üçüncü oxunuşdur. Amma bir neçə məsələyə toxunmaq istəyirəm.

Deyilir ki, "Tütün və tütün məmulatı haqqında" Qanun. "Tütün və tütün məmulatları haqqında" olmalıdır. Məgər biz deyirik ki, "un və un məhsulu haqqında?" Axı, bilirik ki, un məhsulları çeşid-çeşiddir, o cümlədən tütün məmulatları da. Axı, bu, adicə bir həqiqətdir, dil qanunudur. "Tütün və tütün məmulatı haqqında". Bu, nə deməkdir?

Sonra "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında". Mikro elə kiçik deməkdir. Görəsən, bu qanunu göndərən, yazan nəyi nəzərdə tutub? Mən üzümü deputat həmkarlarıma tutub soruşuram: "Mikro, kiçik və orta sahibkarlıq" nə deməkdir?

**Sədrlik edən.** Səyyad müəllim, çox üzr istəyirəm, ayrı suallarınız varmı? Siz bunları gərək ikinci oxunuşda deyərdiniz. İndi bir az gecikmisiniz.

**Səyyad Aran.** Göz görür, əqlim kəsir. Mən günəşi göydə dana bilmirəm. Belə şey olar?

Sahibə xanım, mütləq bizə bu qanunları nəzərdən keçirmək üçün bir istedadlı dilçi, bir istedadlı hüquqşünas, bir istedadlı iqtisadçı lazımdır. Onlara Milli Məclis maaş verməlidir. Bu qanunları mütləq həmin şəxslər oxuyub öz sahələri üzrə yanlış məlumatlara düzəlişlər etməlidirlər.

Sahibə xanım, üzümü Sizə tuturam və yaxud bütün kollektivə. Qardaşlar, "vətəndaş qüsursuzluğu" nə deməkdir?

**Sədrlik edən.** Səyyad müəllim, bircə dəqiqə. Xahiş edirəm, indi Siz də mənə qulaq asın. Mən həmişə çıxış etmək istəyənlərə söz verirəm. Xahiş edirəm, narazılığınızı burada belə bildirməyin. Mən axı, hər şeyi də, hamını da görürəm.

Bu məsələlər hamısı gərək ikinci oxunuşda, ikinci oxunuşun qaydalarına uyğun müzakirə olunsun. Siz indi, dediyim kimi, bir az gecikmisiniz, amma eybi yoxdur. Fərid müəllim, bu suallarla bağlı Siz Səyyad müəllimlə şöbə müdiri Məhəmməd Bazıqov arasında işçi qaydada buna baxın.

O ki qaldı deyirsiniz, haradan gəlib? Prezident Administrasiyasından gəlib, möhtərəm cənab Prezidentin məktubu ilə. Bircə dəqiqə. Xahiş edirəm, indi Siz mənə qulaq asın. Bu, üçüncü oxunuşdur. Gəlin, hamımız bu oxunuşun qaydalarına tabe olaq. Mən məsələni səsə qoyuram.

Burada çıxışa yazılanlar – Hikmət müəllim, Sizdən də xahiş edirəm, Azər müəllimdən də. Xüsusi ilə yanaşı oturursunuz. Bu barədə sonra danışarsınız.

8-ci məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

9-cu məsələni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 10-cu məsələsinə keçirik. Bu məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Təklif edilən qanun layihəsi "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Məlumdur ki, əsas məsələ hərbi qulluqçuların beynəlxalq təcrübəyə uyğun olaraq, fərdi identifikasiya ilə təminolunma üsullarından istifadəsi ilə bağlıdır, yəni şəxsi jetonların tətbiqi. Digər məsələmiz də “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununda çağırışaqədər hazırlıqla bağlıdır.

Qanun layihələri birinci və ikinci oxunuşda baxılmış, komitəyə əlavə rəy və təklif daxil olmamışdır. Üçüncü oxunuş üçün plenar iclasa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

11-ci məsələyə keçirik. Bu, “Vətəndaşların müraciətləri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə, bilirsiniz ki, İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün sözü komitənin sədri hörmətli Zahid Oruca verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, iki oxunuşda 5 parlament üzvü çıxış etmişdir. Hər biri layihəni təqdir etmişdir. Bir daha xüsusi vurğulayıram ki, layihədə vətəndaşlarımızın hüquqlarını genişləndirən müddəalar yer alıb.

İkinci, layihənin əsas məqsədi elektron hökumət informasiya sistemi üzərindən bunların həyata keçirilməsidir. Ona görə də xahiş edirəm, bu məqamlar nəzərə alınsın. Layihə səsvermə üçün hazırdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim.

Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram, üçüncü oxunuşda münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

12-ci məsələyə keçirik. Bu məsələ "Diplomatik xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuşda müzakirəyə təqdim olunur. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Elşən müəllim, bu gün məlumatı Siz verəcəksiniz. Buyurun.

**Elşən Musayev.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Layihə ilə bağlı birinci oxunuşda hörmətli komitə sədrimiz Əli müəllim tərəfindən ətraflı məlumat verilib.

Bir daha qeyd etmək istəyirəm ki, mövcud dəyişiklik 2025-ci il 30 dekabr və 2026-cı il 27 fevral tarixli qanunların qəbul edilməsi zərurətindən

yaranıb. Belə ki, haqqında bəhs edilən qanunlara dövlət qulluğuna xitam verilməsinin əsasları, bu zaman dövlət qulluqçusuna, onun vərəsələrinə dövlət məvacibinin hesablanıb ödənilməsi, eyni zamanda, diplomatik xidmətin xüsusiyyətləri nəzərə alınmaqla digər müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün sözü hörmətli Sevinc xanım Fətəliyevaya verirəm. Sevinc xanım, buyurun.

**Sevinc Fətəliyeva,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Əziz həmkarlar, Elşən müəllim layihə haqqında ətraflı məlumat verdi. Komitəmizin rəyi müsbətdir. Birinci oxunuş zamanı qanun layihəsi ilə bağlı hər hansı bir təklif və dəyişiklik irəli sürülməmişdir. Qeyd olunanları nəzərə alaraq, qanun layihəsinin ikinci oxunuşda dəstəklənməsini xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sevinc xanım. Hörmətli həmkarlar, xatırladım ki, bu, ikinci oxunuşdur. Ona görə də biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Səsverməyə keçirik. Bilirsiniz ki, ikinci oxunuşda maddələr üzrə, sonra isə bütövlükdə səs veririk. Bu qanun layihəsində 3 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.

Mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Sonuncu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu məsələsinə keçirik. Bu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə birinci oxunuşda müzakirəyə təqdim olunur. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Buyurun, qanun layihəsi haqqında məlumat verin.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Bir sıra mövcud və bu gün qəbul etdiyimiz qanunlarda qadağan edilən əməllərə görə inzibati məsuliyyət müəyyən olunur.

Dəyişikliklər 4 istiqamət üzrə təklif edilir.

Birinci istiqamət əmək münasibətləri və sağlamlıqla bağlıdır. Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə, tibbi rəy olmadan işə qəbul edilməsinə və ya əmək münasibətlərinin davam etdirilməsinə görə vəzifəli şəxslərin min manatdan 3 min manatadək cərimə edilməsi təklif olunur.

İkinci istiqamət ekologiya və yaşıllıqların qorunması ilə bağlıdır. Barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsi barədə yalan və ya təhrif olunmuş məlumat verilməsinə görə hüquqi şəxslərin 5 min manat, vəzifəli şəxslərin 3 min manat, fiziki şəxslərin isə 500 manat miqdarında cərimələnməsi təklif edilir.

Üçüncü istiqamət maliyyə icarəsi ilə bağlıdır. Maliyyə icarəsi fəaliyyətini həyata keçirən şəxslər. Burada banklar və xüsusi kredit təşkilatları istisna olmaqla, onlar tərəfindən hesabatların Mərkəzi Bankın qanunvericiliyinə uyğun təqdim edilməməsinə görə də inzibati məsuliyyət müəyyən edilir.

Sonuncu məsələ isə ərzaq təhlükəsizliyi ilə bağlıdır. Ərzaq balansının tərtibi məqsədi ilə fermerlər və tədarükçülər tərəfindən istixanalar, soyuducu anbarlar və taxıl eliqatorları barədə zəruri məlumatların informasiya sisteminə vaxtında daxil edilməməsi isə inzibati xəta sayılacaq. Lakin nəzərə alınmalıdır ki, bu xətanı törətmiş şəxs yaranmış halları 10 iş günü müddətində aradan qaldırarsa, inzibati məsuliyyətdən azad olunacaq.

Qeyd edilənləri nəzərə alaraq, həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim.

Müzakirəyə yazılan yoxdur. Ona görə mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.37 dəq.)

| | |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bu gün yaz sessiyasının son iclasıdır. Mən sizə yaz sessiyasının yekunları barədə qısa məlumat vermək istəyirəm. Qeyd edim ki, sessiya ərzində parlamentin 15 iclası keçirilmiş, 57 qanun və 19 qərar qəbul edilmişdir.

Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətlərini tam həcmdə yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin hüquqi bazası daha da möhkəmləndirilmiş və təkmilləşdirilmişdir.

Hörmətli deputatlar, yaz sessiyasında görülmüş işlər haqqında danışarkən mən, həmişə olduğu kimi, parlament ilə hökumət arasında konstruktiv iş birliyini xüsusi vurğulamaq istəyirəm. Yaz sessiyasında müxtəlif hökumət qurumlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmişdir. Bununla birlikdə, deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınmışdır.

Hörmətli həmkarlar, Milli Məclisdə bir konfrans keçirilmişdir. Regional məsələlər komitəsinin təşkil etdiyi həmin tədbirdə “Azərbaycanda regionların, yerli demokratiyanın və özünüidarəetmənin inkişafında Heydər Əliyev irsi” mövzusu ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Sessiya dövründə böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə ictimai dinləmələr keçirilməsi praktikası davam etdirilmişdir. 4 bu cür tədbir təşkil olunmuşdur.

Əmək və sosial siyasət komitəsi "Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda, Ailə, qadın və uşaq məsələləri komitəsi "Qanunvericilikdə gender bərabərliyi: nailiyyətlər və perspektivlər" mövzusunda ictimai dinləmə keçirmişdir. Aqrar siyasət komitəsinin təşkil etdiyi ictimai dinləmə "Kənd təsərrüfatında süni intellektin tətbiqi: nəticələr və perspektivlər" mövzusuna, Elm və təhsil komitəsinin təşkil etdiyi ictimai dinləmə isə "İncəsənət məktəblərinin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusuna həsr edilmişdir.

Milli Məclisin Gənclər və idman komitəsi 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı görüş keçirmişdir.

Hörmətli deputatlar, Milli Məclis bəzi xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın suverenliyinə qarşı yönələn hərəkətlərə kəskin münasibətini bildirmişdir. Parlamentin səlahiyyət dairəsinə daxil olan bir sıra təyinat məsələləri həll edilmişdir.

Hörmətli həmkarlar, yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun, bu gün isə gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilmişdir.

Hörmətli deputatlar, Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilmişdir. Qeyd edim ki, sessiya ərzində parlamentdə 10 minə qədər vətəndaş müraciətinə baxılmışdır.

Hörmətli həmkarlar, yaz sessiyasında parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlər həyata keçirilmişdir. Yəni keçən 4 ayda Milli Məclisin 58 deputatı 29 ölkəyə 110 səfər həyata keçirmişdir. Deputatlarımız 9 beynəlxalq təşkilatın tədbirlərində iştirak və çıxış etmişlər.

Millət vəkillərimiz Qazaxıstanda keçirilən referendumu və Macarıstanda keçirilən parlament seçkilərini müşahidə etmişlər.

39 ölkənin və 8 beynəlxalq təşkilatın 48 nümayəndə heyəti, ümumən, 327 nəfər xarici qonaq Milli Məclisdə olmuşdur.

Hörmətli həmkarlar, yanvar ayından bəri Milli Məclis sədrinin 2 ölkəyə rəsmi və 8 ölkəyə işgüzar səfərləri olmuşdur. Milli Məclisdə mən bir ölkənin dövlət başçısı, bir ölkənin Baş naziri, 4 ölkənin parlament sədrləri, 2 beynəlxalq təşkilatın rəhbərləri, 3 ölkənin hökumət nümayəndələri, 4 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirmişəm. Aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilmişdir.

Hörmətli deputatlar, hesabat dövründə Milli Məclis 4 beynəlxalq tədbir təşkil etmişdir. Onlardan 3-ü Bakıda keçirilmişdir. Yəni biz burada ev sahibliyi etmişdik. Bunlar hansılardır?

Fevralın 24-də Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin onuncu üçtərəfli iclası, aprelin 7-də TürkPA-nın İqtisadi əməkdaşlıq komissiyasının on üçüncü iclası, aprelin 9-da Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin

dostluq qruplarının üçüncü iclası keçirilmişdir. Dördüncü isə aprelin 15-də Türkiyə Respublikasının İstanbul şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin beşinci konfransı Milli Məclisin təşkilatçılığı ilə keçirilmişdir. Toplantıda 34 ölkədən və 9 beynəlxalq təşkilatdan 43 nümayəndə heyəti, ümumən, 205 nümayəndə iştirak etmişdir.

Xatırladım ki, hörmətli həmkarlar, konfransda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin institusional inkişafı yolunda mühüm addım atılmışdır. Şəbəkənin mənzil qərargahının yaradılması və onun Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır. Yeri gəlmişkən, qeyd edim ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə hazırda Milli Məclis sədrlik edir. Milli Məclisin sədrlik etdiyi digər təşkilat isə İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasıdır. Eyni zamanda, bu il Milli Məclis İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Parlament İttifaqının 20-ci konfransının sədridir və iyun ayında 54 üzvü olan bu təşkilatın konfransı Bakıda keçiriləcək.

Hörmətli deputatlar, onu da xatırladım ki, Azərbaycan Respublikasının Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilmişdir. Bununla əlaqədar mayın 7-də Assambleyanın üzvü və tərəfdaşı olan parlamentlərin sədrlərinin Monteneqroda keçirilən birinci Sammiti çərçivəsində mərasim təşkil olunmuşdur.

Hörmətli həmkarlar, qeyd edim ki, yaz sessiyası dövründə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında, Milli Məclis ilə Bəhreyn Krallığının Nümayəndələr Şurası, Mərakeş Krallığının Müşavirlər Palatası, Slovakiya Respublikasının Milli Şurası arasında anlaşma memorandumları imzalanmışdır.

Hörmətli deputatlar, sabah xalqımız islam aləminin ən müqəddəs bayramlarından biri olan Qurban bayramını, mayın 28-də isə Müstəqillik

Gününü qeyd edəcək. 108 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xalqımızın zəngin dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi idi. Demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar təkcə ölkəmizin deyil, bütün müsəlman Şərqinin siyasi təkamülündə mühüm rol oynamışdır.

Bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərirdi.

Hörmətli həmkarlar, xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnərək 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmişdir. Təəssüf ki, o vaxtkı ölkə rəhbərliyinin qeyri-peşəkarlığı nəticəsində Azərbaycan çıxılmaz problemlər məngənəsinə düşmüşdü. Müstəqil dövlətçiliyin itirilməsi təhlükəsi tam real idi. Məhz belə bir şəraitdə, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə ali dövlət hakimiyyətinə qayıtdı. Onun misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi. Azərbaycan sistemli böhrandan çıxıb ardıcıl inkişaf yoluna qədəm qoydu.

Hörmətli deputatlar, Ümummilli Liderimizin inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Onun həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli dövlətə çevirmişdir.

Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və birgünlük antiterror əməliyyatında əldə edilən möhtəşəm qələbələr nəticəsində erməni işğalına son qoyulmuş, dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olunmuşdur. Azərbaycanın qarşısında yeni inkişaf

perspektivləri açılmış, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsi dəyişmişdir.

Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən ölkələri sırasında yerini daha da möhkəmləndirəcəkdir.

Hörmətli həmkarlar, təklif edirəm, Qurban bayramı və Müstəqillik Günü münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və gələcəyi naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq. *(Alqışlar.)*

Çox sağ olun.

Hörmətli həmkarlar, Qurban bayramı və Müstəqillik Günü münasibəti ilə mən sizin hər birinizi səmimi qəlbdən təbrik edirəm, hamınıza can sağlığı, firavanlıq və xoşbəxtlik arzulayıram. Eyni zamanda, burada daim bizi müşahidə edən, həmişə deyirəm, bizimlə birlikdə işləyən media nümayəndələrini də təbrik edirəm.

Beləliklə, hörmətli həmkarlar, Milli Məclis yaz sessiyasını, düşünürəm ki, uğurla başa çatdırır. Bununla əlaqədar mən sizə səmərəli iş üçün təşəkkür edirəm.

Milli Məclisin yaz sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***26 may 2026-cı il***

**Asif Əsgərov.** Bu gün Azərbaycan qlobal gündəliyi müəyyənləşdirən, beynəlxalq təşəbbüslərə ev sahibliyi edən mühüm strateji mərkəzlərdən birinə çevrilmişdir. COP29-dan sonra növbəti mühüm beynəlxalq hadisə – Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının – WUF13-ün ölkəmizdə keçirilməsi respublikamızın artan beynəlxalq nüfuzunun və etibarlı tərəfdaş imicinin növbəti parlaq göstəricisidir.

Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Bakı bu gün beynəlxalq dialoqun və müasir şəhərsalma yanaşmalarının formalaşdığı mühüm platformalardan birinə çevrilmişdir. Ölkə başçısının forumda səsləndirdiyi fikirlər bir daha göstərdi ki, Azərbaycan urbanizasiya, dayanıqlı inkişaf və yaşıl transformasiya məsələlərində artıq nümunəvi ölkələr sırasındadır. Forumun yüksək statusu, onun təşkilati mükəmməlliyi və ideoloji xətti həmçinin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən humanitar diplomatiyanın və milli brendləşmə strategiyasının birbaşa nəticəsidir. Forumun yüksək səviyyədə təşkili ölkəmizdə formalaşmış güclü idarəçilik ənənələrinin və humanitar yanaşmanın daha bir uğurlu nümunəsi oldu.

Hörmətli həmkarlar, WUF13 xüsusi ilə işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələrinin, yaşıl enerji konsepsiyasının beynəlxalq ictimaiyyətə təqdimatı baxımından mühüm əhəmiyyət daşıdı. Dünya bir daha şahid oldu ki, Azərbaycan qısa müddət ərzində dağıdılmış ərazilərdə ən müasir və ekoloji baxımdan dayanıqlı yaşayış məkanları qurmağa nail olmuşdur.

Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı keçirdiyi müşavirə də göstərdi ki, ölkəmizdə dayanıqlı inkişaf siyasəti yalnız şəhərsalmanı deyil, ərzaq təhlükəsizliyi, kənd yerlərinin inkişafı və müasir aqrar idarəçiliyin gücləndirilməsi kimi strateji istiqamətləri də əhatə edir. Bu yanaşma regionların balanslı inkişafına və kəndlə şəhər arasında müasir inteqrasiyanın formalaşmasına xidmət edir.

Qeyd edim ki, forumun ölkəmizə verdiyi töhfələr çoxşaxəlidir. İlk növbədə, milli şəhərsalma institutlarımız beynəlxalq təcrübə və innovativ texnologiyalarla daha yaxından tanış olmaq imkanı əldə etdilər. Eyni

zamanda, tədbir turizm, xidmət, logistika və digər qeyri-neft sahələrinin inkişafına əlavə stimul verdi, yeni investisiya imkanları yaratdı. Azərbaycanın yaşıl və dayanıqlı gələcək quran dövlət imici daha da möhkəmləndi. Xarici qonaqlar ölkəmizin zəngin mədəniyyətini və qonaqpərvərliyini yaxından görmək imkanı qazandılar.

WUF13 bir daha təsdiq etdi ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan həm regional, həm də qlobal çağırışlara çevik və effektiv cavab verən güclü dövlətdir. Bu forum ölkəmizin gələcək inkişaf strategiyasının mühüm tərkib hissəsi olmaqla yanaşı, Azərbaycanın dünyaya açılan imkanlarını və potensialını bir daha nümayiş etdirdi. Bu möhtəşəm uğur münasibəti ilə xalqımızı və dövlətimizi təbrik edirəm.

**Ceyhun Məmmədov.** Mayın 18-də Bakıda BMT-nin ən nüfuzlu beynəlxalq tədbirlərindən biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) açılış mərasimi təntənəli şəkildə keçirildi.

Son illərdə ölkəmizin beynəlxalq arenada qazandığı nüfuz, həyata keçirilən genişmiqyaslı quruculuq layihələri və şəhərsalma sahəsindəki müasir yanaşmalar Azərbaycanın artıq yalnız regional deyil, qlobal miqyasda da etibarlı tərəfdaş və əməkdaşlıq mərkəzi kimi tanındığını açıq şəkildə nümayiş etdirir.

Dövlət başçısı öz çıxışında işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq prosesinə xüsusi diqqət yetirdi. Bildirdi ki, onilliklər boyu işğal altında qalaraq viran edilmiş şəhər və kəndlər yenidən qurulur, müasir infrastruktur yaradılır, tarixi və dini abidələr əvvəlki əzəmətinə qovuşdurulur. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan işğaldan azad olunmuş torpaqlarda yalnız yeni yaşayış məntəqələri inşa etmir, həm də həmin ərazilərin tarixi kimliyini və mədəni ruhunu yenidən dirçəldir.

Bu gün işğaldan azad olunmuş torpaqlarda görülən işlər beynəlxalq ictimaiyyətin diqqətlə izlədiyi mühüm inkişaf nümunəsinə çevrilib. Qısa müddət ərzində yolların, hava limanlarının, yaşayış məntəqələrinin, sosial infrastrukturun və rabitə şəbəkələrinin qurulması Azərbaycan dövlətinin gücünü, idarəçiliyin səmərəliliyini və möhkəm siyasi iradəni bütün dünyaya nümayiş etdirir. Doğma yurd-yuvalarına qayıdan soydaşlarımızın sevinci isə həyata keçirilən dövlət siyasətinin ən dəyərli bəhrəsidir.

Bu gün Azərbaycan yalnız enerji, nəqliyyat-logistika və geosiyasi baxımdan deyil, humanitar və inkişaf platforması olaraq da beynəlxalq arenada mövqeyini getdikcə möhkəmləndirir. COP29-un Azərbaycanda keçirilməsinin ardınca WUF13 kimi nüfuzlu forumun da Bakıda təşkil olunması beynəlxalq birliyin ölkəmizə olan inamının və hörmətinin bariz ifadəsidir.

Xüsusi ilə vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən siyasət nəticəsində Azərbaycan regionda sabitlik, təhlükəsizlik və inkişaf məkanı kimi qəbul olunur. Dünyanın müxtəlif bölgələrindəki münaqişələr, siyasi böhranlar və iqtisadi qeyri-sabitlik fonunda ölkəmizdəki sabit inkişaf mühiti beynəlxalq tərəfdaşlar tərəfindən yüksək dəyərləndirilir.

Əminliklə demək olar ki, Azərbaycanın bu gün qazandığı uğurlar, böyük beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi və qlobal təşəbbüslərdə fəal iştirakı dövlətimizin artan gücünün, siyasi nüfuzunun və xalqımızın möhkəm birliyinin parlaq təcəssümüdür.

**Fatma Yıldırım.** Bu gün burada gender bərabərliyinin təmin edilməsi ilə bağlı hesabatı dinlədik. Hesab edirəm ki, bu məsələ yalnız hüquqi və ya sosial mövzu kimi yox, həm də cəmiyyətimizin gələcəyi, ailə institutunun sağlamlığı və milli inkişafımız baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dövləti qadın hüquqlarının qorunması və qadınların cəmiyyət həyatında fəal iştirakının təmin olunması istiqamətində mühüm addımlar atıb. Tariximizə baxdıqda görürük ki, Azərbaycan qadını hər zaman ailənin dayağı, milli-mənəvi dəyərlərin qoruyucusu olmaqla yanaşı, ictimai-siyasi həyatda da fəal mövqe tutub. Şərqdə ilk dəfə qadınlara seçki hüququnun məhz Azərbaycanda verilməsi də bunun ən böyük göstəricilərindən biridir.

Bu siyasətin əsasında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik xətti dayanır. Ümummilli Lider qadının cəmiyyətdə rolunu yüksək qiymətləndirir, onların təhsilinə, ictimai fəaliyyətinə və hüquqlarının qorunmasına xüsusi önəm verirdi. Bu gün həmin siyasət möhtərəm cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın humanitar, sosial və mədəni istiqamətdə fəaliyyəti Azərbaycan qadınının müasir obrazını dünyaya nümayiş etdirir.

“Gender bərabərliyi” anlayışı bizim milli-mənəvi dəyərlərimizə zidd yanaşma kimi təqdim olunmamalıdır. Əksinə, burada əsas məqsəd qadın və kişinin hüquq və imkanlarının bərabər təmin edilməsidir. Cəmiyyətin inkişafı üçün hər bir insanın potensialından düzgün istifadə olunmalıdır. Təhsildə, səhiyyədə, dövlət idarəçiliyində, sahibkarlıqda və digər sahələrdə qadınların fəallığının artması ölkəmizin ümumi inkişafına xidmət edir.

Amma, eyni zamanda, bizi düşündürən məqamlar da var. Bəzən sosial şəbəkələrdə və müxtəlif xarici təsirlər altında ailə institutunu zəiflədən, milli dəyərlərimizə uyğun gəlməyən yanaşmaların təbliği müşahidə olunur. Hesab edirəm ki, gender bərabərliyi məsələsinə yanaşarkən milli ailə modelimizi, mənəvi dəyərlərimizi və cəmiyyətimizin xüsusiyyətlərini də nəzərə almalıyıq. Çünki güclü cəmiyyətin əsasında sağlam ailə dayanır.

Ailə daxilində qarşılıqlı hörmət, məsuliyyət və anlayış olarsa, həm qadının hüquqları qorunar, həm də cəmiyyət daha sağlam inkişaf edər. Biz qadının cəmiyyətdə rolunu gücləndirməklə yanaşı, ana statusunun, ailə dəyərlərinin və milli-mənəvi prinsiplərin də qorunmasına xüsusi diqqət yetirməliyik.

Hesab edirəm ki, xüsusi ilə regionlarda qadınların məşğulluğu, peşə hazırlığı və iqtisadi imkanlarının artırılması istiqamətində daha sistemli proqramlara ehtiyac var. Qadın sahibkarlığının dəstəklənməsi, gənc qızların keyfiyyətli təhsilə əlçatanlığının artırılması və maarifləndirmə tədbirlərinin genişləndirilməsi vacib məsələlərdəndir.

Eyni zamanda, ailədaxili zorakılıq, erkən nikah və təhsildənyayınma kimi problemlərlə mübarizə yalnız qanunlarla deyil, həm də maarifləndirmə və ictimai məsuliyyət yolu ilə aparılmalıdır. Bu məsələlərdə məktəb, ailə, media və ictimai institutlar birlikdə fəaliyyət göstərməlidirlər. Milli dəyərlərinə bağlı, qadının həyatda rolunu düzgün qiymətləndirən və ailə institutunu qoruyan cəmiyyət hər zaman güclü olur. Azərbaycan dövləti də bu istiqamətdə öz siyasətini ardıcıl şəkildə davam etdirir.

Bu gün müzakirəyə təqdim olunan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə məlumatı olduqca əhatəli hazırlanmışdır. Mən təqdim olunan məlumatın lehinə səs verəcəm və həmkarlarımı da lehinə səs verməyə çağırıram.

**Hicran Hüseynova.** Müstəqil Azərbaycan Respublikası nəinki regionun, dünyanın lider ölkələri sırasındadır. Hazırda, demək olar ki, əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Azərbaycan dövlətinin yaradıcısı Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş prinsiplərə sadiq qalaraq bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz böyük nüfuz və hörmət sahibidir. Azərbaycanda son illərdə iqtisadi və sosial inkişaf, eləcə də qlobal enerji

təhlükəsizliyi sahələrində mühüm tarixi nailiyyətlər əldə olunub, ərazi bütövlüyü təmin edilib. 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri ilə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Bu gün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri uğurla aparılır. İnsanlar öz doğma evlərinə qayıdırlar.

Qlobal enerji layihələri, o cümlədən TANAP və TAP kimi layihələr vasitəsi ilə Cənub Qaz Dəhlizi reallaşdırılıb. Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsas strateji tərəfdaşlardan birinə çevrilib.

Nəqliyyat-logistika habı yaradılıb. Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması ölkənin tranzit potensialını gücləndirib.

Ölkə iqtisadiyyatı şaxələndirilir, qeyri-neft sektoru və regionların inkişafı təmin edilir, yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə aşağı salınır və əhalinin sosial müdafiəsi gücləndirilir.

Azərbaycanın beynəlxalq nüfuzu gedikcə daha çox artır. Ölkəmiz bir çox mötəbər tədbirlərə uğurla ev sahibliyi edir, həmçinin beynəlxalq əhəmiyyətli idman və mədəni tədbirlərin yüksək səviyyədə təşkilatçısı kimi tanınıb.

Əlbəttə, bütün bunlar – Prezident İlham Əliyevin liderlik xüsusiyyətləri rasional qərarlar, strateji baxış və yüksək diplomatik bacarıqların vəhdəti ilə səciyyələnir. İllər ərzində formalaşdırılan milli birlik və həmrəylik müharibə dövründə “Dəmir yumruq” kimi təzahür edərək Zəfərin əsas mənəvi təməlini qoydu. Şanlı qələbədən sonrakı dövrdə regionda sülh müqaviləsinin imzalanması istiqamətində aparılan ardıcıl siyasət, həmçinin beynəlxalq tədbirlərin, xüsusilə BMT-nin İqlim Dəyişmələri Konvensiyası kimi qlobal

tədbirlərin (COP29, WUF13) Bakıda uğurla təşkili Azərbaycanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırdı.

Beləliklə, Azərbaycanın tarixi Zəfər fonunda yürütdüyü uğurlu strategiya ordu quruculuğu, iqtisadi müstəqillik və güclü xarici siyasətin vəhdətinə əsaslanır. Bu strateji xətt Vətən müharibəsində ərazi bütövlüyünün bərpası, suverenliyin tam təmin edilməsi və regionda yeni geosiyasi reallıqların formalaşdırılması ilə nəticələnib.

Qarşıdan 28 May – Müstəqillik Günü və Qurban bayramı gəlir. Mən də təbriklərə qoşularaq, xalqımızı təbrik edirəm, inkişaf edən, çiçəklənən, güclü Azərbaycan naminə bir olaq, uğur, yüksəliş, sülh, əmin-amanlıq başımızın üzərindən əksik olmasın.

**Xanlar Fətiyev.** Ötən həftə Bakı mötəbər beynəlxalq tədbirə – Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi etdi. Forum müasir urbanistik meyarların inkişafına, bu sahədə yeni əməkdaşlıqların yaranmasına və təcrübə mübadilələrinə xidmət edən tədbirlərlə yadda qaldı. Forumda 182 ölkədən 45 mindən artıq iştirakçının qeydiyyata alınması bu tədbirə olan yüksək beynəlxalq maraqdan xəbər verdi.

Ümumdünya Şəhərsalma Forumunun məqsədi müasir dünyanın üzləşdiyi ən aktual məsələlərdən birinin – sürətli urbanizasiyanın dövlətlərə, şəhərlərə, iqtisadiyyatlara təsirlərinin araşdırılması və tənzimlənməsidir. BMT-nin Məskunlaşma Proqramı tərəfindən təşkil olunan bu forum həm də dayanıqlı şəhərsalma problemlərinin həllinə həsr olunmuş yüksək səviyyəli, açıq və inklüziv platformadır. Forumun 13-cü sessiyasının Bakıda keçirilməsi isə Azərbaycana olan beynəlxalq etimadın və respublikamızın müasir şəhərsalma və urbanizasiya təcrübəsinin qlobal səviyyədə yüksək qiymətləndirilməsinin göstəricisidir.

WUF13-lə bağlı Azərbaycana gələn qonaqlar ölkəmizi və paytaxtımızı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işlərlə tanış olmaq imkanı qazandılar. Forumda Azərbaycanın şəhərsalma və memarlıq irsi, bu sahədəki uğurları beynəlxalq ictimaiyyətə təqdim edildi. Respublikamızın şəhərsalma sahəsindəki tarixi irsinin və müasir uğurlarının təqdimatı baxımından ən mühüm hadisəsi isə Azərbaycan Prezidenti cənab İlham Əliyevin açılış mərasimində etdiyi çıxış oldu. Dövlətimizin başçısı nitqində xalqımızın zəngin şəhərsalma tarixinə, milli memarlıq irsinə, müasir şəhərsalma siyasətinin əsas istiqamətlərinə, urbanizasiya təcrübəsinə, Qarabağın və Şərqi Zəngəzurun quruculuğuna, Böyük Qayıdış proqramının həyata keçirilməsinə nəzər saldı.

Azərbaycan tarixinin qədimliyini və zənginliyini təsdiq edən amillərdən biri xalqımızın şəhərsalma və memarlıq irsidir. Tarix boyu mövcud olmuş dövlətlərimiz, əhatə etdiyimiz coğrafiya, karvan yollarının ərazilərimizdən keçməsi şəhərlərin də yaranmasına və inkişafına mühüm təsir göstərib. Gəncə, Bakı, Naxçıvan, Qəbələ, Şəki, Şuşa, Lənkəran kimi şəhərlərimizin tarixi Azərbaycanda köklü şəhərsalma irsinin olduğunu nümayiş etdirir. Bu şəhərlərdə həm də xalqımızın milli memarlıq ənənələri formalaşmış və inkişaf etmişdir.

WUF13-ün açılış mərasimində Azərbaycanın coğrafi və mədəni baxımdan Şərqlə Qərbin qovşağında yerləşdiyini xüsusi vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bu, ölkəmizin memarlığında öz əksini tapıb. Dövlətimizin başçısının dediyi kimi, biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq.

Bu gün Azərbaycanda inkişafın əsas xüsusiyyətlərindən biri şəhərsalmanın müasir çağırışlar əsasında həyata keçirilməsidir. Xüsusən

Bakıda görülən işlər, bir vaxtlar “Qara şəhər” adlandırılan ərazinin “Ağ şəhər” kimi yenidən qurulması, “Sea Breeze” layihəsi, habelə Bibiheybət və Böyükşorun simasının tamamilə yenilənməsi respublikamızın həyata keçirdiyi nümunəvi şəhərsalma fəaliyyətinin göstəriciləridir.

Hazırda Azərbaycan dövlətinin qarşısında dayanan əsas milli hədəflərdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsidir. Təsadüfi deyil ki, forumdakı çıxışında cənab Prezident İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasına da xüsusi diqqət çəkərək, bunun hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri olduğunu bir daha bəyan etdi. Eyni zamanda, dövlətimizin başçısı Ağdamın Xirosima ilə müqayisə olunmasına diqqət çəkərək bu şəhərin timsalında ermənilər tərəfindən şəhərlərimizin dağıdılmasının faciəvi miqyasını tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Bildiyimiz kimi, torpaqlarımızın işğaldan azad edilməsi respublikamızda şəhərsalma fəaliyyəti ilə bağlı qarşıda duran vəzifələri də yeniləyib. Artıq altıncı ildir ki, Azərbaycan dövləti özünün imkanları hesabına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını müasir çağırışları rəhbər tutan məskunlaşma və şəhərsalma prinsipləri əsasında bərpa edir. Bu ərazilərdəki bütün şəhərlər müfəssəl Baş planlar əsasında yenidən qurulur. Baş planların hər birində şəhərin özünəməxsusluğu və coğrafi xüsusiyyətləri nəzərə alınıb. Ötən müddətdə Füzulidə, Cəbrayılda, Şuşada, Zəngilanda, Ağdamda görülən işlər şəhərsalmanın, o cümlədən kəndlərin yenidənqurulması ilə bağlı həyata keçirilən layihələr məskunlaşmanın parlaq nümunələridir. Prezident İlham Əliyevin nitqində işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlı diqqətə çatdırdığı məqamlar, o cümlədən 85 mindən artıq vətəndaşımızın bu ərazilərdə

yaşaması, işləməsi və təhsil alması Azərbaycanın müasir urbanizasiya təcrübəsinin mühüm göstəriciləridir.

Prezident İlham Əliyevin WUF13-ün açılış mərasimində etdiyi çıxış Azərbaycanın milli-mənəvi dəyərlərə və müasir prinsiplərə əsaslanan şəhərsalma və məskunlaşma siyasətini beynəlxalq ictimaiyyətə nümayiş etdirdi. Dövlətimizin başçısının vurğuladığı məqamlar respublikamızda həyata keçirilən quruculuq proseslərinin milli kimliyin qorunması, ekoloji tarazlıq və innovativ idarəetmə prinsipləri əsasında formalaşdırıldığını aydın göstərdi. Bütün bunlar həm də Azərbaycanın dayanıqlı inkişaf prinsiplərinə sadiqliyini, sağlam, komfortlu və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasəti aydın şəkildə əks etdirdi.

Ümumilikdə, cənab Prezident İlham Əliyevin WUF13-ün açılış mərasimində səsləndirdiyi fikirlər Azərbaycan xalqının şəhərsalma və memarlıq ənənələrinin, bu sahədə müasir dövrdə əldə edilən uğurlarımızın mükəmməl təqdimatıdır. Dövlətimizin başçısının nitqi Azərbaycanın qlobal çağırışlara cavab verən, müasir və inklüziv inkişaf modelinə malik dövlət kimi mövqeyini daha da gücləndirdi. WUF13-ün özü isə Azərbaycanın mükəmməl təşkilatçılığının növbəti təsdiqi kimi yadda qaldı.

**Kamal Cəfərov.** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə illik məlumatı cəmiyyətimizin fundamental sütunlarını, hüquqi və sosial bərabərlik prinsiplərini birbaşa əhatə edir. Qanunvericilik səviyyəsində gender bərabərliyi tam təmin oluna bilər, lakin bu prinsiplərin real həyatda, idarəetmədə və gündəlik münasibətlərdə tam tətbiq edilməməsi hüququn mahiyyətini zəiflədir. Xüsusən də qərarverici sahələrdən söhbət gedirsə, qadınların rəhbər vəzifələrdə təmsilçiliyi hələ də istənilən səviyyəyə çatmayıb. İndiyə qədər mövcud olan stereotiplər və

ənənəvi baxışlar qadınların karyera pillələrində irəliləməsini ləngidir, onları idarəetmədən müəyyən dərəcədə uzaqlaşdırır və bu da insan kapitalımızın tam potensialı ilə işləməsini çətinləşdirir.

Hesabatın mətnində medianın monitorinqi ilə bağlı əks olunan hissələr konkret göstərir ki, cinsi ayrı-seçkiliyin, eləcə də ailə institutunu nüfuzdan salan tendensiyaların qarşısının alınması üçün operativ addımlar atılıb. Audiovizual Şuranın bu istiqamətdə tətbiq etdiyi xəbərdarlıq və yayımı dayandırma cəzaları efir məkanında hüquqi intizamı bərpa etmək üçün səmərəli mexanizmdir.

Çoxuşaqlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət başçısının qəbul etdiyi fərmanla beşdən çox uşağı olan qadınlara hər uşaq üçün ödənilən müavinətin artırılaraq 140 manat müəyyən edilməsi ailələrin maliyyə sabitliyinə birbaşa dəstəkdir. Bu addım dövlətin sosial rifah siyasətinin birbaşa təzahürüdür. İnstitusional səviyyədə isə nazirlik və komitələrdə gender məsələləri üzrə məsul şəxslərin fəaliyyətinin gücləndirilməsi dövlət siyasətində gender yanaşmasının qorunması üçün mühüm rola malikdir.

Sənəddə irəli sürülən tövsiyələrin icrası həm vətəndaşın dövlətə etimadını artıracaq, həm də hüquqi sistemimizi daha işlək vəziyyətə gətirəcək.

***

Müzakirəyə çıxarılan “Diplomatik xidmət haqqında” Qanuna dəyişiklik layihəsi xaricdə dövlətimizin maraqlarını qoruyan şəxslərin əmək və sosial hüquqlarının təminatında əsas məsələləri nəzərdə tutur. Hamıya məlumdur ki, diplomatik fəaliyyət spesifik və çətin bir sahədir. Lakin indiyə qədər qanunvericilikdə elə boşluqlar var idi ki, diplomatik xidmət əməkdaşının xidmət stajının hesablanmasında qeyri-müəyyənliyə səbəb olurdu. Bu da

birbaşa onların gələcək karyerasına və pensiya təminatına mənfi təsir edirdi.

Qanunun 28-ci maddəsinə təklif edilən əlavələrə baxdıqda bir neçə mühüm və ədalətli yanaşmanı vurğulamaq yerinə düşər. Yeni əlavə edilən bəndlər konkret olaraq dövlətin öz kadrına sahib çıxmasını tənzimləyir. Məsələn, qeyd olunan şəxslərin əmək qabiliyyətini müvəqqəti itirdiyi, qanuni məzuniyyətdə olduğu və ya beynəlxalq təşkilatlarda ölkəmizi təmsil etdiyi dövrlər artıq onun stajına birbaşa daxil ediləcək. Xüsusi ilə hərbi xidmətə çağırılan və geri qayıdan gənc əməkdaşların ordu sıralarında keçirdiyi müddətin staj kimi tanınması vətəndaşımıza göstərilən xüsusi diqqətin təzahürüdür. Bu əlavələr hər bir diplomatik xidmət əməkdaşının sosial müdafiəsinin real mühitə uyğunlaşdırılması deməkdir və belə olan halda onlar öz fəaliyyətlərinə daha çox fokuslana bilirlər.

**Kamran Bayramov.** İki gündən sonra biz xalqımızın ən müqəddəs və şanlı bayramlarından biri olan Müstəqillik gününü qeyd edəcəyik. Biz, sadəcə, təqvimdəki bir tarixi deyil, xalqımızın azadlıq ruhunu, dövlətçilik ənənələrini və Şərqdə ilk demokratik respublikanı quran, müstəqilliyimizin bünövrəsini qoyan əcdadlarımızın bizə ötürdüyü irsi qeyd edəcəyik. Müasir tariximizdə isə Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həmin müstəqilliyin ən qüdrətli, ən parlaq, ən uğurlu dövrünü yaşayırıq.

Bu gün Azərbaycan dünyaya tamamilə yeni bir simada təqdim olunur. Biz artıq, sadəcə, regional lider deyilik, qlobal miqyasda söz sahibi olan, beynəlxalq nüfuzu və imici gündən-günə güclənən bir dövlətik. Ölkəmizin yeritdiyi müstəqil, prinsipial və ədalətli xarici siyasət sayəsində bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş kimi qəbul olunur.

Regional nəqliyyat və enerji layihələrinin mərkəzi olmaqla yanaşı, ölkəmiz həm də qlobal humanitar, mədəni və siyasi dialoq məkanıdır.

Azərbaycanın artan beynəlxalq nüfuzunun ən bariz nümunələrindən biri də dünyanın ən mötəbər tədbirlərinə ev sahibliyi etməsidir. Sivilizasiyaların qovuşduğu Bakı şəhəri bu günlərdə daha bir möhtəşəm tarixi hadisəyə – Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına uğurla ev sahibliyi etdi. Dünyanın yüzlərcə ölkəsindən minlərcə nümayəndənin, dövlət rəsmilərinin və ekspertlərin qatıldığı bu mötəbər forumun məhz Bakıda keçirilməsi təsadüfi deyil. Bu, beynəlxalq birliyin Azərbaycana, onun idarəçilik qabiliyyətinə və gələcəyə yönəlmiş baxışına olan böyük inamının göstəricisidir. Azərbaycan bu forumla dünyaya göstərdi ki, biz təkcə şəhərlər tikmirik, biz gələcəyin dayanıqlı, yaşıl və təhlükəsiz dünyasını inşa edirik.

Amma Azərbaycanın bu sürətli inkişafı, ortaya qoyduğu qabaqcıl təcrübəsi, müstəqil xarici siyasəti və milli maraqlarını hər şeydən uca tutması müəyyən xarici dairələri hələ də narahat edir. Biz zaman-zaman fərqli tərəflərdən gələn təzyiqlərin, ikili standartların və daxili işlərimizə müdaxilə cəhdlərinin şahidi oluruq. Lakin həmin qüvvələr unudurlar ki, bugünkü Azərbaycan 1990-cı illərin əvvəlindəki zəif,köməksiz dövlət deyil. Ölkə rəhbərinin yürütdüyü uzaqgörən siyasət və xalq–iqtidar birliyi sayəsində Azərbaycan bütün xarici təhdidlərə və müdaxilələrə qarşı qətiyyətli cavabını verir. Bizə təzyiq etmək, bizi öz yolumuzdan döndərmək qeyri-mümkündür. Çünki gücümüz ədalətimizdə, iqtisadi müstəqilliyimizdə, rəşadətli ordumuzda və ən əsası, sarsılmaz milli birliyimizdədir. Biz əminik ki, xalqımızın bu birliyi, dövlətimizin bu qüdrəti qarşıdakı illərdə bizə daha böyük zirvələri fəth etməyə, daha yeni uğurlara imza atmağa imkan

verəcək. Üçrəngli bayrağımız hər zaman uca, müstəqilliyimiz əbədi və sarsılmaz olacaq!

**Könül Nurullayeva.** Azərbaycanda gender bərabərliyinin qorunmasının, cəmiyyətdə Azərbaycan qadınının rolunun artırılmasının, ölkəmizin ictimai-siyasi həyatında qadınların fəal şəkildə fəaliyyət göstərmələrinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev də bu vacib və strateji platforma üzərindən ölkədə gender bərabərliyinin təmin edilməsi, qadınların hüquqlarının qorunması, onların qanunvericilik və icra orqanlarında təmsil olunması üçün böyük təşəbbüs göstərir, yaxın gələcəyə hesablanmış əməli işlər görür.

Əminliklə söyləmək olar ki, gender bərabərliyinin təmin edilməsi məsələlərinə görə ölkəmiz ön sıralarda yer almaqdadır. Bu kontekstdə hazırda respublikamızda bütün sahələr üzrə rəhbər vəzifələrdə çalışan qadınlarımızın sayında da müsbət dinamikanın olması təqdirəlayiq haldır.

Bu xüsusda gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən kifayət qədər mükəmməl hazırlanmış və Milli Məclisin müzakirəsinə təqdim olunan 2025-ci il üzrə məlumatı məqbul hesab edirəm. Təbii ki, bu sənədə müsbət münasibətimi bildirəcəyəm.

İlk olaraq vurğulamaq istərdim ki, sözügedən məlumatda maraqlı statistikalar yer alıb. Xüsusən ötən dövr ərzində aparılmış işlərin müsbət təzahürlərinin statistikada real ifadəsi kifayət qədər qiymətləndirilməli məqamdır. İndiki dövrdə statistik təhlilin digər tədqiqat və metodoloji təhlil üsullarının fövqündə yer alması onu deməyə əsas verir ki, bu gün parlamentin və onun müvafiq komitəsinin müzakirəsinə məhz faktoloji

materiallarla zəngin məlumatın təqdim edilməsi şəffaflığın və obyektiv yanaşmanın əsas şərti kimi dəyərləndirilməlidir.

Eyni zamanda, sənəddə qarşıya qoyulan vəzifələr və tövsiyələr kifayət qədər konseptual xarakter daşıyır. Dövlət komitəsinin digər dövlət qurumları, nazirlik və icra orqanları ilə birlikdə həyata keçirdiyi tədbirlər, əhali arasında maarifləndirmə işinin gücləndirilməsi müsbət nəticələr verməkdədir. Hesabat yetərincə əhatəli olmaqla yanaşı, yenilikləri ilə müsbət mənada fərqlənir. Həmin yeniliklərin nədən ibarət olduğu giriş hissədə açıqlanır.

Konkret desək, təqdim edilən məlumata 2024-cü il üzrə analoji sənəddən fərqli olaraq Azərbaycanda ali təhsil müəssisələrində gender məsələləri ilə bağlı tədris olunan fənlər, qohum hesab edilən şəxslər arasında qeydə alınmış nikahların regionlar üzrə bölgüsü, 2025-ci il ərzində mediada cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi təbliğ və təşviq edən, ailə institutunu nüfuzdan salan informasiyaların qarşısının alınması ilə bağlı aparılmış monitorinqlər, məhkəmələrdə ailə mübahisələri ilə bağlı mülki işlər, aliment ödəməkdən yayınan valideynlər və cəza tədbirləri, 2025-ci ildə ana və uşaq ölümü halları, hamiləlikdən qorunma üsullarından istifadə ilə bağlı və digər yeni məlumatlar daxil edilmişdir.

Bununla belə, mən vaxt məhdudiyyətini nəzərə alaraq məlumatda əksini tapan bir sıra istiqamətlər üzrə təkliflərimi hörmətli Bahar xanımın diqqətinə çatdırmaq istərdim:

1. Məlumatda qadın vəkillərin, hakimlərin, hüquq mühafizə orqanları əməkdaşlarının sayındakı artımın qadınların ədliyyə sisteminə çıxışına, yəni müvafiq instansiyalara müraciətlərinə və onların ətraflı təhlilinə ehtiyac vardır.

2. Gender büdcəsinin əsasını dövlət siyasətinin gender üzrə ekspertizası təşkil edir. Bu, ölkəmizdə də büdcə siyasətinin qadın və kişilərə fərqli təsirlərini qiymətləndirməyə və sosial-iqtisadi qərarların nəticələrini əvvəlcədən müəyyən etməyə imkan yaradır. Məlumatda gender büdcəsinin izahı verilmişdir, lakin bu məsələnin Azərbaycanla bağlı məqamları göstərilməmişdir.

3. Son 3 ildə gender fərqi stabil olaraq qalmaqdadır. Məhz bu sabitlik qadın sahibkarlığının dəstəklənməsi istiqamətində çoxsaylı tədbirlərin qadın sahibkarlara təsirlərinin qiymətləndirilməsi üçün hüquqi və iqtisadi əsas yaradır. Hazırda ölkədə fəaliyyət göstərən hər 5 sahibkardan birinin qadın olmasına baxmayaraq, böyük sahibkarlar arasında qadın sahibkar, demək olar ki, yoxdur. Yəni bu ondan xəbər verir ki, orta və iri sahibkarlıqda qadınlar nisbətən zəif təmsil olunurlar. Odur ki, sözügedən problemlə bağlı qiymətləndirmə mexanizminin və onun nəticələrinin təhlilinin məlumatda yer alması faydalı olardı.

4. Azərbaycanda əmək bazarında bərabərsizliyin aradan qaldırılması istiqamətində bir çox işlər görülür və müsbət nəticələr də var. Müvafiq olaraq qanunvericilikdə də əlavə və dəyişikliklər edilmişdir. Belə ki, qadınların əməyi qadağan olunan 674 peşə və iş yeri azaldılaraq 204-ə çatdırılmışdır. Qadağan edilən peşə və iş yerləri yalnız hamilə və ya 1 yaşınadək uşağı olan qadınlara tətbiq olunur. Bu xüsusda qadınlar tərəfindən əmək hüquqlarının pozulması ilə bağlı müraciətlərin statistikası verilsə də, müraciətlər arasında üstünlük təşkil edən istiqamətlər göstərilməmişdir.

Ümumilikdə isə dövlət komitəsinin 2025-ci il üzrə fəaliyyətinə dair məlumatını müsbət qiymətləndirirəm.

**Malik Həsənov.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 108 il keçir. 108 ilin zirvəsindən geri baxanda xalqımızın öz məqsədlərinə nail olmaq üçün bütün çətinliklərə sinə gərdiyini, daim irəliyə doğru inamla irəlilədiyini görür və bundan böyük qürur hissi keçiririk. Belə ki, qədim və zəngin dövlətçilik ənənələrinə malik xalqımız öz tarixinin müəyyən dövrlərində zamanın hökmü ilə böyük imperiyaların tərkibinə qatılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda – XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanın mədəni-siyasi yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdı. Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirdi. Cəmi 2 ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sistemində tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır.

Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynadı. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları

quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Məlum səbəblərdən Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı.

Azərbaycan 1991-ci il oktyabr ayının 18-də müstəqilliyini bərpa etdi. Lakin xalqımız müstəqilliyin əsl sevincini 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yaşadı. Müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadıqları yaddaşlardadır. O illər tariximizin qara səhifəsi kimi daim vərəqlənir. Azərbaycan müstəqilliyini itirmək təhlükəsini yaşadığı o çətin günlərdə xalq üzünü xilaskarına – Ümummilli Lider Heydər Əliyevə tutdu. Ulu Öndər xalqın səsinə səs verdi, 1993-cü ildə hakimiyyətə qayıdışı ilə bugünkü reallıqların möhkəm təməlini yaratdı. Azərbaycanı yenidən quran Ümummilli Lider müstəqilliyimizi tarixi nailiyyətimiz kimi dəyərləndirərək onun qorunmasını, möhkəmləndirilməsini hər kəsin vətəndaşlıq borcu olduğunu bildirdi. İlk olaraq bu çağırışı etdi ki, suverenliyimizi daimi etmək, müstəqilliyimizi qorumaq üçün harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları bir amal – azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməlidirlər.

Ulu Öndərin zəngin idarəçilik təcrübəsi, vətən, xalq, millət sevgisi Azərbaycanı çətin vəziyyətdən xilas etdi. Ümummilli Lider xilaskarlıq missiyasını yerinə yetirərək Azərbaycanın dövlət müstəqilliyini əbədi, dönməz və sarsılmaz etdi. 1993–2003-cü illərdə yaradılan möhkəm təməl Azərbaycanın davamlı uğurlarını şərtləndirdi. 2003-cü ildən Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı zirvələrə yüksəltdi. Dünyaya təkmil inkişaf modelini təqdim edən Azərbaycanın sözünün imzası qədər dəyəri artdı. Hər sahədə inkişaf, tərəqqi geniş vüsət alır.

Hər bir ölkənin inkişafında vacib amil olan iqtisadi inkişafın təmin edilməsi dövlət siyasətinin əsasıdır. Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə atdığı addımların uğurlu nəticələrini bugünkü Azərbaycanın reallıqlarında görürük. Dahi şəxsiyyətin müəllifi olduğu neft strategiyası Azərbaycana davamlı uğurlar qazandırır. "Əsrin müqaviləsi"nin imzalanmasından 23 il sonra, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması Azərbaycana diqqət və marağın, etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinin göstəricisi oldu. Regional çərçivədə başlanan əməkdaşlıq 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlinin qoyulması ilə çoxtərəfli çərçivədə uğurla davam edir. Artıq 2020-ci ilin sonunda Cənub Qaz Dəhlizi tam tərkibdə istifadəyə verildi.

Ümummilli Liderin müəllifi olduğu neft strategiyasının müstəqilliyimizin möhkəmləndirilməsində rolu böyükdür. Azərbaycanın iqtisadi imkanlarının artması siyasi mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı və Naxçıvan MR-in dövlət bayrağı kimi rəsmiləşdirildi, Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıldı. Ulu Öndər Heydər Əliyev istər hakimiyyətinin birinci dövründə, istərsə də fəaliyyətinin Naxçıvan mərhələsində Azərbaycanın müstəqil gələcəyi üçün bir-birindən mühüm işlər görüb.

108 illik yolu bir yazıda əhatə etmək mümkün deyil. Müstəqillik tariximizdə qazandığımız uğurların ümumiləşdirilmiş ifadəsi tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası və onların yaratdığı yeni reallıqlardır. 1993-cü ildən başlanan yol Azərbaycanı 30 il işğal altında qalan torpaqlarına qovuşdurdu, tarixi ədalət bərpa edildi. Müstəqilliyimizin,

suverenliyimizin qarantı olan ordumuzun gücü, qüdrəti, tarixi ədalətə, beynəlxalq hüquqa söykənən siyasətimiz 44 günlük İkinci Qarabağ müharibəsində tarixi qələbəmizlə öz sözünü dedi. 2023-cü ildə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi ilə Azərbaycanın həyatında yeni dövr başladı. Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə Azərbaycan bayrağını ucaltdı. 2024-cü ilin 28 may tarixində – Müstəqillik Günündə Xocalı şəhəri sakinlərinə qovuşdu. Həmin tarixdə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşdülər. 2023-cü ildə Müstəqillik Günündə Laçın şəhərində laçınlılara evlərin açarları təqdim edildi. 2022-ci il Müstəqillik Günü ərəfəsində – mayın 27-də Ağalı sakinləri ilə görüşən cənab İlham Əliyev bildirdi ki, bu gün hər bir Azərbaycan vətəndaşı görür ki, Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir.
Ötən il 28 May – Müstəqillik Günündə Azərbaycan, Türkiyə və Pakistan liderlərinin iştirakı ilə Laçın Beynəlxalq Hava Limanının açılışı oldu. Laçın şəhərində üç qardaş ölkənin Zirvə görüşü keçirildi. Həmçinin liderlər Laçın şəhərində Müstəqillik Gününə həsr edilən konsertdə iştirak etdilər.

Son 5 ildən artıq dövr işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidən qurulması, soydaşlarımızın Böyük Qayıdışı ilə diqqətdədir. Bayramlarımızın, tarixi günlərimizin bu gün işğaldan azad olunmuş bütün ərazilərimizdə qeyd edilməsi hər birimizi qürurlandırır. Hər bir il Azərbaycan xalqının tarixinə uğur səhifəsi kimi əlavə olunur. Bu baxımdan, ötən ili tarixi il kimi dəyərləndirən cənab İlham Əliyev bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, 2025-ci ildə Ermənistan–Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə

aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub: fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq qələbəyə siyasi müstəvidə dünyanın bir nömrəli ofisində siyasi möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq.

Möhkəm təməl uğurlarımızın əsasıdır. Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir. Müasir müstəqil, qalib Azərbaycan hər bir sahədə zəngin təcrübəsi ilə gələcəyə doğru inamla addımlayır.

**Mehriban Vəliyeva.** Azərbaycanda qadın hüquqlarının qorunması, gender bərabərliyinin təşviqi, qadınların dövlət idarəçiliyində və qərar qəbuletmə prosesində iştirakının artırılması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu siyasətin əsasında Prezident cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl sosial və institusional islahatlar dayanır. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə qadınların ictimai-siyasi fəallığının artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və gender bərabərliyinin təmin olunması istiqamətində mühüm addımlar atılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın humanitar və sosial təşəbbüsləri, xüsusi ilə qadınların təhsili, sağlamlığı, sosial rifahı və cəmiyyətdə fəal iştirakının təşviqi istiqamətində həyata keçirdiyi layihələr ölkədə gender siyasətinin inkişafına mühüm töhfə verir. Mehriban xanım Əliyevanın fəaliyyəti Azərbaycan qadınının ictimai həyatda rolunun güclənməsinə mühüm stimuldur. Bu siyasətin hüquqi əsası 2006-cı ildə qəbul olunmuş

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə daha da möhkəmləndirilmişdir. Qanun gender bərabərliyinin təmin olunması, ayrı-seçkiliyin qarşısının alınması və qadınların siyasi, sosial, iqtisadi və mədəni həyatda rolunun artırılması üçün mühüm hüquqi baza yaratmışdır.

Azərbaycan gender siyasəti sahəsində beynəlxalq öhdəliklərinə də sadiqdir. Xüsusi ilə CEDAW Komitəsi çərçivəsində verilmiş tövsiyələrin icrası istiqamətində mühüm addımlar atılmış, milli qanunvericilik və institusional mexanizmlər beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Bu istiqamətdə mühüm sənədlərdən biri də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı” olmuşdur. Milli Fəaliyyət Planında qadınların ictimai fəallığının artırılması, təhsil və məşğulluq imkanlarının genişləndirilməsi, iqlim dəyişiklikləri və media sahəsində gender yanaşmasının gücləndirilməsi, həmçinin gender bərabərliyi mədəniyyətinin təşviqi əsas prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

2025-ci il üzrə hazırlanmış illik məlumat gender bərabərliyinin təmin olunması sahəsində dövlət siyasətinin nəticələrini, beynəlxalq öhdəliklərin icrası istiqamətində görülən işləri və statistik irəliləyişləri əks etdirir. Məlumat üç əsas istiqaməti əhatə edir.

Birinci istiqamət gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini və dövlət vəzifələrini əhatə edir. Burada normativ hüquqi bazanın təkmilləşdirilməsi, institusional mexanizmlərin gücləndirilməsi, gender mədəniyyətinin təşviqi, qərar qəbuletmə və idarəetmədə qadınların iştirakının artırılması kimi məsələlər yer almışdır.

İkinci istiqamət gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatına həsr olunmuşdur. Bu bölmədə əmək hüquqları, məşğulluq imkanları, təhsil hüququ, qadın sahibkarlığının inkişafı, sosial müdafiə mexanizmləri və genderə həssas yanaşmalar öz əksini tapmışdır.

Üçüncü istiqamət isə Azərbaycanda gender bərabərliyi sahəsində əldə edilmiş nəticələri, mövcud çağırışları, qarşıda duran vəzifələri və tövsiyələri əhatə edir.

Məlumatın üstün cəhətlərindən biri də ondan ibarətdir ki, burada yalnız statistik göstəricilər deyil, həm də yeni araşdırmalar və təhlillər təqdim olunmuşdur. İlk dəfə olaraq erkən nikahla bağlı regional risk xəritəsi hazırlanmış, intihar səbəbləri, sosial-iqtisadi problemlərin ailə institutuna təsiri və gənclərin hüquq düşüncəsi üzrə tədqiqatlar aparılmışdır. Bundan əlavə, ali təhsil müəssisələrində gender mövzulu dərslər, qohum nikahları üzrə regional bölgü, məişət zorakılığı və ailə mübahisələri ilə bağlı məhkəmə statistikaları da hesabatda əks olunmuşdur.

Son illərdə gender bərabərliyi sahəsində mühüm statistik irəliləyişlər əldə edilmişdir. Bu uğurların əsasında Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət, insan kapitalının inkişafına verilən önəm və qadınların cəmiyyət həyatında rolunun artırılmasına göstərilən xüsusi diqqət dayanır.

Qadınların qanunvericilik orqanında təmsilçiliyi 2005-ci ildəki 11,2 faizdən 2024-cü ildə 20,8 faizə yüksəlmişdir. Yerli özünüidarəetmə orqanlarında qadınların payı isə 4 faizdən 39,34 faizə çatmışdır. Dövlət qulluğunda qadınların xüsusi çəkisi artaraq 29,7 faizə yüksəlmiş, hakimlər, hüquq mühafizə orqanları əməkdaşları və vəkillər arasında qadınların sayı çoxalmışdır. Vəkilliyə qəbul imtahanlarında iştirak edən qadınların sayı 65 faiz artmışdır.

Qadın sahibkarlığının inkişafı istiqamətində də müsbət dinamika müşahidə olunur. Hazırda ölkədə fərdi sahibkarların 23 faizini qadınlar təşkil edir. Onlara verilən güzəştli kreditlərin həcmi 2023-cü ildə 16,4 milyon manat olduğu halda, 2024-cü ildə 18,8 milyon manata yüksəlmişdir. Bu istiqamətdə Heydər Əliyev Fondunun və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial layihələr, xüsusi ilə regionlarda qadınların məşğulluğunun və iqtisadi fəallığının artırılmasına yönəlmiş proqramlar xüsusi əhəmiyyət daşıyır.

Əmək münasibətlərində gender bərabərliyinin təmin olunması məqsədi ilə Əmək Məcəlləsinə mühüm dəyişikliklər edilmişdir. “Ailə vəzifələri olan işçi” anlayışı qanunvericiliyə daxil edilmiş, kişilərə uşağın doğulması ilə əlaqədar 14 günlük ödənişli məzuniyyət hüququ verilmişdir.

2024-cü ildə məişət zorakılığı ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklər də xüsusi əhəmiyyət daşıyır. Mühafizə orderlərinin müddəti artırılmış, zərərçəkmiş şəxslərin hüquqi müdafiə mexanizmləri gücləndirilmiş, monitorinq və əlaqələndirmə qrupları yaradılmışdır.

Erkən nikah və qohum nikahlarının qarşısının alınması məqsədi ilə qəbul edilmiş dəyişikliklər artıq müsbət nəticələr verməkdədir. Nikah yaşının azaldılması hallarında 64 fakt qeydə alınmış, 18 yaşadək anaların sayı 1742-dən 1279-a enmişdir. Məişət zorakılığı ilə bağlı müraciətlərdə də azalma müşahidə olunmuşdur.

Bununla yanaşı, qız və oğlan uşaqları arasında doğum nisbətində fərqin azalması selektiv abortlarla mübarizədə müəyyən irəliləyişlərin olduğunu göstərir. Lakin hələ də 100 doğulmuş qıza 113 oğlan uşağının doğulması bu sahədə ciddi işlər görməyi tələb edir.

Əldə olunan nəticələrə baxmayaraq, qarşıda duran vəzifələr də kifayət qədər əhəmiyyətlidir. İlk növbədə, gender bərabərliyi üzrə qanunvericilik və

institutional mexanizmlər daha da təkmilləşdirilməlidir. Gender əsaslı büdcələşdirmə praktikasının formalaşdırılması və dövlət proqramlarında gender yanaşmasının gücləndirilməsi vacibdir.

Qadınların qərar qəbuletmədə və yüksək vəzifələrdə təmsilçiliyinin artırılması, yeni peşə sahələrində hazırlığın gücləndirilməsi, kənd yerlərində qadın sahibkarlığının dəstəklənməsi üçün yeni maliyyə və mentorluq mexanizmlərinin yaradılması da məqsədəmüvafiqdir.

Ailə öhdəlikləri olan şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, peşə hazırlığı proqramlarının artırılması və çevik məşğulluq formalarının tətbiqi də prioritet olmalıdır.

Məişət zorakılığı ilə mübarizə istiqamətində zərərçəkmiş şəxslər üçün yardım və reabilitasiya mərkəzlərinin sayının artırılması, erkən nikahlar və selektiv abortlarla bağlı maarifləndirmə tədbirlərinin gücləndirilməsi də tövsiyə olunur.

Əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüs və qayğısı, dövlət qurumları, vətəndaş cəmiyyəti və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq şəraitində gender bərabərliyi sahəsində daha davamlı və inklüziv nəticələr əldə ediləcəkdir.

**Səbinə Salmanova.** Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) Azərbaycanın artan nüfuzunun növbəti təsdiqi oldu. 176 ölkədən 60 minə yaxın iştirakçını bir araya gətirən forum miqyasına görə bu günədək keçirilmiş ən geniş tədbir kimi tarixə düşdü. COP29-dan sonra ölkəmizdə təşkil olunan ikinci ən böyük beynəlxalq tədbir olan WUF13 Azərbaycanın qlobal həmrəylik, çoxtərəfli əməkdaşlıq və beynəlxalq tərəfdaşlıq üçün etibarlı platforma statusunu bir daha nümayiş etdirdi.

WUF13-ün Bakıda keçirilməsi təsadüfi seçim deyildi. Bu qərar Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində qazandığı etimadın, etibarlı tərəfdaş statusunun və qlobal təşəbbüslərə verdiyi töhfələrin məntiqi nəticəsi idi.

Müasir dünyada böyük beynəlxalq tədbirlərin keçirilməsi üçün yalnız inkişaf etmiş infrastruktur kifayət etmir. Bunun üçün siyasi sabitlik, təhlükəsizlik, təşkilati məsələlərlə bağlı peşəkarlıq, beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq və yüksək idarəçilik qabiliyyəti tələb olunur. Azərbaycan bütün bu meyarlara cavab verən ölkə kimi artıq özünü dəfələrlə sübut edib. Son illərdə ölkəmizdə keçirilən beynəlxalq humanitar forumlar, Qoşulmama Hərəkatının Zirvə görüşü, beynəlxalq idman yarışları, enerji forumları və nəhayət, COP29 kimi qlobal tədbirlər Azərbaycanın təşkilatçılıq imkanlarının yüksək səviyyəsini bütün dünyaya nümayiş etdirib. WUF13 də bu uğurlu ənənənin davamı oldu.

Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində Prezident İlham Əliyevin uzaqgörən siyasəti və strateji liderliyi dayanır. Son illərdə həyata keçirilən ardıcıl islahatlar, genişmiqyaslı infrastruktur layihələri, iqtisadi modernləşmə proqramları və beynəlxalq əməkdaşlığın genişləndirilməsi ölkəmizi regionun lider dövlətinə çevirməklə yanaşı, qlobal miqyasda da nüfuzunu əhəmiyyətli dərəcədə artırıb.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan yalnız enerji sahəsində deyil, nəqliyyat, logistika, rəqəmsal transformasiya, yaşıl enerji və şəhərsalma istiqamətlərində də mühüm nailiyyətlər əldə edib. Məhz bu siyasətin nəticəsidir ki, bu gün dünya Azərbaycanın təcrübəsini öyrənir, ölkəmizin həyata keçirdiyi layihələri müasir inkişaf modeli kimi qiymətləndirir.

BMT-nin ən nüfuzlu tədbirlərindən biri olan WUF13-ün Azərbaycanda keçirilməsi də beynəlxalq ictimaiyyətin cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf strategiyasına verdiyi yüksək qiymətin təzahürüdür.

Forum çərçivəsində ən çox maraq doğuran mövzulardan biri işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma proqramları oldu. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən layihələr artıq beynəlxalq ekspertlər tərəfindən müasir şəhərsalma və dayanıqlı inkişaf nümunəsi kimi qiymətləndirilir.

30 ilə yaxın müddətdə sistemli şəkildə dağıdılmış şəhər və kəndlərin qısa zaman ərzində yenidən qurulması, “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının tətbiqi, yaşıl enerji əsaslı infrastrukturun yaradılması, müasir nəqliyyat şəbəkələrinin qurulması və insanların doğma torpaqlarına qayıdışının təmin olunması dünya praktikasında nadir rast gəlinən uğurlu nümunələrdəndir.

Bu gün Zəngilan, Laçın, Füzuli, Şuşa, Xankəndi və digər yaşayış məntəqələrində həyata keçirilən layihələr göstərir ki, Azərbaycan, sadəcə, dağıdılmış əraziləri bərpa etmir, gələcəyin şəhərlərini və yaşayış məkanlarını da qurur.

WUF13-ün Bakıda keçirilməsi İlham Əliyevin beynəlxalq əməkdaşlıq strategiyasının davamıdır. Bu, Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının və dövlət siyasətinin real nəticəsidir. Əgər bir vaxtlar Qarabağ və Şərqi Zəngəzur dağıntılar məkanı kimi tanınırdısa, bu gün həmin ərazilər innovativ şəhərsalma, ekoloji dayanıqlılıq və müasir idarəetmə prinsiplərinin tətbiq olunduğu nümunəvi inkişaf regionuna çevrilməkdədir.

WUF13-ün uğurla keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun növbəti təsdiqidir. Forum göstərdi ki, Azərbaycan yalnız regional deyil, qlobal məsələlərin müzakirəsində və həllində də mühüm rol oynayan məsuliyyətli dövlətdir.

Bakının dünya urbanizasiya gündəminin əsas müzakirə meydanına çevrilməsi, minlərcə iştirakçının ölkəmizə səfəri, aparılan müzakirələr və əldə olunan nəticələr Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfənin və dünyada artan nüfuzunun parlaq göstəricisidir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində Azərbaycan bu gün həm quruculuq, həm inkişaf, həm də beynəlxalq əməkdaşlıq modeli kimi qəbul olunur. WUF13 isə bu reallığın növbəti təsdiqi olmaqla ölkəmizin qlobal nüfuz salnaməsinə yazılmış daha bir mühüm uğur səhifəsidir.

**Tənzilə Rüstəmxanlı.** Azərbaycan son 20 ildə bir sıra qlobal səviyyəli tədbirlərə ev sahibliyi etməklə, siyasi, iqtisadi və mədəni mərkəzə çevrilib. Şübhəsiz ki, bunu təmin edən başlıca strateji faktor dövlətimizin başçısı cənab İlham Əliyevin iradəsi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursudur.

Azərbaycanın yürütdüyü tarazlaşdırılmış siyasi xətt beynəlxalq aləmdə dövlətimizə olan etimadı daha da artırıb. Bir-birindən mötəbər tədbirləri təşkil etməsi ölkəmizin dünyada sülhə, mədəniyyətlərarası dialoqa əhəmiyyətli töhfələr verməsinin növbəti təsdiqidir.

Əminliklə demək olar ki, Prezident İlham Əliyevin müəllifi olduğu yüksək təhlükəsizlik modeli Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsini şərtləndirən əsas amildir.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi ölkəmizin dünyada artan nüfuzu fonunda yüksək

dəyərləndirilməlidir. Ümumdünya Şəhərsalma Forumunun 24 illik tarixində bu sessiya ilk dəfədir ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda keçirilir. Bu fakt özlüyündə böyük əhəmiyyət daşıyır. Ona görə ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün platforma seçilərkən ölkənin qurumsal imkanları, siyasi sabitlik və təcrübə əsas götürülür. Yəni məsələ Azərbaycanın təkcə tədbirə ev sahibliyi ilə bitmir. Bu, ölkəmizin son illərdə formalaşdırdığı siyasi nüfuzun, təşkilati imkanların və xüsusi ilə şəhərsalma sahəsində ortaya qoyduğu təcrübənin, postmüharibə dövründə aparılan quruculuq işlərinin beynəlxalq səviyyədə qəbulunun göstəricisidir.

30 il ərzində Azərbaycan torpaqları dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların gözü qarşısında xarabalığa çevrilmişdi. Şəhərlər və kəndlər viran edilmiş, tarixi adidələr talan olunmuş və bütün infrastruktur dağıdılmışdı.

Lakin müharibədən sonra Azərbaycan öz imkanları hesabına bu ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işlərinə başladı. Bu gün Qarabağ və Şərqi Zəngəzur regionu müasir tikinti və şəhərsalma meydanına çevrilib. Dünya tarixində tamamilə dağıdılmış şəhərlərin sıfırdan, müasir şəhərsalma prinsipləri əsasında qurulması nadir hallarda rast gəlinən prosesdir.

Prezident İlham Əliyevin forumda səsləndirdiyi fikirlər Azərbaycanın şəhərsalma siyasətinin əsas prioritetlərini və gələcək hədəflərini aydın şəkildə ortaya qoyur. Çıxışda dayanıqlı inkişaf, ekoloji təhlükəsizlik, müasir infrastrukturun qurulması və insanların rahat yaşayışının təmin olunması kimi məsələlər xüsusi vurğulanmış və Azərbaycanın gələcəyin şəhərlərini quran ölkə statusunu möhkəmləndirmişdir. Bu mötəbər platforma ölkəmizin şəhərsalma, memarlıq, ekoloji inkişaf və müasir yaşayış konsepsiyası sahəsində qazandığı uğurların beynəlxalq səviyyədə daha geniş

tanınmasına ciddi töhfə verəcək. Azərbaycan bu gün yalnız inkişaf edən ölkə deyil, həm də gələcəyin şəhərlərini formalaşdıran dövlətlərdən biri kimi dünya miqyasında öz nüfuzunu daha da möhkəmləndirir.